www.kitabxana.net

**Milli Virtual Kitabxananın təqdimatında**

# Susanna Tamaro

## (İtaliya)



# "Ürəyimin apardığı yerə get"

# (roman)

**Türkiyə türkcəsindən uyğunlaşdıranı: Tovuz**


**Şəbəkə redaktoru: Aydın Xan (Əbilov), yazıçı-kulturoloq**

**E-kitab N 19**

**YYSQ – Milli Virtual Kitabxananın rəqəmsal nəşri N 19**

**Bakı – 2010**

# "Ürəyimin apardığı yerə get"

# (roman)

***"Dünya ədəbiyyatı" dərgisinin təqdimatı***

***Ah Şiva, nədir sənin həqiqətin?***
***Bu həyatverici kainat de nə?***
***Toxumu yaradan nə?***
***Kainatın çarxını kim çevirir?***

***Formaların özünü bürüyən***
***Bu şəkillərdən o yandakı həyat da nə?***
***Məkanın və zamanın o biri tərəfində***
***Adların və xasiyyətlərin dünyasına***
***Necə girərik dərinləşməsinə***
***Aydınlaşdır mənim şübhələrimi.***

**Müqəddəs bir Kəşmir Şiva kitabından**

**Opiçina, 16 noyabr, 1992**

**Opiçina, 16 noyabr, 1992**

Getdiyin gündən iki ay keçdi və iki aydan bəri yaşadığını bildirən bir təbrik açıqcasından başqa səndən heç bir xəbər almadım. Bu səhər bağçada uzun müddət əkdiyin güllərdən birinin qarşısında durdum. Payızın düşməsinə baxmayaraq, o açıq-bənövşəyi rəngiylə çoxdan solmuş başqa bitkilərin arasında məğrur və tənha, qürurla durmuşdu. Onu nə zaman əkdiyimizi xatırlayırsanmı? On yaşındaydın və artıq «Kiçik şahzadə»ni oxumuşdun. O kitabı sənə sinifdən-sinifə keçməyin münasibətiylə hədiyyə olaraq almışdım. Hekayəyə heyran olmuşdun. Bütün tiplər arasında sənin sevdiklərin gül və tülkü idi; baobabı, ilanı, pilotu və o kiçicik planetlərində bekar oturan özündən razı avara adamları heç bəyənməmişdin. Günlərin birində səhər yeməyini yeyərkən, «Bir gül istəyirəm»- dedin. Əslində güllərimizin həddən çox olduğunu söyləsəm də sən inad edirdin, «Mən yalnız mənə aid olan bir gül istəyirəm, ona baxmaq, onu böyütmək istəyirəm». Güllə bərabər bir də tülkü istəyirdin. Uşaqlara xas hiyləgərliklə sadə arzunu elə dilə gətirdin ki, bunun imkansız olduğunu söyləyə bilmədim. Gül olar - deyəndən sonra səni bir tülküdən necə məhrum edə bilərdim ki? Bu mövzuda uzun-uzadı mübahisə etdikdən sonra bir it əldə etmək mövzusunda razılaşdıq.
Onu almağa getməmişdən əvvəlki gecə gözünü qırpmadın. Yarım saatdan bir qapımı döyür, «yata bilmirəm» - deyirdin. Səhər yeddidə yeməyini yemiş, yuyunmuş, hətta geyinmişdin də; çiynində palton, yumşaq oturacaqda oturub məni gözləyirdin. Saat onun yarısında it fermasının qabağındaydıq, amma ferma hələ açılmamışdı. Sən barmaqlarının

arasından baxaraq deyirdin: «Necə anlayacağam ki, bunlaradan hansı mənimdir?». Səsindən sonsuz bir səbirsizlik hiss olunurdu. Səni sakitləşdirirdim, «narahat olma, -deyirdim, -kiçik şahzadənin tülküsünü necə əhilləşdirdiyini xatırla».
Üç gün aramsız olaraq it fermasına getdik. İçəridə iki yüzdən çox it vardı, sənsə hamısını görmək istəyirdin. Hər qəfəsin önündə durur, marağla qımıldanmadan gözlərini ora zilləyərdin. Bu zaman itlərin hamısı tellərin üstünə atılır, hürür, hoppanıb düşür, papışları ilə telləri parçalamağa çalışırdılar. İt fermasının sahibi də yanımızdaydı. Başqaları kimi bir qız olduğunu düşünərək səni həvəsləndirmək üçün gözəl it cinsləri göstər və deyirdi: «Bu Cockerə bax, ya da bu Lassiye necədir?» Sənsə donuz kimi səs çıxarır və onu dinləmədən gedirdin. Buskla səfərlərimizin üçüncü günündə rastlaşdıq. Xəstə itlərin yaxşılaşması üçün sığındıqları arxa qəfəslərin birindəydi. Qəfəsin önünə gələndiyimiz an bütün itlər bizə sarı qaçdığı halda o, hətta başını belə qaldırmadı. Balaca barmağınla göstərərək, «budur, bu» -deyə bağırdın. «Bu iti istəyirəm» -söylədin. Qadının təəccübdən üzünün ifadəsinin necə dəyişdiyini xatırlayırsanmı? Heç cür təsəvvür edə bilmirdi ki, belə eybəcər bir itə sahib olmaq istəyirsən. Həqiqətən də Busk balaca idı, amma balaca olmasına baxmayaraq dünyanın bütün cinslərinin xüsusiyyətlərini daşıyırdı. Qurd kimi başı, ov iti kimi sallaq və yumşaq qulaqları, nazik ayaqları, tülkü kimi quyruğu, doberman kimi qara tükləri vardı. Kağızları imzalamaq üçün idarəyə getdiyimiz zaman xanım bizə onun haqqında danışdı.
Yazın əvvəlində hərəkət edən bir ovtomobildən çölə hoppanmışdı. Yerə bərk dəydiyi üçün ağır yaralanmışdı. Elə buna görə də ön ayaqlarından biri cansız vəziyyətdə sallanırdı.
Busk indi yanımdadır. Mən yazarkən hərdən-bir içini çəkir və burnunun ucunu ayaqlarıma yaxınlaşdırır. Burnu və qulaqları artıq ağappaq olub, və gözlərinin üstündə yaşlı itlərə xas pərdə əmələ gəlib.
Ona baxanda kədərlənirəm. Mənə elə gəlir ki sanki yanımda sənin bir parçan var, həm də bu sənin ən sevdiyim parçandır. İllər öncə o it fermasının iki yüz qonağı arasından ən bədbəxt və çirkin olanını seçməyi bacaran parçan.
Bu müddətdə tənha bir evdə bekar qalarkən səninlə birlikdə keçirdiyimiz illərə aid mübahisələr və incinkliklər əriyib getdi. İndi ətrafımda sayrışanlar sənin ürkək və küsəyən, kiçik bir qız olduğun illərə aid xatirələrdir. Bunları ONA yazıram, son zamanlardakı o məğrur və güclü insana deyil. Bunu mənə GÜL təklif etdi. Bu səhər onun yanından keçərkən mənə belə dedi, «al kağızı və ona bir məktub yaz». Bilirəm, ayrılarkən şərtləşdiyimizə görə bir-birimizə yazmayacağdıq və mən məyus olsam da bu sözümə əməl etməliydim. Bu sətirlər bir zaman uçaraq Amerikada sənin əlinə qonmayacaq. Geri qayıtdıqda artıq burda olmasam əvəzimə səni bu məktublar gözləyəcək. Niyə belə söyləyirəm? Çünki bir ay keçməmişdi ki, həyatımda ilk dəfə olaraq ağır xəstələndim. Buna görə də indi şübhələrim arasında bu da var ki, altı, yeddi ay sonra gəldikdə sənə qapı açmaya, səni qucaqlamaya da bilərəm. Bir zamanlar bir dostum heç bir xəstəlik çəkməyənlərin intizara və şiddətli bir narahatlığa tab gətirmədiklərini söyləmişdi. Mənim də başıma buna bənzər iş gəldi. Bir səhər gülləri sulayərkən qəflətən kimsə işığı sondürdü. Cənab Razmanın arvadı hasarın o biri tərəfindən məni görməsəydi inanıram ki, sən indi yetim qalmışdın. Yetimmi? İnsanın nənəsi ölərsə belə demək olarmi? Əmin deyiləm. Bəlkə də nənələr, babalar, itmişləri adlandırmağa dəyməyəcək aksesuarlar olaraq görünürlər. İnsan baba və nənəsindən, nə yetim, nə də dul qalır. Onları ucsuz-bucaqsız yolların birində təbiətin qanunu olaraq sanki bir çətiri unudan kimi buraxırıq.
Xəstəxanada oyandığım zaman heç bir şeyi dəqiqliklə xatırlamıram. Gözlərimi bağlayarkən pişik bığı kimi incə və uzun bığlarımın çıxdığını zənn etdim, amma gözlərimi açar-açmaz bunların sadəcə iki balaca plastik qaz balonu olduğunu anladım; burnumdan çıxıb dodaqlarımın üstüylə aşağı sallanırdı. Ətrafımda yalnız qəribə cihazlar vardı. Bir neçə gün sonra adi bir otağa keçdim, burada məndən başqa iki nəfər də

yatırdı. Naharların birindən sonra cənab Razman və arvadı mənə baş çəkdilər. Söylədilər ki, həyatda sağ qaldığınıza görə itinizə borclusunuz.
Ayağa qalxmağı bacardıqdan sonra bir gün otağa tibbi yoxlamaların birində gördüyüm gənc bir həkim gəldi. Oturacaqlardan birini götürüb yatağımın yanında əyləşdi və danışmağa başladı. «Sizə baxası və qərar verəsi bir qohum-əqrəbanız yoxdursa, heç vasitəçi qoymadan sizinlə səmimi söhbət edəcəm» - dedi. Danışarkən ona baxırdım, amma dinləmirdim. Nazik dodaqları vardı və bildiyin kimi belə insanları heç bir zaman xoşlamamışam. Ona qalarsa səhhətim o qədər ağır idi ki, evə qayıtmağıma icazə də verməyəcəkdi. Həkim tibb bacılarının nəzarətində yaşaya biləcəyim bir neçə qocalar evinin adını çəkdi. Üzümün ifadəsindən bir şey hiss edərkən həmin an əlavə etdi: «Fikriniz o köhnə, şəraitsiz evlərə getməsin, indi hər şey təmamilə başqadır, işıqlı otaqları və gəzib dolaşılası bağçaları vardır». Sonda: «həkim,- dedim, -eskimosları tanıyırsınızmı?». Ayağa qalxarkən: «Əlbəttə» - deyə cavab verdi. «Budur, baxın mən də onlar kimi ölmək istəyirəm». Bir şey qanmadığını görüb əlavə etdim: «Mən bəyaz divarlı bir otaqda yataq xəstəsi olub daha bir il yaşamaqdansa, bostanımdakı boranıların arasında üzüüstə yıxılmağı üstün tuturam». Həkim artıq qapının yanındaydı. Gülümsəyirdi. Otağdan çıxmamışdan: «həmişə belə deyirlər, amma son dəqiqədə müalicə olunmaq üçün bura qaçarlar, hələ üstəlik də yarpaq kimi titrəyirlər».
Üç gün sonra, əgər ölərsəm günahın mənə aid olduğunu bildirən gülünc bir sənəd imzaladım. Bunu kiçik başlı, ama qulaqlarına iri qızıl sırğa taxmış gənc bir tibb bacısına verdikdən sonra bir-iki para əşyamı neylon torbaya qoyub taksi dayanacağına sarı yollandım.
Busk məni bağça qapısında görər-görməz qaçmağa başladı, sonra sevincini təsdiqləmək üçün hürərək iki-üç çiçək ləkini də əzdi. Bu dəfə ona hirslənmədim. Torpağa bulaşmış burnuyla məni vurduqda, «gördünmü köhnə dostum, yenə birlikdəyik» söylədim və qulaqlarının arxasını qaşıdım.
Sonrakı günlərdə heç nəylə məşğul olmadım. Yıxıldığımdan bəri bədənimin sol tərəfi əmrlərimə əvvəlkilər kimi əməl etmirdi. Ələxsus da əlim çox zəiflədi. Həmişə sağ əlimdən daha çox istifadə edirdim. Biləyimə çəhrayı bir lent bağladım, beləcə uzanıb bir şey alacağım zaman sağ əlimi deyil, soldan istifadə etməyi düşünürəm. Bədənin hərəkətlərini yerinə yetirərkən onun nə qədər böyük bir düşmən ola biləcəyini hiss etmirsən; amma indisə yanıldığımı düşünürəm. Müstəqilliyim məhdudlaşdığı üçün açarın birini da Valterin arvadına verdim. Hər gün mənə qulluq edir, istədiklərimi alıb gətirir.
Bağçada məkik toxuyarkən səni düşündüm. Neçə dəfə telefona getdim, sənə bir teleqraf göndərmək niyyətiylə dəstəyi qaldırdım. Amma qovşaq səsimi duyar-duymaz qərarımdan vaz keçirdim. Axşamlar oturacaqda oturarkən -qarşımda boşluq, ətrafımda səssizlik, - hansının daha doğru olacağını özümdən soruşurdum. Mənim üçün deyil, sənin üçün nəyin doğru olacağını… Mənim üçün, əlbəttə, yanımda sən varkən bu dünyadan göçmək ən gözəl şey olardı. İnanıram ki, sənə xəstələndiyimi xəbər etsəydim Amerikada yaşamağı buraxar, bura qaçardın. Sonra? Bəlkə daha üç-dörd il yaşayardım, bəlkə də təkərli oturacağa bağlanardım, bəlkə bezərdim və sən borcun olduğu üçün mənə baxardın. Bunu ürəkdən edərdin, amma zaman keçdikcə bu səmimilik qəzəbə, intiqama çevrilərdi. İntiqam alardın, çünki illər keçir və sən gəncliyini boş yerə xərcləyirdin, çünki mənim sevgim bir bumeranq kimi sənin həyatını çıxılmaz bir yola döndərirdi. Budur, sənə telefon etmək istəməyən içimdəki o səs belə söyləyir. Onun tam haqlı olduğuna qərar verdiyim an beynimdə əks bir səs peyda olurdu. Özümdən soruşurdum, əgər qapını açdığın an mənim və sevinclə hoppanan Buskun yerinə səni uzun zaman həyat əlaməti olmayan bomboş bir ev qarşılasaydı nə edərdin? Məqsədinə çatmamış bir dönüşdən daha qorxulu nə ola bilər? Ya da ordaykən mənim ölümümü bildirən bir teleqraf alsaydın sənə xəyanət etdiyimi düşünməzdinmi? Ya da səninlə höcətləşdiyimi? Sən ki son aylarda mənimlə belə kobud davrandın, mən də sənə xəbər

vermədən səssizcə köçüb gedərəm! Bu bir bumeranq deyil, ancaq bir girdab sayılırdı və düşünürəm ki, belə bir şeyi aşmaq asan olmazdı; sevdiyin insana söyləmək istədiklərin sonsuza qədər içində qalır; o, torpağın altındadır, artıq onun gözlərinin içinə baxa bilməzsən, onu qucaqlaya bilməzsən, ona bu zamana qədər söyləmədiklərini söyləyə bilməzsən.
Günlər keçir və bir qərara gələ bilmirəm. Sonra budur, bu səhər Gül belə təklif etdi: ona bir məktub yaz, onunla keçirdiyin günlərə aid kiçik bir gündəlik tut. İndi burada-mətbəxtdəyəm, qarşımda da köhnə bir dəftərin. Tapşırıqlarını yerinə yetirərkən çətinlik çəkən bir uşaq kimi qələmin ucunu gəmirirəm. Bu bir vəsiyyətdimi? Yox, belə sayılmaz, bunlar daha çox səni illərlə izləyəcək, yanında olduğumu duymaq istəyəndə oxuya biləcəyin bəzi şeylərdir. Qorxma, səni nə kədərləndirəcəm, nə də moizə oxuyacam, yalnız bir zamanlar ikimizi də əhatə edən və son illərdə itirdiyimiz o səmimiyyətlə səninlə bir az çənə döyəcəm. Xeyli yaşadığım və daha çox insan itirdiyin üçün artıq bilirəm ki, əslində ölülər yalnız yoxluqları ilə deyil, - onlarla bizim aramızda söylənilməyən sözlər üzündən insana əzab verirlər.
Mən qocalanda, xüsusilə nənə olacağım zaman analıq etməyə başladım. Bunun hər ikimizə çox faydası oldu. Sənə faydası oldu; çünki bir nənə-ana hər zaman bir nənədən daha yaxşı və diqqətlidir, mənə faydasıı oldu; çünki klubda nahardan sonra vaxt öldürüb yaşıdlarımla bir əl kanasta oynayıb yaxşıca sərsəmləməkdənsə, yenidən zamanın axınıyla ayaqlaşmaq məcburiyyətində qaldım. Amma bir anda bəzi şeylər dağıldı. Bunun günahı nə məndə, nə də səndəydi, yalnız təbiətin qanunlarındaydı. Uşaqlıq və ahıllıq çağları bir-birinə oxşayır. Hər iki yaş dövründə fərqli səbəblərlə insan olduqca müdafiəsiz olur. Bədənimizin çevrəsində görünməz bir zirehin yaranması yeniyetməlik dövründə başlıyır. Bu zireh uzun bir müddətdə yaranır və gənclik dövründə qalınlaşır. İnkişafı bir az da incininkinə bənzəyir, yara nə qədər böyük və dərindirsə, ətrafında yaranan zireh da o qədər güclü olur. Amma sonra, uzun zaman geyilən bir geyim kimi ən çox istifadə olunan yerlərindən köhnəlir, tikişləri sökülür və ani bir hərəkətdən yırtılır. Əvvəl heç bir şey hiss etməzsən, zirehinin hələ də səni möhkəm sardığını zənn edərsən, amma bir gün birdən-birə səfeh bir şey qarşısında uşaq kimi səbəbini də bilmədən ağlamağa başlayarsan.
Aramızda bir fərq yarandı deyərkən bunu söyləməyə çalışdım. Sənin zirehin yaranmağa başlayanda mənimki çoxdan bərkimişdi. Sən gözyaşlarıma, mən də sənin bu qəfil tündlüyünə dözmürdüm. Özümü xasiyyətinin dəyişəcəyinə hazırlasam da, bu dəyişiklik ortaya çıxdığı an buna dözmək mənə çox ağır gəldi. Qarşımda birdən-birə yepyeni bir insan peyda oldu və bu insanla artıq necə davranacağımı bilmirdim. Axşamlar düşüncələrimi toplayıb nəzərdən keçirərkən sənə aid olanlar məni xoşbəxt edirdi. Öz-özümə deyirdim ki, gənclik dövründə zərər-ziyan görmədən yaşayanlar heç bir zaman həqiqətən böyük insan ola bilməzlər. Amma səhər üzümə qapını çırpanda, bir Allah bilir ki, necə kədərlənir, necə ağlamaq istəyirdim! Sənə tab gətirəcək gücü haradan tapacağımı bilmirdim. Sən də səksən yaşına çatanda görəcəksən ki, insan bu yaşda özünü sentyabr ayının sonunda ağacda yalnız qalmış bir yarpaq kimi hiss edir. Günişığı qısadır və ağac bəsləyici maddələri yavaş-yavaş özünə doğru çəkməyə başlayır. Ağacın gövdəsi azotu, xlorofili, proteinləri çəkir və beləcə nə yaşıllıq qalır, nə canlılıq. Artıq bir budağdan asılı qalırsan, amma düşmək an məsələsi olur. Yaxınlıqdakı yarpaqlar bir-birinin ardınca düşür, sənsə seyr edirsən, içində küləyin əsmək qorxusunu yaşayırsan. Mənim üçün külək sən idin, sənin o dəyişkənliyin idi. Sən heç bunu duydunmu? İkimiz də eyni ağacda yaşadıq, amma elə fərqli mövsümlərdə ki!
Yola çıxdığın günü xatırlayıram, ikimiz də nə qədər əsəbiydik, elə deyilmi? Səni hava limanından ötürməyimi istəmədin, özünlə aparılası hər hansı bir şeyi xatırlatdığım zaman mənə dedin ki, Amerikaya gedirəm, çölə yox. Qapıda çox çirkin, kəskin səsimlə, özünə yaxşı bax- deyib bağıran zaman sən arxaya belə dönmədən söylədin ki, Buska və gülə yaxşı bax.

Bu vida məni bir az xəyala daldırdı. Həssas bir qoca olduğum üçün səndən nəvaziş, ya da başqa bir şey gözləyirdim. Amma axşam yata bilmədiyimdən bomboş evdə sabahadək gəzinərkən belə qənaətə gəldim ki, Buska və gülə -yanımda qalan o xoşbəxt hissənə baxmaqla sənə baxmağın arasında bir fərq yoxdur. Anladım ki, o quru vidalaşmanın səbəbi hissizlik deyil, ağlamağa hazır bir insanın gərginliyidi. Sənə əvvəl söz açdığım o zireh məsələsi kimi. Sənin zirehin elə möhkəmdi ki, nəfəs almaqda da belə çətinlik çəkirsən. Son zamanlarda nə deyirdim, xatırlayırsanmı? Axmayan göz yaşları qəlbdə yığılar, zaman keçdikcə qabıq tutar və əhəngin paltar yuyan maşina tıxanması kimi qəlbi tıxayıb iflic edər.
Bunu da bilirəm ki, mənim ancaq mətbəx dünyasından tapıb verə bildiyim nümunələr səni güldürmək əvəzinə əsəbiləşdirir. Nə edə bilərəm ki! Hər kəs ən yaxşı tanıdığı dünyadan ilhamlanır.
İndi səndən ayrılmaq məcburiyyətindəyəm. Busk içini çəkir və yalvarıcı nəzərlərlə baxır. O da ayağını təbiətin nizamına uyğunlaşdırır. Hər mövsümdə yemək zamanını bir İsveçrə saatı dəqiqliyi ilə bilir.

18 Noyabr

Bu gecə xeyli yağış yağdı. Elə şiddətliydi ki, endirmələrə dəyən damcıların səsinə oyandım. Səhər havanın pis olacağını düşünərək gözlərimi açdım və uzun zaman yorğanın altından çıxmadım. İllər keçdikcə hər şey necə də dəyişir. Sənin yaşında olanda qış yuxusunda yatan heyvanlar kimiydim, məni kimsə narahat etməsəydi hətta nahara qədər yatardım. Halbuki, indisə dan yeri ağarmamış oyanıram. Beləcə günlər uzandıqca uzanır, bitmək bilmir. Bunlarda bir mərhəmətsizlik yoxdurmu? Üstəlik səhər saatları daha qorxunc, baş qatası bir şey yox, eləcə oturursan və düşüncələrin keçmişə səyahətə çıxır. Yaşlıların düşüncələrində gələcək yoxdur, varsa da daha kədərli, ya da hüzünlüdür. Təbiətin bu qəribəliyi ilə bağlı məndə suallar yarandı. Dünən televizorda gördüyüm bir sənədli film də məni düşündürdü. Heyvanların yuxusundan söz açılırdı. Zooloci mərhələdə quşlardan yuxarıya doğru bütün heyvanlar yuxu görür. Sərçələrdən göyərçinlərə, sincablardan dovşanlara, itlərdən çəmənlərə səpilmiş inəklərədək hamısı yuxu görür, amma hamısı eyni formada yox. Təbii ehtiyacı ov olan heyvanların yuxusu qısa olur, buna yuxu da demək olmaz, yalnız bir mənzərədir. Aparıcı deyirdi ki, ovçular qarışıq və uzun yuxular görürlər, heyvanlar üçünsə yuxu fəaliyyəti həyatda qala bilmə strategiyasını tərtib etmək üçün bir yoldur. Məsələn, antilop yuxusunda qarşısında açıq savanna, aslansa sürətlə və cəld səhnələrlə antilopu yeyə bilmək üçün lazım olan hər şeyi görür. Öz-özümə dedim ki, demək ki, insan gənc ikən ətyeyəndir, yaşlandıqda otyeyəndir. Qocaldıqda az yatmaqla bərabər yuxu da görmürsən, ya da görsən də sonralar xatırlaya bilmirsən. Halbuki, uşaqkən və gənc yaşlarında həm çox yuxu görürsən, həm də bu yuxular doğan günün necə keçəcəyini aydınlaşdırır. Son aylarda səhər oyanar-oyanmaz necə ağladığını xatırlayırsanmı? Qəhvə fincanının önündə otururdun, göz yaşların səssizcə yanaqlarından süzülərdi. Niyə ağladığını soruşanda ovudulmaz bir formada, acıqla səbəbini bilmədiyini söyləyirdin. Bu yaşda olan insanların ürəylərində çox planlar olur. Eyni zamanda bu planların da hamısının yerinə yetiriləcəyinə inamsızlıq. İnsan ağlının bir nizamı, ya da aydın bir məntiqi yoxdur; adam gündəlik dərdlərin şişmiş, qaydasız yığıntılarıyla ən əhəmiyyətli məqsədlərini bir-birinə qarışdırır, bu dərin məqsədlərin arasına da orqanizminin ehtiyaclarını yerləşdirir. Beləcə insan yuxusunda acıdığı an süfrəyə oturduğunu, amma yeyə bilmədiyini, üşüdüyü zaman Quzey qütbündə olduğunu və paltosunu tapmadığını, bir az kobud davrandıqda həmin an qana susamış bir döyüşçü olduğunu görür.
Bilmək istəyərdim ki, sən oralarda, kaktuslar və kovboylar arasında nə yuxular görürsən? Görəsən hərdən bir qızıldərililər kimi geyinmiş halda mən də ortaya

çıxırammı? Busk, çılpaq Koyote çaqqallları görünürmü? Darıxırsanmı, Bizi düşünürsənmi?
Dünən axşam kitab oxuyarkən qəfldən otaqda ritmik bir səs eşitdim, başımı kitabdan qaldırdıqda Buskun yatarkən quyruğunu yerə vurduğunu gördüm. Üzündəki xoşbəxt ifadəyə baxan olsaydı inanıram ki, qarşısında səni görərdi, bəlkə yeni dönmüşdün, sənə sevincini göstərirdi, ya da birlikdə keçirdiyiniz o gözəl səyahətlərdən birini xatırlayırdı. İtlər insan duyğularına qarşı elə həssasdırlar ki, zaman ərzində biz də doğmalaşdıq. Çox şeyin onların ürkək gözlərində əks olunmasını xoşlamadıqlarına görə çoxları onlara nifrət edir. Busk səni tez-tez yuxuda görür. Mən bunu bacarmıram, ya da görsəm də xatırlamıram.
Mən kiçikkən dul xalalarımdan biri bir müddət bizdə qalmışdı. İspiritizmaya meyilli idi, anam, atam ortalarda görünmədikdə ən qaranlıq və gizli küncdə məni zehnin qeyri-adi gücləri mövzusunda tərbiyə etməyə səy göstərərdi. Deyərdi ki, uzaqdakı bir insanla əlaqə qurmaq istədikdə, əlinə onun bir şəklini almalı, üç addımdan bir xaç çəkməli və sonra budur, burdayam deməlisən. Ona qalırsa bu üsulla istədiyin adamla telepatik əlaqə qurula bilərdi.
Bu gün nahardan sonra, yazmamışdan öncə mən də belə etdim. Saat beş radələriydi, ordasa səhər olmalıydı. Məni gördünmü, duydunmu? Mən səni işıqlı, divarları kafelli barların birində küftəli sandiviç yeyərkən gördüm, səni qarışıqlığın içində o an seçə bildim, çünki sənə son dəfə hördüyüm qırmızı-mavi, maral şəklli caketi geymişdin. Amma mənzərə elə qısa sürdü ki, sanki televiziya filmi kimiydi, gözlərindəki ifadəni görə bilmədim. Hər şeydən çox onunla maraqlanıram ki, görəsən xoşbəxtsənmi.
Xatırlayırsanmı? Sənin ölkə xaricindəki təhsilinin xərcini ödəməyimin doğru, ya səhv olacağına görə nə qədər mübahisə etdik. İnad edirdin ki, bu vacibdir, inkişaf etmək və oxumaq üçün getməli, bu cansıxıcı mühitdən uzaqlaşmalıydın. Litseyi yeni bitirmişdin, nə edəcəyin bilmirdin, bunun üçün bədbinliyə qapılmışdın. Uşaqkən üç arzun vardı, sonra bunlardan əsər-əlamət belə qalmadı. Əvvəllər dostlarına qarşı göstərdiyin o açıq münasibət illər keçdikcə yox oldu, öz içinə çəkildin. İnsanlara qarşı sevgin, paylaşma arzun qısa zamanda maraqsızlığa, dərbədərliyə, yalnızlığa və xoşbəxt gələcəyinə istiqamətlənmiş ardıcıl bir sabit fikrə çevrildi. Televizorda, xüsusilə acı bir səhnə görərkən məndə yaranan acıma duyğularına lağ edərək, bu yaşda hələ də niyə təəcüblənirsən söyləyirdin. Əvvələr sənin bu kimi fikirlərin nəfəsimi daraldır, yanımda bir canavarın oturduğunu sanırdım; gözümün ucuyla səni süzərək özümdən, «verdiyim örnəklərlə səni beləmi yetişdirmişdim» deyə soruşurdum. Belə zamanlarda sənə cavab vermirdim, amma artıq dialoq zamanının bitdiyini hiss edirdim, aydın idi ki, sənə nə söyləsəydim bir mübahisə çıxacaqdı. Bir yandan sınmağımdan qorxurdum, boş-boşuna bir-birimizin gözündən düşəcəkdik, bir yandan da açıq bir mübahisə sənin əsl axtardığın bəhanə idi, mübahisələr bitmək əvəzinə, getdikcə artacaq, şiddətlənəcəkdi. Sənin söylədiklərinin arxasında enercinin, qürürlu bir enercinin qaynadığını hiss edirdim, içində hər an partlamağa hazır olan vulkanı güclə saxlayırdın, mənimsə bu iti buynuzları korşaltmaq səyim, hücumlar qarşısındakı ağla gəlməyən kələklərim səni başqa yollar axtarmağa vadar etdi.
Buna görə məni baş götürüb getməklə, xəbər vermədən evi tərk etməklə hədələdin. Sənə buralardan ayrılmağının əla fikir olduğunu söylədikdə çaşdın, büdrədin; ovunu udmaq zamanı başını qadırıb ağzını açmış bir ilan qarşısında bir şey qalmadığını hiss etdiyi an hansı vəziyyətə düşürsə, sən də eynilə bu hissi keçirtdin. Bunun üçün barışmağa çalışdın, təkliflər etdin, dəyişik və qərarsız sınaqlardan sonra günlərin birində qəhvə fincanının önündə oturarkən yeni bir inamla Amerikaya gedəcəyini bildirdin.
Bu qərarını da o birsilər kimi maraqsız qarşıladım. İstəmirdim ki, tələsik, hər tərəfli düşünmədiyin bir qərara gələsən. Sonrakı həftələrdə hey Amerika düşüncəsindən söz açdın. Ehtirasla əlavə edirdin ki, oraya bir illiyə getsən heç olmasa bir dil öyrənərsən və zamanın hədər getməz. Zaman itirməyin heç də pis bir şey olmadığını xatırlatdığım

zaman müdhiş şəkildə səksənirdin. Ən çox da həyatın bir yürüş olduğunu söylədiyim zaman təəccübləndin. Əsas olan zamandan bir hədəf tapmaqdır. Süfrədəki iki fincanı da qolunun qəfil bir hərəkətiylə havaya tolazladın, sonra da əllərinlə üzünü örtərək, «sən axmaqsan, axmaqsan, anlamırsan ki, bu mənim yeganə istəyimdir» deyə ağlamağa başladın. Həftələrlə torpağa mina döşəyib, üstündən keçməməyə çalışan əsgərlər kimi davrandıq. Harda olduğunu, nə olduğunu bilirdik, uzaqdan keçir, bir şeydən qorxan insanlar kimi davranırdıq. Mina partlayanda sən ağlayıb hıçqıraraq, bir şey anlamırsan, əsla anlamayacaqsan deyərək necə incidiyini sezdirməmək üçün bir bilsən ki, nə çox səy göstərdin. Sənə anandan, boylu qalmasından, ölümündən, bütün bunlardan heç söz açmadım. Mən susduqca sən də bunların mənim üçün əhəmiyyətsiz, unudulmuş mövzular olduğunu düşündün. Amma bunu heç hesaba salmırsan ki, anan mənim qızımdı. Ya da hesaba qatsan da bunu ürəyində saxlayırsan. Elə bilirdin ki, sənin bəzi baxışlarını, bəzi nifrət dolu sözlərini ayrı cür izah edə bilmərəm. Səndə ana mözusunda onun buraxdığı boşluqdan başqa bir xatirə yoxdu; o, öldüyü gün çox kiçik idin. Halbuki, mən yaddaşımda otuz üç ilin və onu bətnimdə daşıdığım doqquz ayın xatirələrini saxlayıram. Bu mövzuda bu qədər laqeyd olduğumu necə düşünə bilərsən!

Mövzunu bu ana qədər açmamağımın səbəbi mənim tərəfimdən təmkin və bir az da eqoistlik görünə bilər. Təmkin - ondan söz açarkən özümdən, mənim həqiqi, ya da xəyali günahlarımdan başlamalıydım; eqoistlik - ümid edirdim ki, mənim sevgim onun yoxluğunu hiss etdirməyəcək qədər sonsuzdur. Günlərin birində onun həsrətini və mənə «mənim anam kimdi, nədən öldü» -deyə verdiyin sualı əngəlləmək istədim.

Sən uşaqkən xoşbəxt idik. Nəşəli uşaq idin və bu nəşənin içində süni bir şey yox idi. Bu nəşənin arasında bir inciklik busqusu da yatardı və sən ürəkdən də gülə bilməzdin. «Nə var, nə düşünürsən» -deyə soruşduqda, təbiiliklə cavab verirdin: «görəsən göy üzünün sonu varmı, yoxsa sonsuzadək uzanır». Həssaslıq cəhətdən mənə bənzədiyin üçün qürur duyurdum. Özümü səndən böyük, və ya səninlə günah ortağı kimi hiss edirdim. Bunun həmişə belə davam edəcəyini düşünürdüm. Təəssüf ki, sabun köpüklərinə yapışıb xoşbəxtlik içində havada uçmuruq, həyatımızda bir başlanğıc, bir son var və bu başlanğıcla son bir ov üstünə atılan tor kimi üstümüzə düşür. Deyirlər ki, ataların günahını övladları çəkər. Doğrudur, çox doğru, babalarınkını nəvələri, əcdadlarımızınkını nəticələri çəkər. Bəzi həqiqətlər özlərində bir qurtuluş duyğusu daşıyır, bəziləri də qorxu duyğusu oyandırır. Bizimki isə ikinicisinə uyğundur. Günahların zənciri harada sona çatır? Kabildəmi, Hər şey bu qədər geriyə uzana bilərmi? Bütün bunların arxasında sirrli bir şeymi var? Bir zamanlar oxuduğum bir hind kitabına görə bütün güc qədərin əlindədir, iradənin gücü isə yalnız bəhanədir. Bunu oxuduqdan sonra məni sonsuz bir kədər bürümüşdü. Ertəsi gün yenə bir neçə səhifə oxuduqda qədərin keçmişdəki davranışlarımızın nəticəsi olaraq yaranmasını, qədərimizi öz əllərimizlə cizdiyimizi gördüm. Beləcə geriyə üz çevirdim. «Bü düyümün həlli nöqtəsi haradadır» -deyə öz-özümdən soruşdum. İpin hansı ucu yumağındır? Kəsib qopara bilərikmi, yoxsa bizi sonsuzluğadək dolaşıb sarıyarmı?

Mən onu kəsirəm. Artıq ağlım əvvəlkilər kimi deyil, düşüncələrim var, şübhəsiz, düşünmə formam dəyişmədi, amma zehnimi uzun müddət canlı saxlamaq gərgin əmək istəyir. İndi yoruldum, gənckən fəlsəfə kitabı oxyanda başım necə fırlanırdısa, indi də eləcə fırlanır. Hələlik səndən ayrılıram, salondakı, nifrət ediləsi qutunun önündə boş-boşuna oturmağa gedirəm.

20 noyabr

Yenidən buradayam. Bu gün görüşümüzün üçüncü günüdür. Daha doğrusu, dördüncü günü, üçüncü görüş. Dünən elə yorğun idim ki, heç yazmağa halım yox idi, hətta oxuya

bilmədim də. Kədərli və nə edəcəyimi bilmədiyim bir şəkildə bütün günü evlə bağça arasında dolaşdım. Hava olduqca mülayimdi, isti saatlarda oturacaqda oturdum. Ətrafımda otlar da, çiçək ləkləri də səliqəsizdir. Onlara baxarkən bir mübahisəmizi xatırladım. Nə zaman olub, keçən ildəmi? Görən iki il olarmı? Sağalmaz bir bronxit xəstəsi olmuşdum, yarpaqlar çoxdan tökülmüşdü, külək ora-bura səpələyirdi. Pəncərədən baxanda necə kədərlənmişdim; göy üzü qurğuşun rəngində idi, bayırda müdhiş bir kimsəsizlik havası vardı. Otağına gəldim, qulaqlıqlarla yatağına uzanmışdın. Rica etdim ki, yarpaqları toplayasan. Səsimi eşitdirmək üçün bir neçə dəfə də sözləri təkrarlamaq məcburiyyətində qaldım. Çiyinlərini silkələyərək, «yaxşı, nədən»?-deyə soruşdun, -təbiətdə heç kim onları toplamaz, onlar da çürüyüb gedər, ən yaxşısı da budur». O dövrdə təbiət sənin ən böyük dostun idi, hər şeyi onun pozulmaz qanunları ilə açıqlayırdın. Sənə bağçanın əhilləşdirilmiş bir təbiət parçası olduğunu, bir təbiətin də it kimi sahibinə bənzədiyini və bir it kimi də davamlı olaraq nəvaziş istədiyini izah etməkdənsə, zala çəkilib söz güləşdirmədim. Bir az sonra soyuducudan yeməyə bir şey götürmək üçün önümdən keçərkən ağladığımı gördün, amma əhəmiyyət vermədin. Şam yeməyi zamanı gələndə yenə burnunu otağından çıxardıb, nə yeyəcəyik deyə soruşduğun zaman hələ də eyni yerdə oturub ağladığımı gördün. Bunun üçün mətbəxə girib ocağı yandırmağa başladın. «Nə istəyirsən? -deyə otağdan-otağa keçərək səslənirdin, -şokalatlı şirnimi, qayğanaqmı?». Məyus olduğumu anlamışdın və könlümü almağa çalışırdın. Səhərisi gün pəncərəni açar-açmaz səni çəmənlikdə gördüm, yağış yağırdı, kürəyində sarı rəngdə bir dəsmal salıb yarpaqları dırmıqla toplayırdın. Saat doqquza qalmış evə keçərkən heç bir şey olmamış tərzdə davrandım, çünki səni yaxşı olmağa sürükləyən o xasiyyətinə nifrət etdiyini bilirəm.
Bu səhər çiçək ləklərinə baxarkən düşündüm ki, uzun müddət nəzarətsiz qalan bağçaya qulluq etmək üçün bir nəfərə ehtiyac var. Xəstəxanadan çıxandan bəri bunu düşünürəm, amma hərəkətə keçməyi bacarmıram. İllər keçdikcə bağçanı müdhiş şəkildə qısqanırdım, ulduza bənzər çiçəklərimi sulamaqdan, budaqdakı solmuş yarpaqları qoparmaqdan dünyasında vaz keçmərəm. Qəribədir ki, gənckən bağçaya baxmaq məni darıxdırardı, bir bağça sahibi olmaq mənə bir imtiyazdan çox, məcburi iş kimi gəlirdi. Bir-iki gün əlimi üstündən çəksəm, böyük zəhmətlərlə ərsəyə gətirdiyiklərim məhv olurdu. Bu da məni hər şeydən çox narahat edirdi. Daxilim nizamlı deyildi, bu üzdən içimdə qaynayan qarışıqlığı xarici dünyada görmək məni narahat edirdi. Sənə yarpaqları topla deyərkən bunu xatırlamalıydım. Bəzi şeylər var ki, onlar ancaq müəyyən bir yaşda anlamaq olur. Evlə münasibətlər, evin içində və çölündə olanlar da belədir. Atmış, yetmiş yaşında anlayırsan ki, bir bağça və ev yalnız rahatlandığın, yaşadığın yer deyildir. Necə ki, qabıq balıqqulağının bir parçasıdır, onlar da sənin bir parçandır. Sən o qabığı alın tərinlə yaratdın, içindəki qıvrımlarda sənin həyat hekayən var, bu qabıq-ev səni bürüyür, sənin üzərindədir, ətrafındadır, bəlkə ölüm belə onları sənin varlığından, onun içində yaşadığın sevincdən, kədərdən ayıra bilməz. Axşam oxumaq istəmədiyimdən televizora baxdım. Baxdım yox, dinlədim, çünki yarım saat sonra yuxuladım. Sözlərin ancaq yarısını eşidirdim, necə ki, qatarda yuxuya gedəndə yolçuların danışıqları sənə kəsi-kəsik və anlaşılmaz gəlir, bax eləcə. Bu minilliyin sonunda ortaya çıxan təriqətlərlə bağlı bir tədqiqat yayımlanırdı. Həqiqi və saxtakar şeyxlərdən danışırdılar, onların lüğətlərindən «qarışıq» sözü qulağıma çatdı. Bunu eşidən kimi litseydəki fəlsəfə müəlliminin üzünü xatırladım.
Gənc idi və o zamana görə səliqəsiz görkəmi vardı. Şopenhauerdən danışarkən biraz şərq fəlsəfəsindən söz açmış, bizi «qarışıq» məvhumu ilə tanış etmişdi. O zaman yaxşı diqqət yetirməmişdim, bu söz və məvhum bir qulağımdan girib o birisindən çıxmışdı. İllər ərzində «qarışıq»ı sanki intiqammış kimi dərk etmişdim. Gözə göz, dişə diş, ya da nə əkərsən, onu biçərsən kimi. Elə ki, uşaq bağçasının müəllimi sənin qəribə davranışlarına görə mənimlə söhbət etmək istədi, bax o zaman qarışıq  və onunla bağlı məvhumlar yenidən zehnimə daraşdı. Bütün bağçanı tələşa salmışdın. Birdən-birə sərbəst ifadə

saaatında keçmiş həyatını anlatmağa başlamışdın. Müəllimlər əvvəl qeyri-adi bir uşaqla üzləşdiklərini düşünmüşdülər. Səni bu hekayəndən yayındırmığı çalışmışdılar. Amma sən qanmayıb kimsənin bilmədiyi bir dildə sözləri bir-birinin ardınca düzmüşdün. Hadisə üçüncü dəfə təkrarlandıqda məktəbin müdriyyəti tərəfindən çağrılmışdım. Səni gələcəyin naminə bir psixoloqa aparmağımı məsləhət bildilər. Yaşadığı travma səbəbindən belə davrana biləcəyini söylədilər. Əlbəttə, səni psixoloqa aparmadım; məncə xəyal dünyan narahatçılıqdan deyil, hadisələrin dəyişik nizamı ilə bağlı olaraq belə zəngindi. Bu hadisədən sonra səni heç dindirmədim, səndə də belə bir arzu olmadı. Bəlkə də təəccüblərindən çaşmış o müəllimlərin qarşısında anlatdıqlarını elə həmin gün unutmuşdun.
Son illərdə bu cür mövzulardan söz etmək mənə moda kimi gəlir: belə şeyləri keçmişdə də danışırdılar, halbuki indi hərkəsin dilinə düşüb. Bir müddət əvvəl qəzetdə oxuduğuma görə yenidən dünyaya qayıdış mövzusunda fəaliyyət göstərən dərnəklər varmış. İnsanlar bir araya yığışıb lap əvvəlki həyatlarından danışırlarmış. Məsələn, bir evdar qadın belə deyir ki, 1800 –cü illərdə Nyu Orleansda yaşayan bir küçə qadını idim, buna görə indi ərimə sadiq qala bilmirəm. O yandan irqçi bir benzinçi nifrətini XV1 əsrdə vəzifəsini yerinə yetirərkən adamyeyənlər tərəfindən yeyilməsiylə bağlayır. Necə də kədərli, gic danışıqdır! Öz mədəniyyətinin köklərini itirənlər indinin qərarsızlığını və boz rəngini öncəki həyatlarıyla açıqlamağa çalışırlar. Həyatlarındakı dəyişikliyinin bir mənası varsa, əminəm ki, bu başqa mənadır.
Bağça dövründə səni daha yaxşı anlamaq, daha bir neçə şey öyrənə bilmək üçün kitablar əldə etmişdim. Budur, o kitabların birində öncəki həyatlarını təfsilatı ilə xatırlayan uşaqların, o həyatın sonunda şiddətli və erkən bir şəkildə öldüklərindən danışılırdı. Sənin uşaqkən bəzi açıqlanmayan fikirlərin- borulardan çıxan qaz, hərşeyin bir anda partlaya biləcəyi qorxusu- məni bu cür bir düşüncəyə istiqamətləndirmişdi. Yorulduqda, gərgin olduqda, ya da yuxun qaçdıqda qorxurdun. Gecəyarısı təlaşla otağımın qapısında peyda olanda qalxar, şirin sözlərlə səni yenidən otağına apardım. Yatağa uzanır, əlimi tutar, sonu yaxşılıqlarla bitən nağıllar söyləməyimi istəyərdin. Səni kədərləndirəcək bir şey söyləyəcəyimdən qorxduğun üçün əvvəlcədən iynədən ipliyə qədər mənə mövzunu verirdin, mən də sənin göstərdiyin yolla nağılı danışırdım. Bir nağılı bir, iki, üç dəfə təkrarlayardım. Otağıma dönmək üçün qalxdığım zaman sənin artıq yuxulamış olduğunu düşünürdüm, amma eşiyə çıxdığım zaman nazik səsini eşidərdim: «beləmi olur? -deyə soruşardın,- doğrudanda belə bitir?». Buna görə geri dönər, alnından öpərək, «başqa cür bitməz noğulum, səni əmin edirəm»- deyərdim.
Bəzi gecələr də qoynumda yatmağına etiraz edər, uşaqlara qocalarla yatmaq fayda verməz deyərək, səni yatağına göndərəcək cəsarəti də tapmazdım. Tumbanın yanında varlığını hiss etdiyim an sənə, «hər şey nəzarət altındadır, heç bir şey partlamır, tez ol, otağına dön» deyərdim. Sonra da anidən və dərin bir yuxuya getmə kələyi qurardım. Sənin xəfif nəfəsini bir müddət də dinləyərdim. Bir neçə saniyə sonra yatağın kənarında qıvrılar, böyük bir qorxudan sonra öz isti yuvasındakı bir siçan kimi yuxuya gedərdin. Gün doğmamışdan səni qucağıma alır, yerinə aparırdım. Qorxu krizlərin günorta tutarsa, səni uşaq diliylə başa salmağa çalışardım; «evimiz nə qədər möhkəmdir, görmürsən, bax, divarlar nə qalındır, necə partlayıb yıxıla bilər ki?» Amma mənim rahatlıq yaratma səylərim bütövlükdə yararsız tdı, bərəlmiş gözlərinlə qarşımdakı boşluğa baxaraq təkrarlayırdın ki, hər şey partlaya bilər.
Bu qorxunu yaradan səbəblərlə bağlı olaraq məndə suallar yaranırdı; partlama nə idi? Ananla, onun qəfil ölümüylə bağlı bir xatirə ola bilərdimi? Yoxsa başqa müəllimlərinə sadə bir şeymiş kimi anlatdığın əvvəlki həyatına aid bir hadisə idimi? Bəlkə yaddaşının əl çatmayan bir nöqtəsində bu ikisinin qarışığından yaranmış bir qorxuydumu? Kim bilir? Söylənilənlərə baxmayaraq inanıram ki, insan beynində işıqdan çox kölgə var. O günlərdə aldığım kitablarda keçmiş həyatlarını xatırlayan uşaqlara daha çox Hindistan və Şərqdə, bu qavramın ənənəvi olaraq qəbul olunduğu yerlərdə rast gəlindiyi yazılırdı.

Doğrusu, buna inanmıram. Bir kərə düşün, mən bir gün anamın yanına gəlib heç xəbərdarlıq etmədən onunla başqa bir dillə danışmağa başlasam, ya da sənin hərəkətlərinə dözmürəm, o biri həyatımdakı anamla daha yaxşıydım desəydim nə olardı. Hərhalda məni ağıl xəstəxanasına salmaq üçün bir gün belə ləngiməzdilər.
İnsanın qədərdən, ataların qan yolu ilə sənə keçirdikləri xüsusiyyətlərdən can qurtarmaq üçün, görəsən, bir yol varmı? Kim bilir? Bəlkə nəsillərin xromosomlarından asılı olaraq bəziləri bir mərhələ yuxarı qalxa da bilər, ya da oraya çatmaq üçün bütün gücündən istifadə edər. Bir halqanı qırmaq, otağa fərqli bir otmosferin daxil olmasını saxlamaq; inanıram ki, həyatın dəyişilməsindəki o böyük sirr - böyük, amma çox zəhmət tələb edən, çözümü də özündən qorxulu-burada yatır.
Anam on altı yaşında evlənib, on yeddisində məni dünyaya gətirmişdi. Bütün uşaqlığım, daha doğrusu, bütün həyatım boyunca onun bir dəfə belə sevgi dolu bir hərəkət etdiyini görmədim. Aşiq olub evlənmişdi. Buna onu heç kim məcbur etməmişdi, özü özünü məcbur etmişdi, həm də bunu hər şeydən çox istəmişdi. Çünki varlı, eyni zamanda dinini sonradan dəyişdirmiş bir yəhudi olan anamın soy-köklü bir familiyaya sahib olma məqsədi vardı. Ondan daha yaşlı olan atam musiqi dəlisi olan bir baron idi və anamın nəğmə söyləməsinə vurulmuşdu. Bu soylu ad üçün vacib olan varisi dünyaya gətirdikdən sonra günlərini didişərək keçirirdilər. Anam həyatdan doymadan və kinlə öldü, bir dəfə olsa belə özünün də bəzi qüsurları ola biləcəyini ağlına gətirmədi. Ona daha yaxşı şəcənəklər təqdim etməyən dünya ona qarşı mərhəmətsiz davranmışdı. Mən isə ondan fərqli idim və artıq yeddi yaşımda olarkən onun xasiyyətinə dözməməyə başladım.
Onun özündən çox əzab çəkdim. Tez hirslənirdi, həm də yalnız xarici səbəblər üzündən. Onun süni davranışlarından özümü pis hiss edirdim və yalnızlığımsa pis insan kimi yetişməyimə səbəb olurdu. Onun kimi ola bilmək üçün sınaqlar da etdim, amma bunların hamısı dərin sularda boğulan bacarıqsız səylər idi. Özümü sıxdıqca daha narahat olurdum. İnsanın özündən küsməsi özünə inamsızlığa gətirib çıxarır. Burdan qəzəbə keçən yol isə çox qısadır. Anamın sevgisinin yalnız görünüş olduğunu anladım. Necə olmağım lazımdırsa, necə olduğumu anladığım an otağımda oturub ürəyimin ən gizli bucaqlarından ona nifrət etməyə başladım.
Bu duyğudan xilas olmaq üçün bütövlükdə mənə aid bir dünyaya sığındım. Axşamlar lampanı bir örtüklə örtərək gecəyarısına qədər macəra kitabları oxuyurdum. Xəyal qurmaq üçün ürəyim gedirdi. Bir müddət quldur olmağı xəyal etdim.  Guya Çin dənizində yaşayırdım, məşhur bir qadın quldur idim. Çünki özümə deyil, yoxsulların firavanlığı üçün çalışırdım. Bu haydutluq xəyallarından yenisinə keçirdim. Guya tibb təhsili aldıqdan sonra Afrikaya gedib zənci uşaqları müalicə edirdim. On dörd yaşımda olarkən Şleymannın həyat hekayəsini oxudum və oxuyar-oxumaz, «mən heç zaman insanları müalicə edə bilmərəm, çünki mənim həqiqi ehtirasım arxeologiyadı» deyə düşündüm. Bunları düşünərkən anlayıram ki, həqiqətən içimdə dərd kimi qalanı da bu oldu. Əslində bu xəyalımı həyata keçirmək üçün atamla ilk dəfə vuruşdum. Klassik litseyə getmək istəyirdim. Atam bunun adını eşitmək belə istəmirdi, onun düşüncəsinə görə bu heç bir şeyə yaramazdı. Amma sonda mən uddum. Litseyin qapısından girdiyim an qazandığımı dəqiqliyinən hiss etdim. Amma yanılırdım. Litseyi bitirib ona Roma universitetinə getmək istədiyimi bildirdiyim an cavabı çox qəti idi, nəbadə dilinə gətirərsən deyə etiraz etdi. Və mən  zamanın adətinə boyun əydim. Bir döyüşdə qələbə çaldıqda, insan düşünməməlidir ki, bütün döyüş qələbəylə bitib. Əlbəttə, bu bir gənclik səhvi idi. İndisə düşünürəm ki, bir az da mübarizə aparsaydım, ayaq dirəsəydim, atam razı olardı. Əslində onun mənfi cavabı o zamankı təhsilin vəziyyətiylə bağlı idi. Gənclərin təkbaşına doğru qərar verə biləcəyinə inanmırdılar. Buna görə fərqli bir arzu yarananda gəncləri bacarmadıqları işə girişdiyi üçün sınayırdılar. İlk sınaqda büdrədiyimdən onlara görə mənim arzum həqiqi deyil, keçici bir həvəs idi.

Atama və anama görə ilk vəzifələri uşaqlarını o zamankı ənənəvi tərbiyə sistemiylə yetişdirmək idi. Ürəyimizin səsini dinləmədən tərbiyənin ən mənasız yönlərini zor gücünə tətbiq edirdilər. Süfrədə dik və dirsəklərim bədənə yaxın oturmalı idim. Bunu edərkən ürəyimdə, «necə ölə bilərəm» deyə düşünsəm də bunun bir əhəmiyyəti yox idi. Onlara görə mənzərə çox şey demək idi, ondan sonra gələnlər isə yalnız əhəmiyyətsiz şeylərdi.
Beləcə, bir insan deyil, yaxşı tərbiyə ediləcək meymun kimi bir şey olduğum duyğusuyla böyüdüm, insana xas sevinc, cəsarətsizlik, sevilmə arzularıdan danışmaq heç bizə yaxın deyildi. Çox keçmədən içimdə bir tənhalıq doğdu, bu tənhalıq illər keçdikcə böyüdü, sanki havası alınmış bir boşluqda, tənbəl və süst hərəkətlərlə fırlanırdım. Bir yandan da tənhalıq suallar doğururdu, bunlar cavabını tapmadığım suallar idı. Dörd, beş yaşında ətrafıma baxıb «nədən buradayam? -deyə soruşurdum, -mən haradan gəlirəm, ətrafımda gördüyüm hər şey haradan gəlir? Bunların arxasında nə var? Mən olmamışdan da burdaydılarmı, həmişə burada olacaqlarmı?» Bunlar dünyanın mürəkkəbliyi qarşısında hər bir həssas uşağın verdiyi suallardı. İnanırdım ki, böyüklər bu suallara cavab verməyi bacarırlar, amma anam və atama bu barədə sual verdikdə anladım ki, onlar uşaqkən bu barədə düşünməmişdilər.
Beləcə, tənhalıq duyğusu böyüdükcə böyüdü. Atamın bir ov tulası vardı; Arqo, üzüyola və sevimli olduğundan ən yaxşı oyun yoldaşım o idi. Nahardan sonra ona palçıqdan, otdan hazırladığım yeməkləri yedirməyə çalışırdım, və yaxud da onu bərbər müştərisi edərdim, bağçada qulaqlarında sancaqlarla dolaşmaq məcburiyyətində qalardı. Bir gün onun üstündə yeni bir saç modeli təcrübəsi apararkən boğazının altında bir şişin olduğunu hiss etdim. Bir neçə həftədir ki, əvvəlki kimi qaçmaq, hoppanmaq istəmirdi, bir küncdə oturub yeməyimi yeyərkən qarşımda ümidlə uzanıb özünü yalayardı.
Bir gün məktəbdən qayıtdıqda onu dəmir barmaqlıqlar arasında məni gözləyən görmədim.
«Yəqin atamla bir yerə getmişdi» -deyə düşündüm. Amma atam iş otağındaydı, Arqo yox idi, o anda ürəyimdə fırtınalar qopdu. Bayıra çıxdım, adını çəkərək bağçada axtardım, iki, üç- dəfə evə girdim və təpədən-dırnağadək evi axtardım. Axşam anam və atama zorla «gecəniz xeyrə qalsın» deyərkən bütün cəsarətimi toplayıb atamdan, «Argo haradadır» deyə soruşdum. «Argo, -deyə gözlərini qəzetdən ayırmadan cavablandırdı, - Arqo getdi". «Bəli, nədən?» -deyə soruşdum. «Çünki sənin ərköyünlüklərindən cana doymuşdu» -deyə cavab verdi. Bu düşüncəsizlikdirmi, səthilikdirmi, şadizmdirmi? Nə idi bu cavabda yatan? O sözləri duyarkən içimdə fırtına qopdu. Gecələr yata bilmirdim, özümü zorla saxlayırdım ki, hıçqırıqlardan boğulmayım. Bir, ya da üç ay sonra uşaq həkimi çağırdılar. «Uşaq ölüb qurtarmışdır ki!» - deyə həkim mənə balıq yağı verilməsini tapşırdı. Niyə yatmadığımı, niyə Arqonun dişlədiyi o topdan ayrılmadığımı kimsə məndən soruşmadı. Yetkinləşməyimi o hadisəylə bağlayıram. Altı yaşındamı? Bəli, tam altı yaşında. Arqo getmişdi, çünki mən pis idim, demək ki, mənim davranışım ətrafımdakılara həyatını zəhərləyirdi.
O andan başlayaraq hərəkətlərim daha pozuq, qeyri-iradi oldu. Başqa səhvlər edəcəyimdən qorxaraq bəzi hərəkətlərimi yavaş-yavaş ixtisar etdim, sonunda tənbəlin, dalğının biri oldum. Gecələr o topu əllərimin arasına sıxışdırıb ağlayaraq: Arqo, yalvarıram geri gön, günah etsəm də hər kəsdən çox səni sevirəm deyirdim. Atam evə başqa bir it balası gətirəndə onu görmək belə istəmədim. Mənim üçün bütövlükdə yad idi, və elə də olmalıydı.
Uşaq tərbiyəsini korlayan ikiüzlülükdü. Çox yaxşı xatırlayıram: bir dəfə atamla gəzinərkən bir çalanın yanından keçirdik ki, yerdə ölüb qürümüş bir bülbül tapmışdım. Qorxmayaraq əlimə götürdüm və atama göstərdim. «Yerə qoy onu! - deyə bağırdı, - görmürsən yatır». Ölüm də sevgi kimi elə bir mövzudu ki onu söyləməyə ehtiyac yoxdu. Mənə Arqonun öldüyünü söyləsəydilər daha yaxşı olmazdımı? Atam məni qucağına alıb belə deyə bilərdi: Onu öldürdüm, çünki xəstə olduğu üçün çox əzab çəkirdi. İndi olduğu

yerdə daha çox xoşbəxtdir. Əlbəttə, çox ağlayardım, ümidsizliyə qapılardım, aylarla basdırıldığı yerə gedərdim, torpaqda oturub onunla uzun-uzadı danışardım. Sonra yavaş-yavaş onu unutmağa başlayardım. Marağımı başqa şeylər çəkərdi və Arqo düşüncələrimin lap küncünə bir xatirə, uşaqlıq çağlarına aid gözəl bir xatirə kimi gömülərdi. Halbuki, hələ də ürəyimdə daşıdığım kiçik bir ölüdür. Bu üzdən altı yaşımda böyüdüm deyirəm, çünki artıq sevinc yerinə qayğı, maraq yerinə maraqsızlıq hiss edirdim. Anam və atam o zamanlar üçün son dərəcə normal insanlar idi.
Anam ancaq yaşlandığı zaman mənə öz uşaq illərinə aid bəzi şeylər danışmağa başladı. Onun anası da hələ kiçik bir uşaqkən ölmüşmüş. Anamdan əvvəl dünyaya gətirdiyi oğlu şiddətli bir zökəmə tutulmuşdu. Bu hadisə zamanı doğulan anam yalnız qız olmaq deyil, böyük qardaşının öldüyü gün doğulduğu üçün ömrü boyu şansızlıq da yaşamışdı. Bu kədərli əhvalatı xatırlatmaq üçün uşaqlığından başlayaraq onu yas rənglərində geyindirmişdilər. Beşiyinin üstündən böyük qardaşının yağlı boya ilə çəkilən bir portreti asılırmış. Bu ona görə lazım idi ki, hər gözünü açdığı zaman yalnız digərinin yerini doldurduğunu, daha yaxşı birinin solğun bir kopyası olduğunu bilsin. Anlayırsanmı? Bu vəziyyətdə anamı soyuqluğu, səhv seçimləri, bəsit təfəkkürü üzündən necə təqsirləndirə bilərəm ki? Sevgi görmədən bir lobarotoriyada böyüdülən meymunlar belə həqiqi ana olmayıb, kədərə bürünür, özlərini ölümə məhkum etmirlərmi? Geriyə baxsaq, görəsən, anamın anasında və nənəsində kim bilir nələr tapırdıq!
Bədbəxtlik, xüsusi olaraq qadın cinsini izləyər. Bəzi irsi anormallıqlar kimi anadan qız övlada keçər. Keçərkən də zəifləmək əvəzinə daha intensiv , daha davamlı və dərin olur. O dövrlər kişilər üçün daha yaxşı idi; sənətləri vardı, siyasət və müharibə, enercilərini sərf edəcək bir yer vardı. Bizsə belə deyildik. Biz nəsillər boyunca tək yataq otağını, mətbəxi, hamamı tanıdıq; minlərcə, milyonlarca addım atar, iş görərkən elə eyni kini, doyumsuzluğu içimizdə daşıdıq. Mən feministəmmi? Xeyir, yalnız geridə qalanlara daha parlaq bir işıq altında baxmaq istəyirəm. Xatırlayırsanmı? Yay tətillərində dənizdən atılan fişəngləri seyr etmək üçün gəmiləri yükləmə körpüsünə gedərdik. Fişənglərin arasında bəzən bir dənəsi partlayar, amma göyə çatmazdı. Budur, anamın, nənəmin tanıdığım daha çox insanın həyatını düşündüyüm zaman ağlıma yalnız bu mənzərə gəlir. Yuxarı dırmaşmaqdansa, yarı yolda partlayan qığılcımlar.

21 noyabr

Bir yerdə oxuduğuma görə Manzoni «Nişanlılar»ı yazarkən səhər oyanıb qəhrəmanlarını həyatda tapdıqda çox xoşbəxt olurmuş. Mənsə belə düşünmürəm. Aradan çox illər keçsə də ailəmdən söz açmağı çox xoşlamıram. Anam hafizəmdə sultan sarayının qapısında duran gözətçi kimi hərəkətsiz və sərt görünüşüylə qalıb. Bu səhər onunla mənim, mənimlə xatirələrim arasına bir az yeni hava girsin deyə bağçada gəzindim. Axşam yağış yağmışdı. Göy üzü qərb tərəfdən açıq olsa da evin arxasında bənövşəyi rəngli buludlar toplanmışdı. Leysan başlamadan evə girdim. Qısa bir müddətdən sonra fırtına başladı. Evin içi elə qaranlıq oldu ki, işıqları yandırmaq məcburiyyətində qaldım. İldırımdan zərər dəyməsin deyə televizor və soyuducunu da keçirtdim. Sonra əl fənərini götürüb cibimə qoydum, bir günlük görüşümüz üçün mətbəxə gəldim.
Amma oturar-oturmaz anladım ki, hələ hazır deyiləm, bəlkə də havada həddən artıq enerci olduğu üçün düşüncələrim qığılcımlar kimi ora-bura uçurdu. Buna görə qalxdım, arxamca gələn Buskla evin içində məqsədsizcə dolaşdım. Babanla yatdığım otağa girdim, sonra indi yatdığım otağa -bir zamanlar ananın idi- və artıq istifadə olunmayan yemək otağıynan sənin otağını dolaşdım. Otaqdan otağa keçərkən bu evə ilk girdiyim günü xatırladım; heç də xoşuma gəlməmişdi. Buranı mən seçməmişdim. Ərim Avqustonunu qərarıydı, amma o da tələsik seçmişdi. Bir evə ehtiyacımız vardı və çox

gözləyə bilməzdik. Genişliyi və bağçasının olması bizim ehtiyacımızı ödəyər deyə düşünmüşdü. Bağça qapısını açdığım an zövqsüz, hətta çirkin bir ev olduğunu düşünmüşdüm; rəngləriylə forması heç bir-birinə uyğun gəlmirdi. Bir yanından baxdıqda İsveçrə şalesinə bənzəyir, o birisi yandan baxdıqda da ortadakı dairəvi pəncərəsi və pilləli dam sərhəddiylə kanal kənarında sıralanan holland evlərini xatırladırdı. Uzaqdan baxdıqda da bu ev yeddi ədəd bir-birindən fərqli bacasıyla bir nağıla yaraşırdı. İyirminci illərdə tikilmişdi, amma o dövrün heç bir üslubunu əks etdirmirdi. Özünəməxsus bir xüsusiliyinin olmaması məni narahat edirdi, bura alışmaq üçün uzun illər çalışdım. Elə sənin otağındaykən o birilərdən daha yaxına düşən bir ildırım işığı kəsdi. Fənəri yandırmaqdansa yatağa uzandım. Bayırda şiddətli yağış şırıltısı vardı. Külək uğuldayırdı, içəridə də fərqli səslər vardı; çıtırtılar, taxtaların cırıltısı. Gözlərimi bağladıqda özümü gəmidə hiss etdim. Sanki çölün üstüylə irəliləyən bir yelkəndəydim. Fırtına ancaq günorta saatlarında durdu. Otağının pəncərəsindən qoz ağacını iki böyük budağının qırılıb düşdüyünü gördüm. İndi yenidən mətbəxtdə, öz savaş meydanımdayam, yemək yedim və bir-iki tabağı yudum. Busk ayaqlarımın yanında, bu səhərki həyəcandan yorğun halda yerə sərilmiş vəziyyətdə yatır. İllər keçdikcə fırtınadan daha çox qorxur, zorla özünə gəlir.

Sən bağçaya gedərkən aldığım kitabların birində oxumuşdum ki, insanın doğulacağı ailənin seçimi də öncədən müəyyənləşir. İnsan o ailənin övladı olurdu ki, yalnız o ana və ata bəzi şeyləri öyrənməyimizi, bir addım, kiçik bir addım daha irəliləyəcəyimizin nizamını saxlayarmış. «Niyə nəsillər dəyişdikcə eyni yerdə qalırıq?» -deyə o zaman özümdən soruşmuşdum. «Nədən irəli getmək əvəzinə geri gedirik?»

Keçən günlərdə bir qəzetin elmi əlavəsində təkamülün hər zaman bizim düşündüyümüz kimi olmadığını oxudum. Son nəzəriyyələrə görə dəyişmələr mərhələ-mərhələ olmur. Daha uzun bir qıç, bir damla artıq içə bilmək üçün daha fərqli bir dimdik, yavaş-yavaş, nəsil-nəsil həyata keçmir. Qəflətən ortaya çıxır; anadan körpəyə hər şey dəyişir, hər şey bambaşqa olur. Bunu təsdiq edən skilet, çənə sümüyü, dırnaq, fərqli kəllə qapağının qalıqları var. Hələ bəzi növlərdə heç bir ortaqlığa rast gəlinmir. Babası necədirsə, nəvəsi də elə olur. İki nəsil arasında bir sıçrama yaşanır. İnsanın daxili aləmində də eyni şeylər olsa necə?

Dəyişmələr üst-üstə yığılır, yavaş-yavaş toplanıb bir anda partlayır. Bir anda bir insan ətrafındakı halqanı qırıb başqa biri olmaq qərarına gəlir. Alın yazısı, irsiyyət, bunların biri harada bitib, o birisi harada başlayır? Bir an düşünərkən bunların içində gizlənən sirr insanı qorxudur.

Evlənməmişdən qabaq xalam ruhlarla dost olan astroloq bir dostuna ulduz xəritəmi çıxartdırmışdı. Günlərin birində əlindəki bir kağızla qarşımda durub, «budur, bu da sənin gələcəyin» demişdi. O kağızda geometrik bir naxış vardı, bir planetdən o birisinə uzanan cizgilər bucaqlar yaradırdı. Buna baxar-baxmaz «burda uyğunsuzluq, surət yox, sıçramalar, düşməyə bənzəyən enişlər var» -deyə düşündüyümü xatırlayıram. Kağızın arxasına yazılmışdı: «çətin bir yürüşdür, yolun sonuna çata bilmək üçün bütün gücünü səfərbər etməlisən».

Çox təsirlənmişdim, o ana qədər həyatın bəzi üzünü görmüşdüm, bəli, çətinliklər olmuşdu, amma bunlar elə-belə çətinliklərdi, uçurumdan çox bir gənclik səngəri idi. Sonra böyüdüm, qadın, ana, və nənə oldum, həmişə bir cızıqda irəlilədim. Qeyri-adi deyilə biləcək tək hadisə ananın faciəli ölümü idi. Diqqətlə baxılsaydi o ulduz tablosu yalan söyləmirdi, mənim o kəndəsilli qadına xas həyatımın arxasında həqiqətən sürətli bir hərəkət, kiçik enişlər, qəfl qaranlıqlar, büdrəmələr vardı. Yaşadıqca, bir sevinc yelini gömürən kədərə məğlub oldum, özümü yerində durarkən addımlarını ağır-ağır yerə vuran əskərlər kimi hiss etdim. Zaman dəyişirdi, insanlar dəyişirdi, ətrafımdakı hər şey dəyişirdi və mən hey tərpənmədən eyni yerdə durduğumu hiss edirdim.

Bu həyatımın nizamına ən dəhşətli zərbəni ananın ölümü vurdu. Özümü elə bəsit gördüm ki, bir an içində yıxıldım- bunun indiyə qədər davam etdiyini düşünürəm-bir, ya

da iki addım atdığım an qəfildən geriyə qayıdıb həyatımın başlanğıc nöqtəsinə qayıtdım. O günlərdə düşündüm ki, bir də ayağa qalxa bilməyəcəyəm. Mənə elə gəlirdi ki, o ana qədər anlaya bildiyim hər şey artıq dağılmışdı. Amma özümü məğlub etmədim. Həyat bizi ona olan ehtiyacları ilə iləliyə çəkirdi.
Həyat sən idin, dünyaya bapbalaca, kimsəsiz, müdafiəsiz və heç kimsən olmadan gəldin, bu kədərli və səssiz evi qəfil gülüşlərinlə, ağlayışlarınla doldurdun. Sənin körpə başının masayla divanın arasındaləngər vurduğunu gördüyüm zaman hər şeyin bitmədiyini düşündüm.
Bu təsadüfi  qarşılaşma nəzərə alınmayacaq comərdliyi ilə mənə bir fürsət vermişdi. Təsadüfi qarşılaşma; Morpurqo xanımın əri bir səfərində ibercə bu sözün qarşılığının olmadığını söyləmişdi. Qarşılaşma vəziyyətini izah etmək lazım gəldiyində bu sözün ərəbcə qarşılığından istifadə edirlərmiş. Gülməli deyilmi? Gülməlidi. Tanrının olduğu yerdə raslantıya yer yoxdur, əlbəttə, onu rəmzləşdirən o bəsit sözə də. Hər şey yuxarıdan nizamlanmış, müəyyənləşdirilmişdir. Başına gələn hər hadisənin bir mənası vardır. Dünyanın bu nizamına inanmaqda tərəddüt etməyən insanları seçimlərinə görə həmişə qısqanmışam. Mənə görə ən gözəl niyyətlərimə baxmayaraq, bunu bacarmırdım: qorxu və ədalətsizlik qarşısında hər zaman geri düşdüm. Həmişə daxilimdə insanların üzündə minnətdarlıq duyğusu görmədiyim üçün üsyan oyandı.

Yorğunam. Bu ana qədər yazdıqlarımı müəyyən bir qayğıyla yenidən oxudum. Görəsən bir şey anlaya biləcəksənmi? Zehnimdə çox şey fırlanır, çölə çıxmaq üçün bir-birini mövsüm sonu endirimli satışlardakı xanımların bir-birini itələdiyi kimi itələyir. Fikir yürütmək istədikdə əsla bir üsul müəyyənləşdirə bilmirəm, başdan sona bir ipdən yumaq düzəldə bilmirdim. Kim bilir, bəlkə bunu universitetə getmədiyim üçün bacarmadım deyə bəzən düşünürdüm. Çox kitab oxudum, lap çox şeylə maraqlandım, amma həmişə ağlımın bir ucu uşağın bezlərində, o biri ucu ocaqdakı yeməkdə, bir ucu da duyğularda oldu. Çöllərdə gəzən bir botanika mütəxəssisi çiçəkləri müəyyən bir tərtibatla seçər. Özünü maraqlandıranı və maraqlandırmayanı ayırar, qərar verər, araşdırar, əlaqələr qurar. Halbuki, bir köçəri düzlərdə dolaşmağa  çıxsa, çiçəklər ayrı bir üsullda toplanar. Biri sarı, o birisi mavi, üçüncüsü iyli, dördüncüsü uçurumun kənarında olduğu üçün dərilər. Mənim biliklə əlaqəmin də tam belə olduğunu düşünürəm. Anan həmişə bunu başıma qaxardı. Elə ki, mübahisəyə başladıq mən həmişə məğlub edərdim. «Səndə dialekt yoxdur, bütün kəndəsillilər kimi düşüncələrini ciddi olaraq izah edə bilmirsən» deyərdi.
Sən necə ki, adını qoymadığın bir rahatlıq içindəsən, anan da ideoloci epidemiyasına məğlub olmuşdu. Məni əks reaksiyalı və kəndəsilli xəyallar xəstəsi olaraq xarakterizə edirdi. Bəzən mənə elə bir qəribə baxışı vardı ki, əminəm bir xalq cürisi qurub başına onu gətirsəydilər məni ölümə məhkum edərdi. Bağçalı bir villada oturmaq kimi bir günahım var idi. Ona qalırsa bir daxmada, ya da kəndin varoşlarında bir evdə yaşamalı idim. Bu günaha əlavə olaraq hər ikimizin dolanmağımıza çatacaq bir də gəlirim var idi. Öz ana- atamın səhvlərini təkrarlamamaq üçün onun söylədikləriylə maraqlanır, ən azından maraqlanmağa səy göstərirdim. Onunla əsla zarafat etmədim, ya da başqa düşüncələrinə laqeyid oduğumu büruzə vermədim, amma o, hərhalda onun qurmaca fikirlərinə qarşı nə qədər narazı olduğumu hiss edirdi.
İlaria universiteti Radovada oxudu. İstəsəydi Trestedə qala bilərdi, lakin mənim yanımda yaşamaq onun canını sıxırdı. Nə zaman onu ziyarət etməyə gəlməkdən söz açırdımsa nifrətlə susurdu. Dərsləri ağır idi, evdə kiminlə qaldığını bilmirdim. Mənə heç söyləmək istəmədi də. Onun həssas olduğunu bildiyim üçün qayğılanırdım. Fransada May hadisələrini yaşamışdı, universitetlər işğal edilmişdi. Tələbə tətilləri davam edirdi. Telefonda verdiyi nadir xəbərləri dinləyərkən artıq onu izləyə bilmirdim, onda hadisələrə

qarşı intiqam yaranırdı və bunlar həmişə dəyişirdi. Analıq roluma boyun əyərək onu anlamağa çalışırdım, amma bu çətin idi: hər şey o qədər sürətliydi ki, o qədər çox yeni düşüncə, törətmişdi ki! İlaria öz cümləlәriylə danışmaqdansa şüarları bir-birinin ardınca sıralamağa başlayırdı. Onun ruhi tarazılığı üçün qorxurdum. Universitetin altıncı ilində daha uzun davam edən bir sükut məni maraqlandıranda qatara minib ona baş çəkməyə getdim. Radovaya gedəndən belə etməmişdim. Qapını açar-açmaz rəng verib rəng aldı. Məni salamlamaqdansa «səni kim dəvət etdi» deyə üstümə  çımxırdı: Cavab verməyə aman verməyərək, «qabaqcadan xəbər verməliydin, artıq çıxırdım, bu gün əhəmiyyətli bir imtahınım var» - deyə əlavə etdi. Gecə paltarı hələ əynindəydi, aydın idi ki, yalan söyləyirdi. Özümü başa düşmürmüş kimi göstərib, f»ikir vermə, demək ki, səni burda gözləyəcək və imtahanın nəticəsini birlikdə qeyd edəcəyik» söylədim. Bir müddətdən sonra həqiqətən çıxdı, o qədər tələsdi ki, kitablarını unudub stolun üstündə saxladı. Evdə tək olduqda hər ananın edəcəyi işi gördüm; siyirtmələri ələk-fələk etdim, bir iz, həyatının hansı yola istiqamətləndiyini anlamağıma kömək edəcək hər hansı bir şey axtardım. Onu izləmək, senzor qoymaq, yasaqlamaq kimi bir niyyətim yox idi, bu cür şeylər mənə yaraşmaz. Yalnız içimdə dəhşətli bir qayğı vardı və bunu gömdürmək üçün bir təmas nöqtəsi axtarırdım. İnqilabçı təbliğatlarına bənzəyən kitabçalardan başqa əlimə bir şey keçmədi, nə bir məktub, nə bir gündəlik. Otağının divarlarının birindən asılmış afişada belə yazılmışdı: “ailə ancaq bir qaz balonundakı hava kimidi və uyuducudur”. Bu da bir növ göstərici sayıla bilərdi.
İlaria nahardan sonra döndü. Səhərki kimi solğun idi. «İmtahan necə keçdi»- deyə bacardığım qədər şirin dillə soruşdum. Çiyinlərini silkələyib, «o birisilər kimi» - deyə cavab verdi. Və bir az durub əlavə etdi: “Büna görəmi, mənə nəzarət etmək üçünmü gəldin?” Bir mübahisə çıxmasını istəmirdim. Buna görə sakit və şirin bir dillə məqsədimin onunla bir az söhbət etmək olduğunu söylədim. «Söhbət etməkmi? Hansı mövzuda, sənin mistik maraqların barəsindəmi» - deyə cavab verdi. Onun yayınmış baxışlarını yaxalamağa çalışaraq, yavaşca, «sənin haqqında, İlaria» dedim. Pəncərəyə yaxınlaşdı, baxışlarını solmuş bir söyüd ağacından ayırmayaraq, «izah ediləsi heç bir şey yoxdur, ən azından sənə yoxdur. Belə kəndəsillilərə xas iç dünyalar mövzusunda çənə çalmağa zamanımı itirmək istəmirəm» - deyə cavab verdi. Sonra gözlərini söyüddən ayırıb qol saatına baxdı: və «gec oldu, əhəmiyyətli bir toplantım var, getməlisən» söylədi. Onu dinləmədən qalxdım, amma çölə çıxmadım, ona yaxınlaşıb əllərini əllərimin arasına alıb, nə baş verir -deyə soruşdum, -sənə əzab verən nədir? Tez-tez nəfəs aldığını hiss etdim. Səni bu halda görmək ürəyimi incidir -deyə əlavə etdim. -Məni bir ana olaraq rədd etsən də mən səni qızımsan deyə rədd etmirəm. Sənə kömək etmək istəyirəm, amma sənin razılığın olmasa bunu edə bilmərəm. O anda çənəsi titrəməyə başladı, uşaqkən də ağlamağa başlamamışdan belə olurdu, əllərini əllərimdən çəkdi və küncdə qıvrılıb oturdu. Zəif və büzülmüş bədəni hıçqırıqlarla doldu. Saçlarını oxşadım, əlləri buz kimiydi, mənə sarıldı, üzünü çiynimə söykədi: Ana, mən…mən... O anda telefon zəng çaldı. Qoy çalsın -deyə qulağına pıçıldadıqda, gözlərini qurulayaraq, olmaz-  dedi.
Telefonu asdıqda səsi yenidən metalik, mənə yad ton almışdı. Anladım ki, qısa sürən danışıqdan sonra mühüm bir şey olmuşdu. Həmin an mənə tərəf döndü və məyus olduğunu və həqiqətən də getməli olduğunu söylədi. Birlikdə çıxdıq, qapıda günahkarcasına mənə sarıldı və: «mənə heç kim kömək edə bilməz» -dedi. Dirəyə bağlanmış bir velosipedə qədər ona yol yoldaşı oldum. Velosipedə mindikdən sonra iki bamağını boynumdakı kolyeyə keçirərək:  «mirvarilər, eh bunlar da sənin pasportundur. Doğulandan bəri bunlarsız bir addım atmağa cəsarət etmədin» - deyə mənə tənə etdi .
Bu qədər fasilədən sonra ananla bağlı xatirələrdən ağlıma ən tez gələni budur. Tez-tez düşünürəm, necə olur ki, xatirələrimdən ən çox gözümün önünə gələni budur. Yenə bu gün eyni şeyi düşünərkən xatırladım ki, dil dişin ağrayan yerinə dəyər. Nə əlaqəsi var deyəcəksən. Var, həm də çox əlaqəsi var. Bu xatirə yadıma daha çox düşür, çünki bu bir dönüş yaratdığım tək hadisədi. Anan ağlamağa başlamış, ruhunda bir məsafə,

mənim sığa biləcəyim balaca bir dəlik açılmışdı. Bir dəfə içəri girə bilsəydim beton mıxı kimi yavaş-yavaş özümə yer açardım.
Onun həyatının bir yerində mən də özümü dəyişdirə bilərdim. Bunu etməkçün güclü olmalıydım. O mənə, indi həqiqətən getməlisən deyərkən qalmalıydım. Yaxındakı bir oteldə otaq tutmalı və hər gün gedib qapını döyməliydim; o açdığım məsafəni genişləndirənə qədər çalışmalıydım, az qalmışdı, hiss edirdim.
Halbuki, bunu etmədim: qorxaqlıqdan, tənbəllikdən və saxta bir utanma duyğusundan onun buyruğuna boyun əydim. Mən öz anamın işğalçı ruhuna nifrət etmişdim, fərqli bir ana olmaq, onun həyatının müstəqilliyinə hörmət etmək istəyirdim. Ümumiyyətlə, bu azadlıq pərdəsinin arxasında onun işinə qarışmamaq arzusu gizlənirdi. Bu nazik bir sərhəddir, keçib-keçməmək an məsələsidir. Verilən və verilməyən bir qərara bağlıdır, bunun əhəmiyyətini də ancaq bu an keçdikdən sonra anlayarsan. Artıq onda peşiman olarsan. Məsələn, meşənin dərinliklərinədək uzanan otlu yolları düşün. Bu yolayrıclarının bəzisinə fərq qoymadan qədəm qoyursan, bəzilərini görmürsən belə, bəyənmədiyin yol səni hara aparırdı, heç öyrənə bilmərsən, görəsən yaxşı, yoxsa pis yerdimi. Bunu bilməzsən, amma peşiman ola bilərsən. Edəcəyin bir şey vardı, amma etmədin, irəli getməkdənsə geri döndün. Qazı oyununu xatırlayırsanmı? Həyat da elə həmin tərzdə davam edər.
Cığırlarda fərqli həyatlarla qarşılaşarsan, onları tanıyıb tanımamaq, anlamaq, ya da yan keçmək yalnız bir anlıq qərardan aslıdır. Dümdüz irəliləmək, sağa-sola dönmək əsas məsələ olduqda sənin taleyinlə və yanında olacaq insanın taleyiylə oynamamağı bacarmaq lazımdır.

22 noyabr

Bu gecə hava dəyişdi, küləksə şərqdən əsməyə başladı və qısa müddətdə bütün buludları dağıtdı. Yazmamışdan qabaq bağçada gəzindim. Hələ qüvvətli bir külək əsir, paltarlarımın altından bədənimə sızırdı. Busk dəli kimiydi, oynamaq istəyir, ağzında bir şam qozası arxamca gəzirdi. Əlacsız halımla qozaya bir dəfə vurdum, qaçıb yaxaladı, yenə də məmnundu. Sənin güllərinin sağlıq vəziyyətini gözdən keçirdikdən sonra qozu, gilası və o biri sevdiyim ağacları salamlamağa getdim.
Xatırlayırsanma? Həmişə ağacların gövdəsini oxşadığıma lağ edərdin. «Nə edirsən, - deyərdin, - o at beli deyil». Sonra sənə, ağacın gövdəsinə toxunmaqla başqa bir canlıya toxunmaq arasında heç bir fərqin olmadığını, hətta bunun daha yaxşı olduğunu söylədiyim an çiyinlərini silkələyər, yanımdan uzaqlaşardın. Nədən daha yaxşı? Çünki, məsələn Buskun başını oxşayarkən isti, titrəyən bir şey hiss edirsən, amma bunda incə bir hərəkətlilik var. Yemək saatıdır, ya da pis bir röyanın xatırlanmsıdır. Anlayırsanmı? İt də insan kimi düşüncəyə, daha çox ehtiyaca malikdir. Rahatlıq və xoşbəxtliyə çatmaq özündən asılı deyil. Halbuki, ağac fərqlidir. Pöhrələndikdən ölənə qədər həmişə eyni yerdə durur. Kökləriylə dünyanın ürəyinə, budaqlarıyla da göyə hər şeydən daha yaxındır. İçində canının suyu yuxarıdan aşağıya, aşağıdan yuxarıya dolaşır, gün işığının təsiriylə yayılır və toplanır. Yağışı gözləyər, günəşi gözləyər. Əvvəlcə bu mövsümü, sonra o birisini, ölümü gözləyər. Yaşaması üçün lazım olan şeylərin heç biri onun istəyi ilə olmaz, budur, bu qədərdir, buna da qane olmalıdır. İndi anlayırsanmı? Ağacları oxşamaq nədən gözəldir? Sağlamlığına, uzunömürlülüyünə, rahat yaşamasına görə. İlahi varlığa bənzəyən bir varlıq kimi həmişə gözlərimin qabağına çinar ağacı gəlmişdir. Həyətimizdə bir çinar ağacı vardı, elə böyük idi ki, gövdəsini ancaq iki nəfər qollarıyla sarıya bilirdi. Dörd-beş yaşında idim, onun yanına getməyi çox xoşlayırdım. Orda hey durur, bədənimdə otların nəmini, saçlarımın arasında və üzümdə ruzgarın sərinliyini hiss edirdim. Nəfəs alırdım, əşyalar arasında sonsuz bir nizam olduğunu və gördüyüm hər şeylə birlikdə mənim də bu nizamın bir parçası olduğumu hiss edirdim. Musiqi təhsilim

olmasa da içimdə nəsə nəğmə söyləyirdi. Bunun nə cür bir nəğmə olduğunu sənə söyləməyəcəyəm, amma nə bir nəqəratı, nə bir notları vardı. Sanki bir körük ürəyimə yaxın bir nöqtədə püskürür və bunun telləri bütün bədənimin, zehnimin içərisində dağılaraq böyük bir işıq, ikili təbiəti olan bir işıq istehsal edirdi: həm işığın, həm də nəğmənin işığı. Həyatda var olduğum üçün xoşbəxt idim, mənim üçün bu xoşbəxtlikdən başqa bir şey yox idi.
Kiçik bir uşağın belə şeyləri duyması sənə qəribə, ya da şişirdilmiş görünə bilər. Təəssüf ki, uşaqlıq çağlarını bir korluq, mərhumluq olaraq dərk etməyə, içindəki zənginliyi isə görməməyə alışmışıq. Halbuki, yeni doğulmuş bir uşağın gözlərinə baxmaqla da bunu anlayarsan. Bunu heç etdinmi? Əlinə fürsət düşdükdə sınaqdan keçir. Onların baxışları necədir? Boş, şüursuzdurmu? Yoxsa müdrik baxışlardımı? Uşaqları qarşıda uzun həyat gözləyir, bizsə yaşlandıqca bunu itirdik, amma bunu qəbul etmək istəmirik. Dörd-beş yaşlarında olarkən din, Tanrı və insanların bunlardan istifadə edərək qarşıdurma yaratdıqlarından hələ heç xəbərim yox idi.
Sənin məktəbdəki din dərslərinə getməyin və getməməyin vacib məsələ olduğu üçün uzun müddət bir qərara gəlmədim. Təhsildə zehn qədər ruhu da düşünməyin vacibliyinə inanırdım. Bu məsələ özü öz həllini tapdı, həmin gün sənin ilk hempisterin öldü. «O indi haradadır?» -deyə soruşdun. – «Səncə indi haradadır?» Mənə verdiyin cavabı xatırlayırsanmı: «O indi hər iki yerdədir. Həm burda, həm də buludların arasında». Həmin gün nahardan sonra onu kiçik bir matəm təntənəsi ilə basdırdıq. Balaca təpəciyin qarşısında diz çökərək dua etdin: «xoşbəxt ol, Toni. Günün birində yenə görüşəcəyik». Mən məktəbdə ilk beş ili rahibələrin «Müqəddəs ürək» məktəbində oxumuşdum. Məktəbin girişində rahibələrin il boyu asdıqları körpə İsanın canlandıran səhnə olurdu. Körpə İsa anası, atası, öküz, eşşək arasında axırda görünərkən sanki qoyun sürüləri kağızdan düzəldilmiş təpələr və uçurumlarda gəzinirdi. Bu kiçik qoyunlardan hər biri məktəbin bir şagirdiydi və o gün göstərdiyi davranışlara görə qoyun İsanın külübəsinə yaxınlaşdırılır, ya da uzaqlaşdırılırdı. Hər səhər sinifə girməmiş oradan keçərdik və keçərkən də öz yerimizi görməyə çətinlik çəkərdik. Külübənin o biri yanında dərin bir uçurum vardı və ən nadinclər iki qıçları boşluqdan asılı, sanki düşəcəkmiş kimi eyni yerdə sallanırdı. Altı yaşımdan on altı yaşıma qədər qoyunumun addımlarıynan yaşadım. Hər halda uçurumun kənarından heç ayrılmadığımı söyləməyimə ehtiyac yoxdur.
Mənə öyrədilən qaydalara ürəkdən uyğunlaşmağa çalışdım. Bunu uşaqlara xas surətpərəstlik duyğusyla edirdim, amma tək səbəb bu deyildi: həqiqətən yaxşı insan olmağın vacibliyinə, yalan söyləməməyə, dəyərsizin biri olmamağın gərəkliyinə inanırdım. Buna baxmayaraq həmişə büdrəyə bilərdim. Nədən? Heç olmayan səbəblərdən. Kim bilir, neçənci dəfə yer dəyişdirməyimin səbəbini öyrənmək üçün gözyaşları içində baş rahibənin yanına getdiyin zaman belə cavab verdi: «Çünki dünən saçında çox böyük bir lent vardı… Çünki məktəbdən çıxan an bir yoldaşın sənin nəğmə söylədiyini eşitmişdi. Çünki süfrəyə oturarkən əllərini yumadın…» Anlayırsanmı? Hər dəfəki günahlarım anamın məni irad tutduqlari günahlarla eyni idi, görüntüyə aid günahlardı. Mənə öyrədilən uyğunluq deyil, surətpərəstlik idi. Günlərin birində artıq uçurumun tam qırağına gəldim və hıçqırıqlardan boğularaq, «amma mən İsanı sevirəm» -deyə ağladım. Buna görən rahibənin nə dediyini bilirsənmi? -«Aha, deməli pintiliyinlə bərabər bir də yalançısan. İsanı həqiqətən sevsəydin dəftərlərini daha səliqəli saxlayardın». Və mənim balaca qoyunumu barmağının ucuyla itələyərək uçurumdan aşağı yuvarladı.
Bu hadisədən sonra iki ay yata bilmədiyimi xatırlayıram. Gözlərimi bağladığım anda sanki çiynimin altındakı döşəyi alov bürüyür, içimdə qorxunc səslər qığılcımlanaraq: «gözlə, indi səni gəlib aparacayıq» - deyirdi. Bunları ana-atama heç danışmadım. Üzümün qaraldığını, əsəbi olduğumu görən anam, «uşaq çox yorğundu, sanki ölüb qurtarıb» - deyirdi. Mən də heç səsimi çıxarmadan qaşıq-qaşıq dərman içirdim.

Kim bilir, nə qədər həssas insan bu cür hadisələr üzündən ruhi mövzulardan bütövlükdə uzaqlaşmışdır. Bəziləri məktəb illərinin nə qədər gözəl olduğunu və o illərin həsrətini çəkdiyini söylədiyini eşitdikdə dilim tutulur. Mənim üçün o dövr həyatımın ən ağır dövrlərindən biri idi, bəlkə də o günlərə əngəl olan bilməyəcək gücsüzlük duyğusuna görə ən pis dövr idi. İbtidai məktəb illərində qəlbimdə həmişə ikili duyğular- içimdə hiss etdiklərimə sadiq qalmaq istəyi və başqalarının inamlarına uyğunlaşa bilmək- gəzdirdim. Və bu duyğulardan ikincisinin saxtalığını hiss etdiyimdən onunla həmişə mübarizə apardım.
Qəribədir ki, o zamankı həyəcanları yenidən yaşadıqca yetkinlik krizlərimin hər kəs kimi gənclik dövrlərində deyil, o uşaqlıq illərində həqiqətə çevrildiyini düşünürəm. On iki, on üç, on dörd yaşlarımda bədbinliyə qapılmışdım. Qeyri-adi suallar yavaş-yavaş uzaqlaşaraq yerini yeni xəyallara verirdi. Bazar günləri anamla birlikdə ayin və bayram mərasimlərinə gedirdim, diz çöküb məsum bir ədayla keşişin əlindən müqəddəs çörəyi yeyirdim, amma bunları edərkən ağlım başqa yerlərdə dolaşırdı. Bunlar yalnız sakit və rahat yaşamağım üçün oynalılması vacib rollar idi. Buna görə səni din dərslərinə yazdırmadım, bundan da heç bir peşimanlıq duymadım. Sən uşaqlara xas bir maraqla bu mövzuda suallar verdiyin zaman dürüst və sadə cavablar verirdim. Mənə sual verməyini tərgitdikdə mən də bu mövzuda danışmağa son qoydum. Bu cür şeylərdə məcburetmə olmaz, yoxsa səyyar satıcılara bənzəyərik; mallarının reklamını nə qədər çox etsələr də, hamı bu işdə bir hiylə olduğu düşünür. Mən yalnız sənin içində olan qığılcımı söndürməməyə çalışdım. Və hər şeyi zamanın axarına buraxdım. Səfərimin bunun kimi bəsit olduğunu düşümə, dörd yaşındaykən məni əhatə edən təbiətin nizamını, nəfəsini duydumsa da yeddi yaşında bunu çoxdan unutmuşdum. İlk zamanlarda, hələ içimdə nəğmə var idi, amma artıq aramla xəfif-xəfif çalırdı. Bir dağ keçidindəki nəhr kimiydi. Sonra bu nəhr köhnə bir radioya çevrildi; bir anda bu nəğmə yüksək tempdə, gurultuyla çalınırdısa, bir an sonra heç səs də eşidilmirdi.
Anam və atam mənim bu nəğmə mırıldama vərdişimi tərgitmək üçün əllərindən gələni edirdilər. Bir dəfə, nahar zamanı bir sillə yedim və mənim ilk silləmdi, çünki ağzımdan bir «tra-la-la» çıxmışdı. «Süfrədə nəğmə söyləməzlər» -deyə atam ucadan guruldamışdı. «Müğənni olmayan nəğmə söyləməz» -deyə anam da əlavə etmişdi. Mən ağlayır və gözyaşları içində təkrarlayırdım ki, axı mənim içim nəğmə söyləyir. Real dünyadan uzaq olan hər bir şey ata-anam üçün qəti anlaşılmaz idi. O zaman mən bu nəğmə söyləmə vərdişimi necə davam etdirə bilərdim ki. Heç olmasa bir fərqli taleyinə sahib ola bilsəydim. Halbuki, tale mənimlə mərhəmətsizcəsinə davranırdı.
Yavaş-yavaş nəğmə də və onunla birlikdə həyatımın ilk qonağı olan nəşə də yox oldu. Nəşə ən çox həsrətində olduğum şey olmuşdu. Sonralar xoşbəxtlik duyğusunu da yaşadım, amma xoşbəxtlik nəşənini yanında bir elektrik lampası kimidir. Xoşbəxtliyin həmişə bir obyekti vardır, nəyə görəsə xoşbəxt olursan, xoşbəxtliyin var olması xarici səbəblərlə bağlıdır. Halbuki, nəşənin obyekti yoxdur. Bəlli olmayan bir səbəbdən səni sarıyar, varlığı günəş kimidir; səni öz hərarətiylə yandırar.
İllər keçdikcə özümü tərk etdim. Başqa bir insan, ata -anamın arzuladığı insan ola bilməkçün içimdəki o şeyi tərk etdim. Özüm kimi olmaqdansa, başqa xarakterli bir insan oldum. Xarakter, dünyada keyfiyyətdən daha çox dəyər verilən bir şeydir. Amma xarakter və keyfiyyət eyni zamanda formalaşmaz, hətta bir-birindən fərqli zamanlarda yaranar. Anamın güclü bir xarakteri vardı, hər davranışından əmin idi və onun bu inamını heç bir şey poza bilməzdi. Mənsə onun tərsinəydim. Gündəlik həyatımda elə bir əhvalat yox idi ki, məni narahat etməsin. Seçim qarşısında çaşardım, uzun-uzadı düşünürdüm. Belə vəziyyətdə əgər yanımda biri olsaydı səbirsizliklə mənim yerimə qərar verərdi.
Bir xarakter rolunu oynamaq üçün özünü tərk etməyin asan olduğunu düşünmə. Daxilimdə döyüş gedirdi, bir hissəm özüm kimi olmağı, o biri hissəmsə dünyanın tələb etdiyi qanunlara uyğunlaşmağımı istəyirdi. Necə də çətin bir döyüşdür! Anama, onun səthi və boş davranışlarına nifrət edirdim, amma yenə də yavaş-yavaş, özümdən asılı

olmayaraq onun kimi olurdum. Bu təhsilin pis cəhəti də elə budu. Sevgisiz heç bir uşaq yaşaya bilməz. Heç xoşlamasam da, həqiqəti tapmasam da belə istənilən modelə uyğunluq saxlamağımın səbəbi bununla bağlıdı. Üstəlik bu təsir yetkin yaşda da davam edir. Ana olduğun an hiss etmədən yenidən boy atır, çiçək açırsan və davranışların rəngarəngləşir. Budur, beləcə anan doğulduğu zaman başqa bir şəkildə davranacağıma heç şübhəm yox idi. Həqiqətən də elə etdim, amma bu başqalıq da səthi və saxta idi. Ananı taleyinin mənim taleyimə bənzəməmsi üçün seçimlərində sərbəst buraxdım, istəyirdim ki, hər davranışının nəticəsini özü hiss etsin və ona tez –tez təkrarlayardım ki, biz iki fərqli insanıq və bu fərqə görə də birbirimizə hörmət etməliyik…
Ancaq burda da bir səhv buraxdım, həm də böyük bir səhv. Bu da mənim şəxsi düşüncələrimin səbəbindən yaranmışdır. Artıq yetkin bir yaşa gəlsəm də, heç bir şeydən əmin deyildim. Özümü sevməyi, özümə hörmət hissi duymağı bacarmırdım. Uşaqlara xas bir həssaslıqla anan bunu o an sezdi: zəif, asanlıqla nəticəyə gəldiyi kimi inciyən olduğumu hiss etdi. Bizim münasibətimizi düşünən zaman ağlıma bir mənzərə – ağac və onun gövdəsinə sarılmış bir sarmaşıq gəlir. Ağac daha yaşlı, daha yüksəkdir, uzun zaman eyni yerdə durur, kökləri daha dərindədir. Sarmaşıq isə onun ayaqlarında, yalnız bir mövsümdə açır, onun köklərinə kök yox, ancaq sap deyə bilərik. Sonra balaca qollar çıxarır və ağacın gövdəsindən tutub dırmaşmağa başlayır. Bir-iki il keçdikdən sonra isə ağacın başına çıxır. Ev sahibi yarpaqlarını tökəndə o hələ də yaşıl qalır. Yayılmağa, sıxlaşmağa başlayıb ağacı bütünlüklə sarıyır, artıq günəş və su yalnız sarmaşığa çatır. Bu dəmdə ağac saralıb solur və məhv olur, yerindəsə yalnız sarmaşıq üçün dayaq olmağa yarayan quru gövdəsi qalır.
Ananın ölümündən sonra bir neçə il onu düşünmədim. Bəzən onu unutduğumu hiss edib özümü mərhəmətsizlikdə günahlandırırdım. Sənə baxmalıydim, amma bunun əsl səbəb olduğunu düşünmürəm, ya da səbəblərin biri o idi. Məğlubiyyət duyğusu onu qəbul edə bilməyəcəyim qədər güclü idi. Yalnız son illərdə sən uzaqlaşmağa, öz yolunu seçməyə çalışanda ananla bağla düşüncələr geri döndü. Ən böyük peşimanlığım ona qarşı çıxıb çox haqsızsan, axmaq iş görürsən deməməyimdir. Hiss edirdim ki, qeyri-adi sözlər işlədirdi, həmin an tədbir görməyim lazım idi, amma yenə də özümü güclə saxlayırdım ki, işlərinə qarışmayım. Əsas mövzu səhlənkarlıq deyil. Mübahisə yaranmasını istəmirdim. Məni hərəkətə gətirən, ya da hərəkətə gətirməyən anamın mənə öyrətdiyi davranışıydı. Sevilə bilmək üçün qarşı çıxmamaq, olmadığım kimi görünmək məcburiyyətindəydim. İlaria kobud idi, xarakteri isə mənimkindən güclü idi və mən onunla qarşı-qarşıya durmaqdan, ona etiraz etməkdən qorxurdum. Onu həqiqətən sevsəydim, özümü kiçildər, onunla sərt davranardım, onu bəzi şeyləri etməyə, ya da etməməyə məcbur edərdim. Bəlkə də bunu istəyirdi, buna ehtiyacı vardı, kim bilir?! Nədən ən sadə həqiqətlər anlanılması ən çətin olanlardır?! Mən o zaman sevginin ən vacib keyfiyyətlərindən birinin güc olduğunu anlasaydım hadisələr həllini başqa cür tapardı. Amma güclü ola bilmək üçün insanın özünü sevməsi lazımdır; özünü sevə bilmək üçün də insan özünü daha dərindən tanımalıdır, özü haqqında hər şeyi, ən gizli, qəbul edilməsi çətin olan şeyləri də bilməlidir. Həyat səni axınıyla irəli itələyərkən bu necə həyata keçə bilərdi ki? Bunları bəri başdan etməyi bacaranlar yalnız qeyri-adi insanlardır. Mənim kimi, anan kimi insanlara yalnız budaqların və plastik şüşələrin taleyinə bənzərlik qalır. Biri, ya da külək – səni arxadan bir çaya itələyərsə hazırlandığın materialdan asılı olaraq həmin an suyun dibinə enməkdənsə, üzərsən; bu sənə bir zəfər görünər, axının səni apardığı yerə doğru üzərsən, arada bir kök düyümü, ya da bir neçə daş üzündən dayanmaq məcburiyyətində qalarsan; orada bir müddət suyun çırpıntısı içində gözləyərsən, su çoxalar, xilas olarsan, yenə irəli gedərsən, su durğunlaşarkən üzünə qalxarsan, çağlayınca batarsan, haraya getdiyini bilməzsən. Əslində bu ana qədər bunu özündən heç zaman soruşmamısan. Sakit vaxtlarında ətrafını, çınqılları, kolları görə bilərsən, detallardan çox formaları, rəngləri seçərsən, sonra zaman keçdikcə kilometrlərlə birlikdə lillər, bəndlər alçalar, çay genişlənər, «hələ hüdudları var, amma

artıq az qalmışdır, haraya gedirəm» -deyə özündən soruşarsan və o anda önündə dəniz görünər.
Həyatımın çox hissəsi beləcə keçdi. Üzməkdən çox çırpındım. İnamsız və süst hərəkətlərlə yalnız özümü suyun üstündə saxlamağı bacardım.
Bunları sənə niyə yazıram? Bu uzun və artıq dərəcədə şəxsi etirafların mənası nədir? Bunu oxuduqda bəlkə sıxılacaqsan, səhifələri bir-birinin ardınca çevirəcəksən. Özündən: «nə söyləmək istəyir, məni haraya aparır» -deyə soruşacaqsan. Doğrudur, mətləbi anladarkən mövzudan mövzuya atılıram, əsas yolla getməkdənsə kiçik cığırlara doğru istiqamətlənirəm. Azdığım təssüratları verməyə çalışıram, bəlkə də bu yalnız bir təəssürat deyil, həqiqətən də azdım. Amma bu sənin axtardığın nöqtəyə çatmaq üçün vacib həyat təcrübəsidi.
Sənə krem bişirmə tərzini öyrətməyimi xatırlayırsanmı? Deyərdim ki, onları havaya atdığın an elə bir üsul düşünməlisən ki, tavaya düz düşsün. Əyri düşəməsinlər, ya da sobaya yapışmasınlar deyə bütün diqqətini tavadakı kremlərə verirdin. Gülməlidir, amma hər şeyin mərkəzinə, tam ürəyinə çatmaq üçün vacib olanı yalnız diqqətin dağılmasıdır. İndisə səsini yüksəldən ürəyim deyil, mədəmdir. Çünki kremdən söz düşərkən, nəhr səfərindən söz açarkən artıq axşam yeməyinin vaxtı çatdı.

29 noyabr

Dünənki ruzgarda bir qurban verdik, bu səhər bağçada hər gün olduğu kimi gəzinərkən onu tapdım. Sanki qoruyucu mələyin səsi ilə evin ətrafında dolanmaq əvəzinə bağçanın dərinliklərinə qədər getdim, orda qədimdən hin vardı, amma indi kübrə anbarı olub. Düz Valterin ailəsiyə bizi ayıran divarın yanından keçərkən yerdə tünd rəngli bir şey gördüm. Qoza ola bilərdi, amma elə deyildi, çünki yavaş-yavaş qımıldanırdı. Eynəksiz çıxmışdım, ancaq tam yanına gəldikdə gördüm ki, bu şikəst edilmiş bir körpə qaratoyuqdu. Onu yaxalamaq üçün az qala ayağımı qıracaqdım. Düz ona yetişirdim ki, irəli tullandı. Əgər gənc olsaydım onu bir dəqiqədə yaxalayardım, amma indisə bunu bacarmıram. Sonda dahiyanə bir fikirlə başımdakı yaylığı çıxarıb üstünə atdım. Buna sarıyıb evə gətirdim və köhnə bir ayaqqabı qutusunun içində yerləşdirdim, altına bez sərib qutudan başını çıxara biləcəyi qədər dəlik açdım.
Mən yazarkən o da masamın üstündə oturub. Hal-hazırda ona yemək üçün bir şey vermədim. Çünki çox narahatdı. Onun təlaşla çırpınması məni də narahat edir, ürkək baxışları məni utandırır. Bu anda bir pəri soyuducu ilə soba arasında gözlərini qamaşdıraraq peyda olsa, bilirsənmi nə istəyərdim? Kral Süleymanın üzüyünü, dünyadakı bütün heyvanlarla danışmağa qadir olan o dilmancı istəyərdim. Onda söyləyərdim ki, qorxma balaca quşcuğaz, bəli mən insanam, amma yaxşılaşdığın an səni azaadlığa buraxacağam. İnsan gənc yaşlarında böyük mövzular üzərində işləyərkən daha təntənəli kəlmələrdən istifadənin vacibliyini düşünür. Yola çıxmamışdan qabaq yastığımın altına qoyduğun məktubla narahatlığını, qayğılarını izah etməyə çalışmışdın. İndi uzaqda olduğuna görə söyləyə bilərəm ki, mən o məktubdan qayğılı olduğundan başqa heç bir şey hiss etmədim. Hər şey elə qarışıq və qaranlıq idi ki! Mən sadə bir insanam, mənsub olduğum dövr səninkindən çox fərqlidir. Bir şey ağdırsa, mən ağ deyərəm, qaradırsa qara. Məsələlərin həlli gündəlik təcrübələrdən doğar, əşyalara real, olduğu kimi baxmaqdan yaranar. Onların necə ola biləcəklərini düşünməkdən deyil! Yad təsirləri, özümüzə aid olmayanları ayırıb atdığımız zaman, deməli, doğru yoldayıq. Dəfələrlə oxuduqlarının sənə kömək etmək əvəzinə səni azdırdığını gördüm. Mürəkkəb balıqları qaçarkən arxalarında qara bir mürəkkəb buraxdıqları kimi bu kitablar da sənin dünyanı qaraltdı.
Səfərə çıxmaq qərarını verməmişdən qabaq mənə bir neçə variant təqdim etmişdin: əgər bir il ölkə xaricinə, ya da bir psixoanalizə getsəm necə olar. Reaksiyam sərt

olmuşdu, xatırlayırsanmı? İstəsən üç il müddətinə uzaqlara da gedə bilərsən, amma bir dəfə də olsa, psixoanalizə getmək yoxdu; pulunu sən versən belə, izn verməræm.
Mənim şişirdilmiş belə bir əks-reaksiyamı gözləmirdin. Əslində sən psixoanaliz deyərkən mənə azacıq pis bir adres verdiyini düşünmüşdün. Mübahisə çıxmadığına görə düşünürəm ki, elə bilirdin ki, bu cür şeyləri anlamaq üçün çox yaşlı, ya da biliksizəm. Halbuki yanılırsan. Mən Firudun adını uşaqkən eşitmişdim. Əmilərimdən biri həkim idi və Vyanada tibb fakültəsini oxuyanda onun nəzəriyyələrinə elə o an heyran olmuşdu. Mövzu onu çox həyəcanlandırırdı və bizə gələndə ana-atamı bu nəzəriyyələrə inandırmağa çalışırdı. Yuxumda spagetti yeyirəmsə bu o deməkdir ki, ölümdən qorxuram düşüncəsinə, «məni heç cür inandıra bilməzsən! -deyə anam belə cavab verirdi –yuxumda spagetti görürəmsə, bunun tək bir yozumu vardır, o da ac olduğumdur!» Əmim yersiz çapalayaraq onun bu inadının da yozumu olduğunu açıqlamağa çalışdı. Spagettilər qurdlardan başqa bir şey deyildi və qurdlar da günün birində hamımızın son aqibəti olacaqdı. Onda anamın nə etdiyini bilirsənmi? Bir anlıq səsizlikdən sonra soprano səsiylə hayqırdı: «yaxşı da makoron görsəm nə olacaq!»
Mənim psixoanalizlə tanışlığım bu uşaqlıq çağının xatirəsiylə bitmir. Anan da bir psixoanaliz tərəfindən, ya da elə olduğunu düşünən birisi tərəfindən təxminən on il müddətində müalicə olundu. Öldüyü zaman hələ də onun yanına gedirdi, buna görə dolayı yolla olsa da münasibətlərinin inkişafını gündən-günə izlədim. Mənə heç bir şeyi söyləmirdi. Bilirsən ki, bu cür mövzuların bir ucu şəxsi sirrə gedər. Bir ay keçmişdi ki, bütün həyatını o görüşə görə tənzimlənməyə başlamışdı, o saatda hər şey o bəylə olub bitənlərin ətrafında fırlanmağa başlamışdı. Sən buna qısqanclıq deyəcəksən. Bəlkə belədir, amma əsl səbəb bu deyildi, məni əsla narahat edən onun yeni bir aslılığa kölə olmasıydı, əvvəl siyasət vardı, indi də o bəy. İliara onu Radovada yaşadığı son ildə tanımışdı və Radovadaykən oraya hər həftə getməyə başlamışdı. Bunu mənə söyləyəndə nə deyəcəyimi bilməmişdim. Ancaq, «yaxşı bir həkim tapmaq üçün ora getməyin vacibdirmi» –deyə soruşmuşdum.
Bir yandan İlarianın davamlı kriz vəziyyətindən qurtarması üçün həkimə müraciət etməsi daxilimdə rahatlıq yaradırdı. İlarianın kimdənsə kömək istəməsi qərarına gəlməsi hətta irəli bir addımdır -deyə düşünürdüm, o biri yandan bu güvəndiyi insan seçimi məsələsində qayğılanırdım. «Onu necə tapdın, yoxsa sənə kimsə təklif etdi» -deyə soruşmuşdum. Amma o, cavab olaraq çiyinlərini qaldırmaqla kifayətlənmişdi. Nəyi anlamağa çalışırsan deyərək mövzunu kəsmişdi.
Trestdə ayrı bir evdə qalsa da vərdiş etdiyimiz kimi həftədə ən azı bir dəfə nahar saatlarında görüşürdük. Müalicəyə başladığından bəri bu görüşlərimiz daha çox süni təsir bağışlayırdı. Kənddə olanlardan, havadan danışırdıq, hava gözəldirsə və kənddə bir əhvalat baş verməyibsə hey susurduq.
Radovaya üçüncü, ya da dördüncü ziyarətdən sonra onda bir dəyişiklik hiss etdim. Əhəmiyyətsiz şeylərlə bağlı söhbətlərimizin yerini onun sualları əvəz edirdi, keçmişə aid hər şeyi, mənimlə, atasıyla, münasibətlərimizlə bağlı bütün məlumatları öyrənmək istəyirdi. Suallarında sevgi, maraq yox idi, sanki bir sual-cavab səhnəsi qurmuşdu, eyni sualı bir neçə dəfə təkrarlayır, kiçik detalların üstündə israr edir, özünün çox yaxşı xatırladığı hadisələrdə də şübhə yaradırdı. Mənə elə gəlirdi ki, qızımla danışmıram. Sanki qarşımda hər nəyin bahasına olursa-olsun günahı etiraf etdirməyə çalışan bir dedektiv vardır. Bir gün səbrim tükəndi, və dedim: açıq danış, məndən nəyi öyrənmək istədiyini söylə. Kinayə ilə baxdı, çəngəli götürürək stakana vurdu və söylədi: «tək bir yerə, ilk dayanacağa. Bilmək istədiyim budur ki, nəyə görə və nə zaman sənlə ərin mənim qanadlarımı kəsdiniz».
Ertəsi həftə telefonda ona ancaq aramızda dialoqa girmək şərtiylə gözlədiyimi söylədm. Qorxurdummu! -Bəli. İlariayla danışılması vacib olan çox şey vardı, amma həssas mövzuları belə bir münasib olmayan zamanda açıqlamaq mənə nə doğru, nə də etibarlı

gəlirdi. Onun oyununa qatılsaydım hər şey üçün yalnız mən günahkar olacaqdım, o da xilas olması qeyri-mümkün sayılan qurban rolunu oynayacaqdır.
Müalicəsiylə bağlı bir müddət sonra yenə də onunla öhbət etdim. Artıq bir həftə olardı ki, həkimlə görüşürdü, çox zəifləmişdi, nitqində indiyə qədər eşitmədiyim uydurmalar, xəyali sözlər vardı, ona atamın qardaşının da psixoanalizlə bağlı əlaqələrini anlatdım və sonra sanki heç bir əhəmiyyəti yoxmuş kimi soruşdum ki, sənin analizçin hansı cərəyandandır? «Heç birindən, -deyə cavab verdi, -daha doğrusu, özünün yaratdığı bir cərəyandan».
O an indiyədək bəsit olan qayğılarım həqiqi və dərin bir məsələyə çevrildi. Doktorun adını öyrənməyə nail oldum və kiçik bir araşdırmayla onun həkim belə olmadığını da öyrəndim. Müalicəsiylə bağlı qurduğum xəyallarım bir anda yerlə-yeksan oldu. Məni şübhələndirən İlarianın getdikcə vəziyyətinin pisləşməsi idi. Düşünürdüm ki, müalicə uğurlu olsaydı onun bu vəziyyəti yaxşılığa doğru dəyişərdi. Halbuki, İlarianın tədricən ətrafında olan-qalan hər şeyə qarşı marağı da itirdi. Uzun illər olardı ki, təhsilini tamamlamışdı, tək-tük dostlarından da uzaqlaşmışdı. Tək fəaliyyəti də bir böcək mütəxəssisinə xas tapıntı ilə daxilindəki hər qımıltını müşahidə etmək idi.
Onun üçün dünya gecə gördüyü yuxuların, mənim, ya da atasının iyirmi il öncə söylədiyi bir sözünün ətrafında fırlanırdı. Onun belə acnacaqlı vəziyyəti qarşısında özümü bütövlükdə gücsüz hiss edirdim.
Ancaq üç il sonra bir ümid qapısı açıldı. Pasxa bayramından sonra ona təklif etdim ki, birlikdə səfərə çıxaq. İlaria məni heyrətə salaraq təklifimi həmin an rədd etmədən bərəlmiş gözlərini üzümə zilləyərək, «haraya gedə bilərik» - deyə soruşmuşdu. «Bilmirəm, sən haraya istəsən, istədiyin hər yerə gedə bilərəm» demişdim.
Həmin gün nahardan sonra səyahət xidmətlərinin açılmasını səbirsizliklə gözləmişdik. Xoşumuza gələn bir yer tapmaq üçün həftələrlə araşdırma apardıq. Axırda Yunanıstana getməyi qərara aldıq. Mayın sonunda Krit və Sontarino adalarına gedəcəkdik. Yola çıxmamışdan qabaq səfər hazırlığı bizi bir-birimizə təsəvvür edilməyəcək dərəcədə yaxınlaşdırdı.
Fikri çamadanlarda idi, əhəmiyyətli bir şeyi unudacağından qorxurdu, onun rahatlığı üçün bir qeyd dəftəri almışdım, «sənə lazım olan şeyləri bura yaz» demişdim, «çantaya yerləşdirdikdən sonra qarşısına bir işarə qoyarsan».
Axşam yatacağım zaman bir səfərin aramızdakı buzları əritmək üçün bir bəhanə olduğunu daha əvvəl ağlıma gətirmədiyim üçün özümə qəzəbim tuturdu. Yola çıxmamışdan əvvəlki cümə günü İlaria metalik bir səslə mənə telefon etdi. Belə düşünürəm ki, küçədəki bir telefon qovşağından telefon açmışdı. «Radovaya getməyin lazımdır-dedi, - ən geci çərşənbə günü dönərəm». Getməyin vacibdirmi - deyə soruşurdum ki, telofonu söndürmüşdü.
Cümə axşamına qədər xəbər çıxmadı. Saat ikidə telefon çaldı, səsi sızıltıya bənzər bir tondaydı, «məyus oldum -dedi, -ama Yunanistan'a getməyəcəyəm». O mənim, mən də onun reaksiyasını gözləyirdim. Bir neçə saniyədən sonra cavab verdim, mən də çox üzüldüm, amma gedəcəyəm. Xəyala getdiyimi görüb üzürlü səbəblər tapmağa çalışdı: «əgər getsəm özümü tərk etmiş olaram» - deyə pıçıldıdı.
Səfərim uzun oldu, maraqlı kitabları izləməyə, mənzərələrlə, arxeologiya ilə maraqlanmağa çalışırdım; ağlımda yalnız ananı, həyatının onu haraya sürüdüyünü düşünürdüm. Düşünürdüm ki, İlaria bostan əkib ilk bitkilərin pöhrələndiyini gördükdə, nəyinsə onlara zərər verəcəyindən qorxan bir əkinçiyə bənzəyir. Buna görə suya ve küləyə davamlı bir neylon örtük alıb üstlərini örtür, sonra tırtıllardan və zərərli böcəklərdən qorunmaları üçün bolluca dərman səpir. Dayanmadan çalışır; gecə-gündüz, bir anı belə yoxdur ki, bostanı necə qoruyacağını düşünməsin. Qəfildən bir səhər neylon örtüyü qaldırdığı an bütün bitkilərin çürüyüb solduqlarını görüb heyrətlənir. Onları öz vəziyyətlərində böyüməyə imkan versəydi bəziləri yenə tələf olardı, amma bəziləri də sağ qalar, yaşayardı. Hətta küləyin və böcəklərin daşıdıqları da yetişərdi.

Bəzisi qıyaqotu olub, yolunar, amma bəziləri də çiçək açar ve rəngləriylə bostanın yeksənəkliyini pozardı. Anlayırsanmı, dünya belədir, həyat cömərdlik tələb edir: İnsanda müəyyən xasiyyətlərin yaranması və bunlar yaranarkən ətrafındakıları dərk etməməsi hələ nəfəs alsa da onu canlı ölüyə bənzədir.
Hətta zehninə belə zor tətbiq edən Ilaria, içində də ürəyinin səsini gömdürmüşdü. Onunla mübahisə düşəcəyindən, hətta bu sözü ağzıma almağa qorxduğumdan məndə qorxu vərdişi yaranmışdı. Bir dəfə yetkinlik çağlarında ona, ürək ruhun mərkəzidir demişdim. Sabahısı gün mətbəx masasının üstündə bir lüğət vardı və ruh sözünün ikinci mənasının altı qırmızı qələmlə çizilmişdı- «meyvəli konserva hazırlamağa yarayan rəngsiz maye».
Bu anlarda ürək bir şeyi xatırlayır. Gənclik illərində də elə tez-tez tələffüz edilə biləcək bir sözdü, halbuki artıq heç kmin istifadə etmədiyi bir termin oldu.
Tək-tük adı xatırlanarsa, o da işlənməsinə olan tələbatdan doğur: o tam gündəlik deyil, artileriya damar problemi olduğu zaman ağla gəlir. Amma artıq ürəyin insan ruhunun mərkəzi olduğu xatırlanmır. Dəfələrlə bu haqqda özümə suallar vermişəm. Avqusto, tez-tez İncildən sitat gətirərək, ürəyinin səsini dinləyən axmaqdır deyərdi. Nədən belə olsun? Ürək bir atəş ocağına bənzədiyi üçünmü. Ora qaranlıq olduğu üçünmü, qaranlıq və atəşin mərkəzi. Zehn nə qədər müasir bir termindirsə, ürək də artıq o qədər dəbdən düşdü. Bu halda düşünülür ki, ürəyinə qulaq verən heyvan dünyasına, təbii, nəzarətsiz dünyaya daha yaxındır, məntiqə qulaq verənlər isə daha yüksək amalların arxasıyla gedirlər. Yaxşı, əgər belə yox, tam tərsi olsaydı?
Yunanistana dönən zaman səhərləri gəminin komanda koprusunun yanında keçirməyə alışmışdım. İçərideki vəziyyəti izləmək, yol göstərənə və haraya getdiyimizi söyləyen o qarışıq cihazlara baxmaq xoşuma gəlirdi. Bir gün havada titrəyən antenalara baxarkən, insanların getdikcə yalnız tək bir dalga ölçüsünə nəzərən tənzimlənən radiolara bənzədiyni düşündüm. Necə ki, yuyucu toz paketlərindən hədiyyə olaraq kiçik radiolar çıxar: üzərində bütün stasiyalar işarə olunsa da düyməni çevirdikcə ya bir, ya iki kanal tapırsan, gerisi vızıldayar o qədər. Zehnin çox istifadəsi də eynı təsiri yaradır deyə düşündüm. Bu hər halda bizi əhatə edən həqiqətin yalnız bir hissəsini yaxalamaq, dərk etməkdir. Və bu hissədə də qarışıqlıq hakimdir, çünki sözlər qaynaşmaqdadır.
Anlayışın sükuta ehtiyacı vardır. Gəncкən bunu bilməzdim, indi şüşə akvariumda fırlanan bir balıq kimi bu boş və səssiz evin içində dolaşarkən bunu dərk edirəm. Bu bir az da kirli yerləri süpürgəylə, ya da ıslaq bezlə təmizləməyə bənzəyir: süpürgədən istifadə edərsən toz uçar və yanındaki əşyalara qonur, halbuki ıslaq bezdən istifadə etsən yerlər par-par parıldayır və təmiz olur. Səssizlik də ıslaq bez kimidir. Tozun yaratdığı donuquğu yox edər. Zehn, sözlərin həbsxanasıdır, bir ritm varsa, bu sözlərin sahmansız ritmidir; halbuki ürək nəfəs alır, orqanlar arasında bir tək o döyünər və o hər döyündükcə yeni-yeni amallar yaranar.
Bəzən dalgınlıqdan, ya da başqa səbəblərdən nahardan sonra televizoru açıq saxlayıram, baxmasam da belə otaqlara girib-çıxarkən səsi arxamca sürünür və axşam yatağa girdiyim an daha artıq əsəbi oluram, yuxuya getməkdə çətinlik çəkirəm. Davamlı gürültü və səs bir cür uyuşdurucudur, insan alışdıqda onsuz yaşaya bilmir.
Çox əvvəllərə qayıtmaq istəmirəm, hələlik bəsdi. Bugün yazdığım səhifələr daha çox tərifə qarışdırılaraq hazırlanmıış bir kökə bənzədi - biraz badam, biraz kəsmik pendiri, üzüm ve rom, pişikdilli biskvit ve krem, şkolat və çiyələk -bildiyin kimi bir zamanlar mənə daddırıb, adlandırıldığını söylədiyin o fəlakət şeyə bənzədi. Qarmaqarışıqmı? -Olabilər. Zənn edirəm bir filosof bunları oxusa, köhnə müəllimlər kimi qırmızı qələmlə her şeyi işarələməkdən özünü güclə saxlayardı və işarə edərdi ki, uyğunluq yoxdu, hərhalda, mövzudan xaricdir , dialektik olaraq da tutarsızdır.
Hələ bir psixoloqun əlinə düşdüyümü düşün! Qızımla münasibətimin uğursuzluğuna görə uzun bir məruzə yazardı. Bəzi şeyləri əngəllədimsə də, indi bunların nə əhəmiyyəti var? Bir qızım vardı və onu itirdim. Avtomobilin içində sıxılaraq öldü: eynı gün ona,

atasının, onun düşüncəsinə görə başına çox dərd açan adamın həqiqi atası olmadığını açıqlamışdım. O gün hələ də gözlərimin önündədir. Bir film seyri kimi, amma davam etmir, divara mıxlanıb qalıb. Səhnələrin bir-birini izləməsini əzbər bilirəm, hər səhnənin sonu yadımdadır. Heç bir şeyi unutmamışam, hər şey yadımdadır, yatarkən və oyanarkən bir nəbz kimi düşüncələrimdə döyünür. Bu nəbz ölümümdən sonra da vuracaq.
Balaca qaratoyuq oyandı, aydın fasilələrlə başını dəlikdən uzadıb cikildəyir. Sanki "acıdım -deyir,- mənə yem vermək üçün nə gözləyirsən?" Qalxıb soyuducunu açdım, ona yarayacaq bir şey tapacağammı deyə baxdım. Bir şey olmadığını gördükdə Walter'i axtarıb, qurdlardan qalıb-qalmadığını soruşdum. Nömrəni yığarkən də düşündüm ki, şanslısan, yumurtadan çıxdın və ilk qanad çalmağınla da ana-atanın üzünü belə unutdun.
30 noyabr

Bu səhər saat doqquza qalmış Walter və arvadı əllərində bir torba qurdla bizə gəldi. Bu ağ qurdları balıq həvəskarı olan bir əmisi uşağından tapmışdı. Onların köməyilə qaratoyuğu qutudan çıxartdım, yumşaq tüklərinin altında balaca ürəyi sürətlə döyünürdü. Bir metal pensetlə qurdları tabaqdan götürüb ona verdim. Önündə nə qədər yellədimsə də heç əhəmiyyət belə  vermədi. Ağzını bir diş çöpü ilə açın, -deyə cənab Walter dilləndi, Amma, şübhəsiz mənim bunu edəcək gücüm yoxdu. Qəfildən gözümün önünə böyütdüyümüz quşlar gəldi, xatırladım ki, dimdiyinin yanından qıdıqlamaq gərəkdir, mən də elə etdim. Həqiqətən də arxada bir yay varmış kimi balaca quş həmin an ağzını açdı. Üç qurd yedi və doydu. Qəhvə cihazını da Razman xanım işə saldı – əlimin biri tutmayandan bəri bunu da etməyi bacarmıram. Oturub ordan-burdan çənə vurduq. Onların köməyi və nəzakəti olmasaydı dolanacağım çox çətin olardı. Bir neçə gün sonra parnikə, soğan və toxum almağa gedəcəkdilər. Məni də dəvət etdilər. Nə bəli dedim, nə də yox, sabah saat doqquzda telefonlaşmaq qərarına gəldik.
O gün mayın səkkizi idi. Səhər bağçada çalışdım, gilas ağacı tumurcuqla doluydi, sırğa kimi çiçəklər açmışdı. Nahar zamanı qəfldən anan peyda oldu. Səssizcə yaxınlaşdı. "Sürpriz!" deyə anidən bağırdı, mən qorxumdan əlimdəki dırmığı yerə saldım. Süni nəşəsiylə üzündəki ifadənin hiç əlaqəsi yox idi. Bənzi sapsarıydı, dodaqlarını büzürdü. Danışarkən əllərini tez-tez üzündən çəkərək, saçlarının içində gəzdirir və tellərini ağzına salırdı.
Son zamanlarda bu artık təbii halı olmuşdu. Onu bu halda görəndə o qədər də qorxmadım, ən azından o biri işlərindən çox qayglanmadım. Sənin harada olduğunu soruşdum. Dostlarından biriylə oynayasan deyə onlara apardığını söylədi. Evə doğru gedərkən cibindən bir dəstə solmuş unutmaməni çiçəyi çıxardı. Bu gün Analar Günüdür- dedi və tərpənmədən eləcə mənə baxdı, bir addım atıb-atmamaqda qərarsız idi. Buna baxmayaraq o addımı mən atdım, yanına getdim, təşəkkür edərək şəfqətlə ona sarıldım. Ona sarıldığım an özünü daha da çox büzmüşdü. Bədəninin, ürəyinin bomboş olduğunu, içində bir mağara kimi soyuq hava yayıldığını hiss edirdim. O anda səni düşündüğümü çox yaxşı xatırlayıram. Özünü bu vəziyyətə sürükləmiş bir anayla, uşağının taleyini düşünürdüm. Zaman keçdikcə vəziyyəti yaxşılığı doğru getməkdənsə pisləşirdi, sənin üçün qaygılanırdım, sənin necə böyüyəcəyini düşünürdüm. Anan çox qısqanc idı və səni bizə mümkün olduqca az gətirirdi. Guya ki səni təsirlərimdən qorumaq istəyirdi. Düşündüyünə görə onu məhv etmişdim , səni də məhv edəcəkdim.
Yemək saatiydi, qucaqlaşdıqdan sonra bəzi şeylər hazırlamaq üçün mətbəxə girdim. Hava sərin idı, süfrənı bağçada bənövşəyi salxımların altında açdıq. Masanın üstünə yaşil, bəyaz naxışlı örtük sərdim, ortaya da bir balaca vazın içində unutmaməni çiçəklərini qoydum. Görürsənmi, qıvraq hafizəmlə hər şeyi inanılmaz nöqtələriylə xatırlayıram. Görəsən, onu canlı olaraq son dəfə gördüyümü hiss edirdimmi? Ya da

faciədən əvvəl birlikdə geçirdiyimiz bu zaman müddətini uzada bildimmi? Kim bilir, kim söyləyə bilər?
Hazır yeməyim olmadığı üçün makaronla bir pomidor sousu hazırladım. O bişərkən Ilariadan burma makaron, yoxsa kəsmə makaron istədiyini soruşdum. Fərqi yoxdur -deyə cavab verdi, mən də suya burma makaronları atdım. Süfrəyə oturanda sənin barəndə bir neçə sual verdim, hamısına suallarımdan yayınaraq cavab verirdi. Başımızın üstündə tez-tez böcəklər uçuşurdu. Yarpaqların içində dolaşırdılar, vızıltıları söhbətimizi pozurdu. Birdən qapqara bir şey ananın tabağına qurşun kimi endi. "Eşşək arısıdır, öldür, öldür onu» -deyə cığallıqla oturacağı, hər şeyi aşırdı. Yerimdən qalxdım və eşşək arısı deyil, zərərsiz bir cır arıdı –deyə onu sakitləşdirdim. Arını süfrədən uzaqlaşdırdıqdan sonra qabına yenidən makaron qoydum. Qayğıyla yerinə oturdu, çəngəli aldı, bir əlindən o birisinə keçirərək oynatdı, sonra dirsəklərini süfrəyə dayayıb, «pula ehtiyacım var»-dedi.
Pul məsələsi uzun zaman idi ki, gündəmdəydi. Hələ geçən il, Noel'dən qabaq İlaria, psixoanalistin adından bəzi sənədlərə imzala atdığını söyləmişdi. Bu barədə məlumat öyrənmək istədiyim zaman həmişəki kimi mövzudan yayınmışdı. "Garanti üçün, -demişdi, -bəsit və formal bir şeydi". Bu, onun ən qorxulu davranışıydı, mənə bir şey söyləyəcəyi zaman yarısını söyləyərdi. Bu şəkildə sıxıntısını mənə keçirər, sonra da mənə aydın olacaq məlumatı verməzdi. Bütün bunda incə bir sadizm vardı. Sadizmin də o tərəfində hər zaman hər hansi bir qaygının tam mərkəzində olma ehtiyacıydı bu. Çox zaman da bu qayğılar aldadıcı olurdu.
Məsələn belə deyirdi ki, yumurtalıqlarımda şiş var. Qısa, amma uzun sürən üzücü danışıqlardan sonra öyrənirdim ki, yalnız bir testdən keçməyə getmişdi; bütün qadınların gedə biləcəyi bir test. Anlayırsanmı? İş bir az yalancı çoban məsəlinə dönmüşdü. Son ıllərdə o qədər çox ya yalan söyləmişdi ki, artıq ona inanmağı tərgitmişdim, ya da bir qisminə inanırdım. Bu üzdən də bir qucaq sənədə imza atdığını söylədiyi zaman da ona nə qulaq asmış, nə də sonrasını soruşmuşdum. Bu oyundan artıq yorulmuşdum. Israr da etsəm, öncədən də öyrənsəm də yenə hədər idı, çünkü o sənədləri məndən bir şey soruşmadan çox əvvəllər imzalamışdı.
Əsas gurultu şənbə günü, axşamüstü baş verdi. Ancaq o zaman öyrəndim ki, Ilaria o kağızlara imza atmaqla doktorunun işlərinə üç yüz milyonla zamin durmuşdu. İki ay ərzində zaminliyi üçün imza atdığı şirkət iflas olmuş, təxminən iki milyardlıq borcu qalmışdı və banklar da pulu geri istəyirdı. Elə o zaman anan ağlayıb-sızlayaraq yanıma gəldi, nə edəcəyini soruşdu. Güvəndiyi tək şey səninlə yaşadığı ev idi, indi banklar onu istəyirdi. Nə qədər qəzəbləndiyimi təsəvvür edə bilərsən. Anan otuz yaşını adlamışdı, özünü dolandırmaqda da aciz idi, əlindəki tək malı - doğulduqda sənin adına geçirdiğim evin taleyini də təhlükə altına qoymuşdu. Çox hirslənmişdim, amma bunu ona bəlli etmədim. Çətin vəziyyətə düşdüyü üçün yaxşı bir vəkil axtardım. Özüm də dedektivliyə başlayıb banklara qarşı davanı qazanmaq üçün işə yarayacaq bütün məlumatları topladım. Beləcə öğrəndim ki, uzun illərdir həmin adam İlariaya qüvvətli dərmanlar içirirmiş. Müalicə kursları arasında kefi olmadığı zamanlar ona viski verirmiş. Ona ən bacarıqlı şagirdi olduğunu, yaxında özünün də bir xəstəxana açıb xəstələri müalicə edə biləcəyini söyləyirmiş. İndi bunları xatırlamaq belə məni ürpədir. Heç düşünə bilərsənmi ki, Ilaria o küsəgənliyiylə o dağınıq ağlıyla, əksiklikləriylə insanları müalicə edə bilər. O hadisə olmasaydı, bu bəlkə də reallaşacaqdı. Mənə heç bir şey söyləmədən o da o saxtakarın sənətinə uyacaqdı.
Əslində mənə bu planından heç söz açmadı. Ondan nəyə görə ədəbiyyat fakültəsindən aldığı diplomundan istifadə etmədiyini soruşduğum zaman kinayəli bir tərzdə cavab verirdi, "görəcəksən ki, yararlanacağam."
Hər şeyi xatırladıqca insana əzab verəsi çox şey çıxır, bunları sənə anlatmağın özü də daha böyük bir əzabdır. Bir göz qırpımında keçən aylada onun haqqında bir şey anlamışdım; o vaxta qədər ağlıma gəlməyən və sənə söyləməyimlə yaxşımı, pismi

edəcəyimi düşündüyüm bir şey; sonda səndən gizlətməmək qərarına gəldim. Budur, görürsən ki, bütün çuvalı sənə boşaldıram. Bir anda bunu anlamışdım ki, anan heç də ağıllı deyildi. İnsanın öz balası tərəfindən yarımaması, həm də o saxta savadıyla, bütün dialektliyi ilə suları bulandırmağı çox yaxşı bacarmasını anlamaq insana çox çətin gəlir. Bunu vaxtında anlasaydım onu daha çox qoruyar, daha şüurlu şəkildə sevərdim. Onu bəlkə də bu yolla xilas edə bilərdim. Ən əhəmiyyətlisi də bu idi və mən bunu artıq heç bir çarə qalmadığı zaman anladım. Vəziyyətin qarışıqlığını gözlə görəndə əlimizdən gələn tək çıxış yolu, onu anlama qabiliyyətindən məhrum elan edib məhkəməyə vermək idı. Vəkillə bu qərara gəldiyimizi ona bildirdiyimiz gün anan ağıl xəstələrinə xas tərzdə ağlamağa başladı. «Bunu xüsusi məqsədlə edirsiz, bütün məqsədin uşuğı əlimdən almaqdır» - deyə bağırdı. Düşünürdü ki, belə bir məhkəmə qərarıyla peşəsi də həyatının sonuna qədər əlindən alına bilərdi. O, sanki bir uçurumun kənarınyla gözləri bağlı halda yeriyirdi və hələ də bunun kiçik bir səyahət olduğunu düşünürdü. O, krizdən sonra vəkili azad edib bu işdən vaz keçməyimi xahiş etdi. Özü başqa bir vəkillə danışdı və unutmaməni dəstəsi ilə gəldiyi günə qədər bir dəfə də olsa ortalıqlarda görünmədi.
O gün, dirsəklərini süfrəyə dayayıb məndən pul istədiyi vaxt mənim vəziyyətimi anlayırsanmı? Bilirəm, bəlkə də indi söylədiklərimdə bir mərhəmətsizlik hiss edirsən və düşünürsən ki, anan mənə nifrət etməkdə haqlı idi. Amma sənə əvvəllər nə söylədiyimi xatırla, anan mənim qızımdı, mənim itkim səninkindən daha böyükdü. Sən onun bu dünyanı tərk etməsi məsələsində məsumsan, mənsə o qədər də yox. Arada-bir ondan qəzəblə söz açanda dərdimin nə qədər böyük olduğunu düşün. Amma elə bu qəzəbin sayəsində ondan söz aça bilirəm.
Mənə borclarının ödəməyin vacibliyini söylədiyi zaman həyatımda ilk dəfə «yox,- dedim, -qəti olaraq yox, mən İsveçrə bankı deyiləm. Məndə o qədər pul yoxdur. Olsa da sənə verməzdim. Bütün bu problemlərin səbəbkarı özünsən. Olan-olmaz bir evim vardı, sənədlərini adına keçirdim, onu da əldən verdinsə, daha məni heç nə maraqlandırmır”. O zaman ağlayıb-sızıldamağa başladı. Bir cümləni yarımçıq qoyub başqasına keçirdi. Düşündükləriylə danışığı bir-birinə uyğun gəlmirdi, onu anlaya bilmirdim, heç bir məntiq yox idi.
«Bir təzminat gərəkdi, anlayırsanmı, anlayırsanmı» - deyə bağıranda gözlərində qorxunc bir parıltı vardı. O zaman heç bilmirəm necə partladım. Məzara qədər heç kimsəyə açmayacağıma söz verdiyim sirr dodaqlarımdan qaçdı. Söylədiyim an peşiman olmuşdum, dodaqlarımdan içəri çəkmək, bu sözləri yenidən udmaq üçün əlimdən gələni edərdim, amma çox gec idi. «Ata dediyin insan sənin əsil atan deyildi» cümləsi artıq çoxdan qulaqlarına çatmışdı. Üzü qorxunc bir hal aldı. Yavaş-yavaş ayağa qalxarkən gözlərini mənə dikmişdi. «Nə dedin?» –deyə soruşduqda səsi zorlə eşidilirdi. Mən qəribə bir tərzdə sakitləşmişdim, «Eşitdiyini, - deyə cavab verdim, - atanın mənim ərim olmadığını söylədim».
İlaria necə reaksiya göstərdi? – Təbii ki, çıxıb getməklə. İnsandan çox robotu andıran hərəkətlərlə döndü və bağça qapısına tərəf getdi. «Gözlə! Söhbət edək!»- deyə qışqırdım.
Niyə ayağa qalxmadım, niyə arxasınca qaçmadım, niyə onu saxlamaq üçün heç bir şeyə əl atmadm! Çünki mən də daş kimi durduğum yerdə qalmışdım. Bu zamana qədər saxladığım sirr qəfldən ağzımdan çıxmışdı. Bir saniyədə, az bir müddətdə qəfəsin qapısını açıq görən bir sarı bülbül kimi uçub getmiş və istəmədiyim bir insanın başına qonmuşdu.
Həmin gün nahardan sonra saat altıda hələ də rahatsız bir şəkildə bağı sulayarkən bir polis məmuru gəlib qəza baş verdiyini xəbər verdi.
İndi bir az fasilə vermək məcburiyyətindəyəm.

Buska və quşa yem verdim, öz qarnımı doydurdum. Bir az televizor seyr etdim. Mənim dəlik-deşik zırhım güclü həyəcanlara uzun zaman davam gətirmir. Yaza bilmək üçün bir az nəfəs alıb dincəldim.
Bildiyin kimi anan o an ölmədi, o gün ölümlə həyat arasında çırpındı. Həmin günlərdə yanındaydım. Bir an da olsa gözlərini açmasını, ondan üzr diləməyimə son dəfə fürsət verməsini ümid etdim. Cihazlarla dolu darısqal bir otaqdaydiq, kiçik bir monitor qəlbinin hələ döyüldüyünü göstərirdi. Onunla baxan həkim bu vəziyyətdəki xəstələrin bəzən sevdikləri səsləri eşitməsinin işə yaradığını söyləmişdi. Buna görə də mən çox sevdiyi nəğməni tapıb gətirmişdim. Asta bir tempdə saatlarla bunu ona dinlədirdim. Məncə bir şey hiss etməliydi, çünki ilk notlarda üzünün ifadəsi dəyişdi, dodaqları körpələrə xas bir tərzdə tərpənməyə başladı. Sanki bir məmnuniyyət gülümsəməsi idi. Kim bilir, bəlkə beyninin çalışan o kiçik hissəsində xoşbəxt anların xatirələri saxlanırdı və indi ora sığınırdı. Belə anlarda insan ağlına gəlməyən yerlərdən də bir çarə axtarır, «can, bacarmalısan, bizi qarşıda gözəl bir həyat gözləyir, hər şeyə yenidən başlayacağıq» - deyə təkrarlayırdım. Onunla danışarkən gözümün önünə bir səhnə gəlirdi: dörd, ya da beş yaşındaydı. Bağçada ən çox sevdiyi gəlinciyinin əlindən tutaraq dolaşır, ona hey nəsə danışırdı. Mən mətbəxdəydim, səsini eşitmirdim. Arada-bir qulağıma gülüş səsləri gəlirdi, güclü, nəşəli bir gülüş. Deyərdim ki, bir dəfə xoşbəxt olubsa da yenə o zaman ola bilərdi.
Qəzadan sonra həkimlərin mənə ilk söylədikləri o oldu ki, yaşasa da əvvəlki vəziyyətdə olmayacaqdı, iflic qala bilərdi, ya da bir tərəfinin hissiyatı olmayacaqdı. Mən analıq təkəbbürümlə yalnız yaşamasını düşünürdüm, vəssalam. Nə vəziyyətdə olursa-olsun əhəmiyyəti yoxdu. Hətta onu təkərli oturacaqlarda gəzdirmək günahımın bağışlanması üçün ən yaxşı yol idi. Mənim sevgim həqiqi sevgi olsaydı və həqiqətən də bu sevgi çox böyük olsaydı onun ölümü üçün dua edərdim. Amma sonda başqasının onu məndən daha çox sevdiyi bəlli oldu; doqquzuncu gün üzündəki gülüş silindi və öldü. Bunu o andaca hiss etdim, yanındaydım, tibb bacısını çağırmadım, çünki bir az da onunla qalmaq istəyirdim. Üzünü oxşadım, əllərini eynən uşaqkən etdiyim kimi əllərimin arasına aldım. Ara vermədən can, can deyərək əlini buraxmadan yatağının yanında diz çökdüm və dua etməyə başladım. Dua edərkən ağladım.
Tibb bacısı çiynimə toxunanda hələ ağlayırdım. «Gəl, gedək, -dedi, -sizə sakitləşdirici bir şey verim». Dərman istəmədim, heç bir şeyin əzabımı soyutmasını istəmirdim. Onu morqa apardıqları ana qədər orada qaldım. Sonra bir taksiyə minib səni əmanət etdiyi dostunun yanına getdim. Artıq o axşam evimə köçmüşdün. Axşam yeməyi zamanı ananın harada olduğunu soruşdun. Onda  mən sənə «anan səfərə çıxdı, - dedim, - çox uzun bir səfərdir, göy üzünə qədər getdi». Sarışın başını əyib səssizcə yemək yeməyə davam etdin. Bitirər-bitirməz: nənə, onu salamlayaqmı - deyə soruşdun. «Əlbəttə, noğulum» -deyə səni qucağıma alıb bağçaya çıxdım. Uzun müddət otların üstündə dayandıq, sən kiçik əlini ulduzlara doğru yellədin.

1 dekabr

Bu günlərdə heç kefim yoxdu. İnsan orqanizmi belədir, daxili tarazılıqlar var, ən kiçik şey bunları pozmağa yetər. Dünən səhər Razman xanım bazarlıq edib gələrkən üzümü saralmış gördü və bunun səbəbkarı kimi də ayı göstərdi. Həqiqətən də əvvəlki gecə bütöv ay vardı. Ay dənizləri yerindən oynada bilirsə, bostandakı köklü bitkiləri daha tez böyüdürsə nədən bizim təbiətimizə də təsir etməsin ki? Biz də sudan, qazdan, minerallardan və daha nələrdən yaranmadıqmı?! Qonşum gedəndə oxunmuş qəzetlərlə dolu bir torba saxladı, beləcə günümü onların səhifələri arasında keçirdim. Hər dəfə belə olur. Qəzetləri görəndə qarışdırır, onların arasında yarım saat vaxt keçrirəm. Halbuki, əvvəllər son cümlələri oxuyanadək əlimdən qoymazdım. Monoko şahzadəsinin bədbəxt

həyatına kədərlənirəm, bacısının proletar eşqinə hirslənirəm, mənə qeyri-adi görünən hər cür kədərli xəbərə ürəyim sızıldayır. Hələ məktubları demirəm! İnsanların yazmağa cəsarət etdikləri bəzi şeylərə təəcüblənməkdən özümü güclə saxlayıram. Yaşlı bir sofi deyiləm, ən azından elə olmadığımı sanıram, amma yenə də azadlığın bu ifrat dərəcələrinin məni heyrətə gətirmədiyini söyləyə bilmərəm.
Bu gün hava olduqca soyuqdu. Bağçada gəzintiyə çıxmadım, havanın çox soyuq olduğunu və yerlərin don tuta biləcəyini düşünərək quru bir budaq kimi düşüb qırılmamaq üçün evdə qaldım. Əcəba, məni hələ oxuyursanmı, məni daha yaxşı tanıdıqca içində artıq oxumağa davam etməyəcək bir duyğu doğdumu? Bu aralar məni istiqamətləndirən tələsmə təlaşı üzündən sözlərin daha uyğununu seçməyə, dolayı yollarla anlatmağa və buna çatası səbrim yoxdu. Sənə söylədim, sənin heç nəyə söykənməyən o başıboşluq, itirmişlik duyğusunu mən də yaşayırdım. Mənim vəziyyətim bəlkə daha da çətindi. Bilirəm səndə bu çatışmamazlığın səbəbi atanın kim olduğunu əsla öyrənmədiyindən qaynaqlanır. Mənə ananın haraya getdiyini söyləmək təbi gələrkən atan haqqında suallara heç zaman cavab verə bilmədim. Bir yay İlaria Türkiyədə təkbaşına uzun sürən bir tətilə getmişdi, o tətildən müəmmalı bir halda döndü. Otuz yaşını keçmişdi və bu yaşda qadınlar bir uşaq sahibi olmasalar qəribə bir duyğuya qapılıb nəyin bahasına olursa-olsun bir uşaq istəyər. Bunun nə formada və kimdən olduğunun heç əhəmiyyəti yoxdur.
Qaldı ki, o dövrdə bütün qadınlar feminist idi, anan da bir qrup qadınla bir klub yaratmışdı. Söylədiklərində mənim də şərik olduğum doğru fikirlərlər vardı, amma bunların arasında zorakılıqlar, qeyri-sağlam, əyri düşüncələr də az deyildi. Bunlardan bir də qadınların bədənlərinin tam və tək sahibi olduqları fikriydı. Guya bir uşaq yetişdirmək qərarı yalnız onlara aid ola bilərdi. Kişi bioloci bir ehtirasdan başqa bir şey deyildi və bəsit bir ehtiyac zamanı istifadə olunurdu. Bu şəkildə davranan təkcə anan deyildi. İki-üç rəfiqəsi də eyni şəkildə uşaq sahibi olmuşdu. O qədər də anlaşılmaz bir şey deyil, bilirsənmi? İnsanda bir həyat yaratmaq arzusu hər şeyə qarşı güclü olma duyğusu oyandırır. Ölümü, qaranlığı, inamsızlığı uzaqlaşdırır, dünyaya özündən bir parça gətirirsən və bu möcüzə qarşısında hər şey gücsüzdür.
Bu iddianı gücləndirmək üçün anan və dostları heyvanlar dünyasından misallar çəkirdi: «dişilər, -deyirdilər -erkəkləri ilə yalnız ciftləşmə dövründə qovuşur, sonra hər kəs öz yolunu gedər və körpələr analarıyla qalırlar». Bunun doğru, ya da səhv bir anlayış olduğunu söyləmək iqtidarında deyiləm. Amma bilirəm ki, biz insanıq. Hər birimiz fərqli bir üzlə dünyaya gəlirik və bu üzü ömür boyu daşıyırıq. Bir antilop antilop surətiylə doğular, aslan aslan sifətiylə, hər növlərin üzvləri eyni sifətə sahibdir. Təbii görüntü eynidir, halbuki, üz insana xasdır, başqa heç kimə deyil. Üzün, simanın nə olduğunu anlayrsanmı? Hər şey üzdədir. Sənin həyatın, anan, atan, babaların, hətta ulu babalarının əlamətləri sənin çöhrəndə əks olunub. Üzdə insana xas, ata-babalardan aldığın yaxşı, ya da yaxşı sayılmayan şeylər var. Üz bizim hər şeydən əvvəl şəxsiyyətimizin ölçüsüdür. Beləcə on üç, on dörd yaşlarını doğru sən saatlarla vaxtını ayna qarşısında keçirməyə başlayanda nə axtardığını anlamışdım. Bəzi sızınaqlara, qara nöqtələrə, ya da birdən-birə böyüyən burnuna baxırdın, amma başqa şeylər də axtarırdın. Ananın ailəsindən aldığın cizgiləri sayaraq, almadıqlarını müəyyənləşdirərkən dünyaya gəlməyinə səbəb olan adamın siması haqqında bir düşüncə əldə etməyə çalışırdın. Anan və dostlarının baş sındımadığı bir şey də vardı: günlərin birində uşaq aynada özünü nəzərdən keçirəndə özündə başqa birinin də sığındığını anlayar və bu başqası haqqında hər şeyi bilmək istəyər. Bir ömür boyunca anaların, ya da ataların üz cizgilərinin izini davam etdirən insanlar vardır.
İlaria həyatın təkamülü mərhələsində irsiyyətin əhəmiyyətsiz olduğuna inanmışdı. Ona görə əhəmiyyətli olanlar təhsil, ətraf mühit və içində böyüdüyü şəraitdi. Mən onun bu inamına şərik olmurdum, mənə görə bu ikisi qoşa gedərdi: yarı ətraf, yarı doğulduqdan bəri daxilimdə daşıdığımız keyfiyyətlər.

Sən məktəbə gedəndən bu mövzuda heç bir çətinliyim olmadı. Atan haqqında heç nə soruşmurdun, mən də mövzunu açmamağa səy göstərirdim. İbtidai sinifə gedər-getməz sinif yoldaşlarının və müəllimlərinin verdiyi kompozisiya mövzuları üzündən qəfldən gündəlik həyatında bəzi şeylərin nöqsan olduğunu hiss etdin. Sinifdə təbii olaraq ata-anası ayrı, qalmaqallı vəziyyətdə yaşayan çox uşaq vardı, amma heç kim sənin qədər ata mövzusunda hiss etdiyin boşluğu hiss etməmişdi. Sənə altı-yeddi yaşındaykən ananın həyatını necə anlada bilərdim ki? Əslində mən də sənin Türkiyədə ana bətninə düşdüyündən başqa nə bilirdim ki? Buna görə sənə atanın ölkəsindən başlayan bir hekayə uydurdum. Şərq nağıllarına bənzəyən bir kitab almışdım və sənə hər axşam bir nağıl oxuyurdum. Bunlara istinad edərək sənə uyğun olan birini də mən uydurmuşdum, xatırlayırsanmı? Anan bir prinsesdi, atan da Hilal ölkəsinin şahzadəsiydi. Bütün şahzadələr kimi bir-birini dəlicəsinə sevirdilər. Amma sarayda bu sevgiyə görə onlara qısqanırdılar. Ən çox qısqanan da güclü və pis niyyətli bir adam - Böyük vəzir idi. O şahzadəyə və bətnindəki körpəyə tilsim etmişdi. Allaha şükr ki, şahzadə ona sadiq bir xidmətçi tərəfindən xəbərdarlıq edilmiş, beləcə anan bir gecə kəndli paltarları geyərək saraydan qaçmış, buraya sığınmışdı. Sən bu kənddə doğulmuşdun.
Mən bir şahzadəmi qızıyam?- deyə işıldayan gözlərinlə soruşdun. Əlbəttə,- deyərdim,- amma bu çox gizli bir sirrdi, heç kimə söyləməməlisən. Görəsən, bu qəribə yalanlardan nəsə umurdum? Heç nə. Yalnız bir neçə ili də rahatlıqla keçirmək istəyirdim. Bilirdim ki, bir gün bu uydurmalara inanmayacaqsan. Həm də o gün mənə nifrət edəcəyini də bilirdim. Amma indisə sənə bunu söyləyə bilməyəcəyəm. Bütün cəsarətimi toplasam da sənə heç zaman deyə bilməzdim ki, atan kimdir. Bəlkə anan belə bunu bilmirdi.
O illər insanlar çox azad idi. Ananın yanında onlarca gənc gördüm, heç birinin də bir aydan çox qaldığını xatırlamıram.Belə həyat tərzi İlariayı hamıdan çox məhv etmişdi. Mən ona heç nəyi yasaqlamadım, əsla araşdırmadımsa da bu ənənələrin qəfil azadlığı məni rahatsız edirdi. Məni daha çox təsirləndirən bu qarışıqlıq deyil, duyğularındakı sonsuz yoxsullaşma idı. Yasaqların qalxdığı andan, yoldaşlıq unudulandan bəri hər şey də unudulmuşdu. İlaria və yoldaşlarını bir dəvətə məcbur olaraq gələn və onlara verilən hər şeyi nəzakət xatirinə yeyən qonaqlara bənzədirdim: köklərin, qızartmaların, meyvəli tortların dadı onlara görə elə eyni idi.
Ananın seçimində ənənələrdəki yeni azadlıq qavramı rol oynamışdı, amma bundan başqa bəzi şeylər də vardı. Zehnin fəaliyyəti haqqında nə qədər məlumata malikik? Çox, amma hər şeyi bilmirik. Ananın bəlkə də qarşısında ata deyə gördüyü adamın atası olmadığını hiss etmədiyini kim söyləyə bilər. Daha çox rahatsızlığının, tarazılığının pozulmasının səbəbi buydurmu? Kiçik yaşlarında və gənclik illərində bu sualı heç özümə vermədim, onun üçün qurduğum saxta dünya möhkəm idi. Amma o səfərdən üç aylıq boylu dönərkən hər şey zehnimə daraşdı. Saxtalıqdan, yalandan qaçmaq olmur. Ya da bir müddət qaçmaq olar, amma ən gözlənilməz anda suyun üzünə çıxır. Üstəlik bu yalanlar söyləndikləri zaman sahib olduqları üzüyola məsum təbiətdən çıxır; pərdə arxasında gizlənən qorxunc canavarlara, hər şeyi udan qatil balinalara çevrilir. Bunu hiss edirsən və bir an sonra səni əhatə edir, udur, çevrəndə olub-olmayan nə varsa dəhşətli bir acgözlüklə silib süpürür. Bir gün on yaşındaykən məktəbdən ağlayaraq qayıtdı. Mənə «yalançı» deyib otağına çəkildi. Nağılın uydurma olduğunu anlamışdı. «Yalançı!». Bu mənim yaşadığım yalanın adı ola bilərdi. Doğulduğum gündən bəri bir yalan söylədim. Bununla üç həyatı məhv etdim.

Körpə quş hələ də qarşımda, masanın üstündədir. Əvvəlki günlərə nisbətən iştahası azalıb. Əvvəlki kimi 4 dekabr
aramsız olaraq məni səsləmir, tərpənmədən oturur, artıq başını da qutunun dəliyindən uzatmır, təpəsindən yeni-yeni tüklər çıxır. Bu səhər soyuqa baxmayaraq Razman ailəsi ilə parnikə getdim. Son ana qədər bir qərara gələ bilmirdim, hava bir ayın cəcarətini

qıracaq qədər soyuq idi, üstəlik ürəyimin qaranlıq bir küncündən bir səs: «yeni çiçək əkmək sənin nəyinə gərək?» deyirdi. Ama Razmangilə gəlməyəcəyimi söyləmək üçün telefonu yığarkən bağçanın nə qədər solğun olduğunu gördüm, və bu eqoistliyimdən peşiman oldum. Mən, bəlkə də başqa bir bahar görə bilməyəcəyəm, amma sənin görəcəyin sözsüzdür.

Bu günlərdə nə qədər sıxılıram! Yazmayanda otaqlarda dolaşıram, amma heç bir yerdə qərar tuta bilmirəm. Zehnimi bir an üçün o hüzünlü anlardan uzuqlaşdırmağa yarayan bir iş də yoxdu. Mənə elə gəlir ki, hafizənin işləməsi dondurucunun şərtlərinə bənzəyir. İçərisində uzun müddət saxladığın bir şeyi çıxaranda necə olur, bilirsən. Başlanğıcda kərpic kimi sərtdir; iyi, dadı yoxdur, səthi bəyaz bir pərdəylə örtülüb; onu oda qoyar-qoymaz yavaş-yavaş formasına, rənginə qayıdır, iyi mətbəxi bürüyər. Bunun kimi kədərli anlar da uzun müddət hafizənin saysız qaranlıq mağaralarının birində mürgüləyər, orda illərlə, on illərlə, bir ömür boyunca qalar. Burda günlərin bir günü onlara yoldaşlıq etmiş əzab, yenidən, illər öncə olduğu kimi davamlı və yaxıb-yandıran formada ortaya çıxar. Sənə özümdən və sirrimdən söz açırdım. Amma bir hekayəni anlatmaq üçün başdan başlamaq lazımdır və bunun əvvəli də mənim gəncliyimdə və böyüyərkən həyatımın yol-yoldaşı olan tənhalığımda qorunur. Mənim dövrümdə zəka evlilik üçün son dərəcə əhəmiyyətsiz bir cehiz sayılırdı; dövrün ənənələrinə görə bir xanım evdar qadın olmalıydı, sual verən, maraqlanan qadının bir həyat yoldaşı olmasını hər adam istəmirdi. Buna görə gənclik dövründə çox tənha idim. On səkkis, iyirmi yaşlarıma doğru suyu şirin və imkanlı olduğumuz üçün ətrafımda çox insan peyda olurdu. Danışmağı bacardığımı göstərər-göstərməz, içimdəkiləri tökər-tökməz ətrafımda bir boşluq yaranırdı. Əlbəttə, susub olduğum kimi görünə bilərdim, amma təəssüf ki, - ya da yaxşı ki- aldığım təhsilə baxmayaraq bir hissəm hələ də canlı qalmışdı və o hissəm saxta bir görünüşü rədd edirdi. Litseyi bitirdikdən sonra bildiyin kimi təhsilimi davam etdirə bilmədim. Çünki atam bunu istəmədi. Mənə görə bu çox ağır bir qərardı. Elə bu üzdən öyrənməyə həvəsim daha da artdı. Cavanlardan biri tibbi oxuduğunu söylər-söyləməz onu sual yağışına tutur, hər şeyi öyrənmək istəyirdim. Eyni şeyi gələcəyin mühəndislərinə, vəkillərə də edirdim. Mənim bu davranışım haqqında pis də düşünürdülər, sanki məni insanlardan çox işləri, təhsilləri maraqlandırır. Əslində bəlkə də eləydi. Rəfiqələrimlə, məktəb yoldaşlarımla söhbət edərkən onlardan bir neçə addım geridə olduğumu hiss edirdim. Məni onlardan ayıran cəhət qadınlıq cilvələriydi. Mən bundan nə qədər xəbərsizəmsə, onlar da buna yiyələndiklərinə görə məmnun idilər. Görünüşlərindəki qürurun, özünə inamın arxasında kişilər inanılmaz dərəcədə inciyən və safdırlar; daxillərindəki linglər son dərəcə ibtidaidir, onları balıq kimi tavaya salmaq üçün tək bir düyməni basmaq kifayətdir. Mən bunu olduqca gec anladım, amma rəfiqələrim  artıq on beş, on altı yaşlarında bunu bilirdilər.

Son dərəcə təbii bir bacarıqla kiçik məktublar alır, ya da rədd edirdilər. Görüş təyin edib getmir, ya da çox gec gedirdilər. Rəqs edərkən kişilərin gözlərinin içinə gənclərə xas heyranlıqla mənalı ifadəylə baxırdılar. Qadınlıq cilvəsi budur, erkəklər mövzusunda uğurla həyata keçirilən hiylələr bunlardır. Amma mən heç kartofdan da seçilmirdim. Ətrafımda olanlardan heç nə anlamırdım, sənə qəribə görünə bilər, amma daxilimdə dərin bir dürüstlük duyğusu vardı və bu dürüstlük heç vaxt və heç zaman bir erkəyi aldatmayacağımı söyləyirdi. Günlərin birində səhərə qədər yorulmadan çənə vura biləcəyim bir gənclə görüşəcəyimi düşünürdüm; onunla danışarkən hər şeyi eyni gözlə gördüyümüzü anlayacaq, eyni həyəcanları keçirəcəkdik. Bu zaman eşq doğacaq idi, bu, yalana deyil, dostluq və inama söykənən bir eşq olacaqdı.

İstədiyim eşq dolu bir dostluq idi. Buna görə bir mərdanə düşünmə tərzim vardı. Düşünürəm ki, ətrafımdakı kişilərin gözünü qorxudan bərabərliyə əsaslanan bir münasibət axtarmağım idi. Beləcə yavaş-yavaş çirkinlərin alın yazısı olan o gözləmə mərhələsinə gəldim. Ətrafım rəfiqələrimlə doluydu, amma bu tək yönlü bir dostluqdu. Mənə öz problemlərini danışırdılar. Rəfiqələrim bir-birinin ardınca evlənirdilər. Mənə elə

gəlir ki, həyatımın bu dövründə düyünlərə getməkdən başqa bir şey etmədim. Yaşıdlarımın uşaqları dünyaya gəlirdi, mənsə hələ evdə qalmış xalalarıydım, anamgildə sonsuza qədər subay qalmağa razı olmuş vəziyyətdə oturmuşdum. «Ağlında nələr düşündüyünü anlamıram?- anam deyərdi, -nə onu bəyənirsən, nə də başqasını!» Onlara görə qarşı cinslə qarşılaşdığım çətinliklər mənim özümdən, qəribəliyimdən irəli gəlirdi. Üzülürdümmü? Bilmirəm…
Həqiqətən içimdə yanıb tutuşan bir ailə qurmaq arzusu yox idi. Dünyaya bir övlad gətirmək düşüncəsi məni qorxudurdu. Uşaqkən çox üzümüşdüm, başqa bir məsum varlığa əzab verməkdən qorxurdum. Həm də bu evdə yaşasam da son dərəcə müstəqil idim və günün bütün saatlarında azad idim. Bir az pul qazanmaq üçün qədim yunan və latın dillərindən xüsusi dərs verirdim. Bunlar məktəbdə ən çox sevdiyim dərslər idi. Nahardan sonrakı zamanımı heç kimə hesab vermədən bələdiyyənin kitabxanasında keçirir, istədikcə dağa- gəzintiyə gedirdim.
Həyatım başqa qadınlara görə çox müstəqil idi və bu müstəqilliyi itirməkdən qorxurdum. Amma buna baxmayaraq zaman keçdikcə bu müstəqilliyimin daha saxta və məcburi olduğunu hiss edirdim. Əvvəllər məndə olan tənhalıq canımı sıxmağa başlamışdı. Anamla atam yaşlanırdı, atam iflic olmuşdu, güclə yeriyirdi. Hər gün qoluna girərək onunla qəzet almağa gedirdim, o zamanlar iyirmi yeddi, iyirmi səkkiz yaşlarında olardım. Bir gün yeriyərkən vitrinlərdə əksimi gördüm. Mən də özümü çox yaşlı hiss etdim və həyatımın necə olacağını düşündüm; yaxında o öləcəkdi, ondan sonra anam da bu dünyanı tərk edəcəkdi, kitablarla dolu böyük evdə tənha qalacaq, zaman öldürmək üçün naxış, sulu boya ilə rəsm çəkəcəkdim, illər də bir göz qırpımında keçəcəkdi. Sonra bir gün, uzun zaman ortalığda görünmədiyimlə maraqlananlar qapını qıracaq və yerdə cansız bədənimi tapacaqdı. Ölsəydim məndən sonra qalan o quru bədənimin böcək ölülərindən heç fərqi olmayacaqdı.
Bədənimin yaşamadan solduğunu hiss edirdim, bu da mənə sonsuz kədər verirdi. Sonra özümü tənha, çox tənha hiss edirdim. Doğulandan bəri danışılacaq, həqiqi mənada söhbət ediləcək heç kimsəm olmamışdı. Əlbəttə çox zəkalıydım, çox oxuyurdum, atam qürurla deyirdi: «Olqa evlənməyəcək, çünki ağlı həddən artıqdı». Amma böyük nemət sayılan zəka insanı harasa aparmırdı, nə bilim nə bir səfərə çıxa bilirdim, nə də tam olaraq bir mövzu ətrafında çalışa bilirdim. Universitetə getmədiyimə görə qanadları qırılmış bir quşa bənzəyirdim. Əslində bacarıqsızlığımın, qabiliyyətsizliyimin səbəbi bu deyildi. Şleyman Truvayı öz zəkasıyla tapmamışdımı? Məni tormozlayan başqa bir şeydi, içimdəki o kiçik ölüydü, xatırlayırsanmı? Məni saxlayan, irəliləməyimə əngəl olan o idu. Dayanır və gözləyirdim. Nəyi? Bu mövzuda azacıq da olsa bir fikrim yoxdu.
Avqustonun evimizə gəldiyi ilk gün qar yağırdı. Bunu xatırlayıram. Çünki buralarda qar nadir hallarda yağar və qara görə də qonağımız nahara gecikdi. Avqusto atam kimi qəhvə idxalı ilə məşğul idi. Tresteyə gəlişinin səbəbi isə bizim şirkətin satışı barəsində məlumat almaq və bazarlıq etmək idi. Atam iflic olduqdan sonra oğlu olmadığı üçün son illərini rahat keçirmək məqsədiylə şirkəti satmaq qərarına gəlmişdi. İlk dəfə qarşılaşanda Avqusto mənə yaxşı təsir bağışlamamamışdı. Bizim deyimimizlə İtaliyadan gəlirdi və bütün italyanlar kimi əsəbimə toxunan, özündən razı bir görkəmi vardı. Qəribədir, ümumiyyətlə sonradan həyatımızın ən əhəmiyyətli varlığına çevrilən insanlardan ilk anda xoşumuz gəlmir. Yeməkdən sonra atam dincəlirdi, mən də qonağımızla nəzakət naminə salonda qalmışdım. Çox sıxılırdım və bu bəlli olurdu. Yalnız qaldığım həmin saatda onunla daha kobud davrandım. Hər sualına bir sözlə cavab verirdim, o, susduqda mən də susurdum. Axırda: «sizə vida edirəm, kiçik xanım» - deyib qapıdan çıxarkən aşağı təbəqəli bir kişiyə vida edən əsilli xanımlar kimi əlimi uzatdım.
Axşam yeməyi zamanı anam demişdi: «Bir italyan olsa da Avqusto bəyin suyu şirindir». Atam isə cavab olaraq dürüst bir insandır demişdi. «İşlərində də bacarıqlıdır». O anda bir bilsəydin ki nə oldu? Dilimi saxlaya bilmədim və gözlənilməz bir hərəkətlə: «barmağında da nişan üzüyü yoxdur» - dedim. Atam buna cavab olaraq «hə, zavallı

dul» deyəndə bibər kimi qızarmış və çox utanmışdım. İki gün sonra dərsdən dönəndə giriş qapısında ulduzlu kağıza sarılı bir bağlama gördüm. Bu həyatımda mənə gələn ilk bağlama idi. Heç ağlıma gətirmirdim ki, bunu kim göndərə bilər. Kağızın altındakı qeyddə yazılmışdı: «Bu konfetlərdən dadmısızmı?».
Axşam həmin konfetlər komodun üstündə qaldıqca gözümə yuxu getmirdi. «Atama hörmət əlaməti olaraq göndərilmişdir» -deyə düşünür və badam qurularını bir-bir ötürürdüm. Üç həftədən sonra Avqusto Triesteyə döndü, nahar zamanı bu dəfəki gəlişinin də səbəbinin iş olduğunu söylədi, amma yola çıxmaqdansa kənddə bir müddət başını qatdı. Vidalaşmamışdan qabaq atamdan məni avtomobillə gəzdirmək üçün izn aldı və atam da mənə bir şey söyləmədən icazə verdi. Nahardan sonra kəndin küçələrində dolaşdıq, az danışırdı. Mənə tarixi abidələr haqqında suallar verirdi. Sonra da səssiscə məni dinləyirdi. Məni dinləyirdi, bu mənim üçün həqiqətən də bir möcüzə idi.
Yola çıxdığı gün mənə bir dəstə çiçək gördərmişdi. Anam çox həyəcanlanmış, mənsə yarpaqların içindəki zərfi açıb oxumaq üçün bir saat keçməsini gözləmişdim. Qısa bir zaman ərzində bu ziyarətlər mütamadi hal aldı. Hər cümə ertəsi Triesteyə gəlir, bazar axşamı öz kəndinə dönürdü. Kiçik şahzadənin tülkünü əhilləşdirmək üçün nə etdiyini xatırlayırsanmı? Hər gün yuvasının önünə gəlib yuvadan çıxmasını gözləyirdi. Beləcə yavaş-yavaş tülkü onu tanımağa və qorxmamağı öyrəndi. Bununla da kifayətlənmədi, kiçik dostunun ona xatırlatdığı hər şey qarşısında həyəcanlanmağı da öyrəndi. Mən də eyni üsulla başdan çıxarılıb onu gözləməyə, çərşənbə axşamından həyəcanlanmağa başladım. Əhilləşdirmə prosesi başlamışdı. Bundan bir ay sonra bütün həyatım həftənin sonunu gözləmək üstündə qurulmuşdu. Qısa müddətdə aramızda dərin bir etibar yaranmışdı. Onunla söhbətləşə bilirdim, mənim ağlımı və öyrənmə arzumu dəyərləndirirdi; mən də onun sakitliyindən, dinləmə mədəniyyətindən, gənc bir qadına yaşca daha böyük bir kişinin bəslədiyi belə bir etibar duyğusundan xoşum gəlirdi.
1940-cı ilin iyun günlərinin birində sadə bir büsatla evləndik. On gün sonra İtalya müharibəyə qoşuldu. Anam etibarlı bir yerə, Veneto bölgəsindəki dağlıq ərazidə yerləşən bir kəndə sığındı, mənsə ərimlə Aquilaya getdim.
Sən o illərin tarixini yalnız kitablardan oxumuş, amma yaşamamışdın. Sənə o dövrün bütün hadisələrindən söhbət açmamağıma təəccüblənə bilərsən. Faşizm vardı, irqi ayrılığa yol verən qanunlar vardı, savaş başlamışdı və mən özümü bədbəxt hiss edirdim və ona görə də ruhumdakı qımıltılarla məşğul idim. Amma bu davranışımın qeyri-adi, qəribə bir hal olduğunu düşünmə. Kiçik siyasi bir qrupdan başqa, kəndimizdəkilərin hamısı belə davranırdı. Məsələn, atam faşizmin bir hoqqabazlıq olduğunu düşünürdü. Evdəykən o, Dücedən- «o, qarpızsatandır» -deyə söz açardı. Amma sonra qrupun əhəmiyyətli adamlarıyla nahara gedir, uzun müddət onlarla söhbət edirdi. Eyni tərzdə mən də italyanların cümə ertəsinə getməyi, dul bir qadın kimi qara köynək geyininib gəzməyi, marş söyləməyi son dərəcə gülünc və cansıxıcı görürdüm. Yenə də gedirdim, bunu rahat yaşaya bilmək üçün bir üsul olaraq xarakterizə edirdim. Bəli, yaxşı bir davranış deyildi, ama çox təsadüf olunan bir düşüncə tərziydi. Rahat yaşamaq insanın ən güclü arzularından biridir, o zaman da beləydi, indi də belədir. Aquilada Avqustonun ailəsinin evinə köçdük. Bu, kənd mərkəzində əsillilərə məxsus binanın birinci mərtəbəsində yerləşən geniş bir ev idi. Tünd rəngli ağır mebellərlə bəzədilmiş, işığın çox az düşdüyü, qorxünc görkəmli ev idi. Evə girər-girməz ürəyimin sıxıldığını hiss etdim. Altı ay ərzində tanıdığım bu adamla bir rəfiqəmin belə olmadığı bu kənddə və bu evdə necə yaşayacağımı özümdən soruşurdum. Ərim düşdüyüm böhranı anlayaraq üç həftə başımı qatmaq üçün əlindən gələni edərdi. Günaşırı avtomobillə ətrafdakı dağlara gəzintiyə çıxırdıq. Hər ikimiz təbiət gəzintilərinə vurğun idik. O gözəl dağları, təpələrdə qayalar kimi düzülmüş evləri gördükcə bir az rahatlaşmışdım. Özümü elə hiss edirdim ki, sanki quzeyddən, evimizdən ayrılmamışam. Bol-bol söhbət edirdik. Avqusto təbiəti, xüsusilə də böcəkləri çox sevirdi. Gəzinərkən mənə çox şeyi izah edirdi.

Təbiət mövzusundakı məlumatlarımın bolluğuna görə ona borcluyam. Həmin iki həftə bizim bal ayımız olmuşdu və sonra o, işinə dönmüş, mən də böyük evdə təkbaşıma yeni həyata başlamışdım. Yanımda yaşlı bir xidmətçi vardı, ev işləri ilə o məşğul olurdu. Bütün kəndli xanımlar kimi nahar və axşam yeməklərini planlaşdırmaqdan başqa bir işim yox idi. Hər gün təkbaşına uzun gəzintilərə aludə oldum. Əsəbi addımlarla küçə aşağı, küçə yuxarı yol ölçürdüm, beynimdə çox fikir vardı, bu fikirlərimi açıqlaya bilmirdim. Onu sevirəmmi? -deyə özümdən soruşurdum və yolun ortasında dururdum, yoxsa gözlərim qamaşmışdımı? Axşamlar, və ya süfrəyə oturanda, ona baxır, özümdən ona qarşı nə hiss etdiyimi soruşurdum: Bu qəti idi ki, ona qarşı bir şəfqət, bir məhəbbət hiss edirdim. Onun da mənə qarşı bəslədiyi duyğular bunlar olmalıydı. Amma bu eşq idimi? Hamısı bu idimi? Bunu cavablandıra bilmirdim.
Bir ay sonra ərimin qulağına ilk dedi-qodular dəydı. «Alman qadın,- deyirdilər, -bütün günü təkbaşına küçələrdə gəzir». Dəhşətə gəldim. Mən bu məsum yerişlərin belə bir qarışıqlığa yol açacağını xəyal belə etməzdim. Avqusto üzülmüşdü. Mənim üçün bunun ağlagəlməz bir şey olduğunu anlayırdı, amma yenə də kəndin rahatlığını və onun adının şərəfi üçün bu təkbaşıma dolaşmalarıma ara verməyimi xahiş etdi.
Onunla evliliyimin altıncı ayında özümü təmamilə sönmüş, solmuş hiss edirdim. İçimdə olan o balaca ölü böyük bir ölüyə dönmüşdü, robot kimi davranırdım, gözlərimin işığı sönmüşdü, donuq-donuq baxırdım. Danışanda mənə elə gəlirdi ki, söylədiklərim sanki başqasının ağzından çıxır. Bu arada Avqustonun iş yoldaşlarının xanımlarıynan tanış olmuşdum, çərşənbə axşamları kənd mərkəzindəki bir kafedə otururduq. O zaman eyni yaşda olmağımıza baxmayaraq söhbətimiz tutmurdu. Bir tək ortaq nöqtə o idi ki, eyni dildə danışırdıq.
Avqusto, işləri yoluna düşdükdən az bir müddət sonra ordakı kişilər kimi davranmağa başladı. Artıq yemək zamanı da danışmırdıq, ona bir şey söyləməyə özümü məcbur etsəm də bir «bəli», və «yox»la cavablandırırdı. Axşamlar, xüsusilə, kluba gedirdi, evdə qalanda da öz otağına çəkilib böcək kolleksiyası düzəldirdi. Ən böyük xəyalı o idi ki, heç kimin tanımadığı bir böcək tapsın. Bu böcək də öz adıyla adlandırılaraq elmi kitablara düşsün. Mən isə adımın davamının təmamilə başqa bir yolla həyata keçməsini – bir övladımın olmasını arzulayırdım. Artıq otuş yaşındaydım və zamanın surətlə keçdiyini hiss edirdim. Bu mövzuda da işlər çox pis gedirdi. Mənə elə gəlirdi ki Avqustonun istədiyi yemək saatlarında evdə birini tapmaq, bazar ertəsi kilsədə qürürla ətrafındakılara nümayiş etdirəcəyi birinin olmasıydı, amma bu rahatlıq verici qadın görüntüsündən xaric tək bir şey çatışmırdı. O xoş və incə adama nə olmuşdu? Hər şey bu tərzdəmi davam edəcəkdi? Avqusto quşların baharda dişiləri başdan çıxarmaq üçün daha yüksəkdən oxuduqlarını, yuvanı birlikdə qurmağı qaranti etdiklərni anlatmışdı. O da eynilə belə etmişdi, məni yuvanın içində gördükdən sonra varlığımla maraqlanmağı unutmuşdu. Ordaydım, onu isidirdim, ona bu qədər bəs idi. Ona nifrət edirdim? Xeyir. Sənə qəribə gələcək, amma nifrət etməyi də bacarmırdım. Bir insana nifrət etmək üçün onun səni incitməsi, sənə pislik etməsi lazımdı, deyilmi? Avqusto mənə heç bir şey etmirdi, işin ən pis tərəfi də bu idi. Acından ölməkdənsə, heç nədən ölmək daha asandır, əzaba üsyan edə bilirsən, heçliyə yox.
Anam və atamla danışarkən onlara hər şeyin yolunda olduğunu söyləyir, xoşbəxt gəlinlərə məxsus tərzdə danışmağa çalışırdım. Onlar da məni etibarlı əllərə əmanət etdiklərinə inanır, bu nizamın pozulmasını istəmirdilər. Anam hələ də dağda gizlənirdi, atam ona baxan uzaq bir əmisi uşağıyla evimizdə olurdu. Ayda bir dəfə «yenilik varmı?» -deyə soruşurdu, mən də ona davamlı olaraq «xeyir» -deyirdim. Çox istəyirdi ki, bir nəvəsi olsun, atamı yaşlanmaqla bərabər heç sahib olmadığı bir sevinc bürümüşdü. Xarakterindəki bu dəyişikliyə görə onu özümə bir az daha yaxın hiss edirdim. Gözlədikləri şey mövzusunda onlarda xəyal qırıqlığı yaratmaq xoşuma gəlmirdi. Bir tərəfdən də bu sonsuzluğun səbəbini ona anlada biləcək qədər də yaxın deyildim. Anam hər sətrinə bəzəkli bir bahar ətri daman uzun məktublar yazırdı. «Mənim əziz qızım»

deyə kağızın yuxarısına, aşağısına ən incə detallara qədər o gün olan-bitən hər əhvalatı sıralayırdı. Ən sonda da nəvəsi üçün, bilmirəm hördüyü neçənci kambinzonu bitirdiyini əlavə edirdi. Mənsə getdikcə içimə çəkilir, hər səhər aynada özümü daha çirkin görürdüm. Axşamlar ara-bir Avqustodan nədən susduğunun səbəbini soruşurdum. O da məndən böcəykləri analiz etdiyi böyüdücüdən gözlərini belə çəkmədən «nə haqqında?» - deyə soruşduqda böcəkləri analiz etdiyi böyüdücüdən gözlərini belə çəkmədən «bilmirəm, -deyirdim, -bir-birimizə bəzi şeylər izah edək». Buna görə başını sallayır və: «Olqa sənin xəyal gücün həqiqətən xəstədir»- deyirdi.
Necə ki, söyləyirlər ki,  itlər uzun bir birlikdən sonra sahiblərinə bənzəyir, mənə elə gəlirdi ki, bu sözləri ərim haqqında da söyləmək olar. O da zaman keçdikcə bütövlükdə bir böcəyə bənzəyirdi. Artıq hərəkətlərində insana xas cəhətlər yox idi, yalnız geometrik hərəkətləriylə, tərpənişiylə seçilirdi. Səsində də bir qəribəlik vardı, boğazının aydın olmayan bir yerindən metala bənzər bir gurultuyla yüksəlirdi. Böcəklərinə və işinə ehtirasla bağlıydı və bunlardan başqa heç bir şey onu hərəkətə gətirməzdi. Bir maqqaşla tutduğu iyrənc bir böcəyi, deyəsən köstəbək çəyirtkəsi idi, göstərərək: «bir çənə sümüyünə bir bax, -demişdi, -bunlala hər şeyi udar». Həmin gecə yuxumda Avqustonu o böcək formasında gördüm, çox böyük idi, paltarlarımı kağız kimi gəmirirdi. Bir ildən sonra ayrı otaqlarda gecələməyə başladıq. O, gecə keçənə qədər böcəklərlə məşğul olur, söylədiyinə görə məni rahatsız etmək istəmirdi. O dövrdə evliliklər elə beləydi, tərəflərdən biri ölənə qədər yaşayan kiçik ev cəhənnəmiydi.
Niyə üsyan etmirdim, niyə çantamı götürüb Triesteyə getmirdim?
Çünki o zamanlar nə ayrılma vardı, nə də boşanma. Bir ailəni dağıtmaq üçün çox pis rəftar lazım idi, ya da üsyankar bir xarakterə sahib olaraq qaçıb sərsəri kimi dünyanı dolaşmaq lazım idi. Amma, bilirsən ki, üsyan mənə xas davranış deyil və Avqustoda mənə əl, hətta barmaq belə qaldırmamışdı, səsini də çıxarmamışdı. Halbuki, məndən heç nəyi əksik etmədi. Bazar günləri ayindən dönəndə Nurzia Briaderlərin şirniyyat mağazasına dəyərdik və ürəyim nə istəsəydi hamısını alırdı. Hər səhər hansı duyğularla oyandığımı xatırlamağım çox çətin deyil. Üç illik evlilikdən sonra tək bir düşüncəm vardı, o da ölüm idi. Avqusto ilk həyat yoldaşından heç söz açmazdı, ona bu mövzuda sual verməyə cəsarət etdiyim nadir zamanlarda belə mövzunu yayındırırdı. Qışda nahardan sonra o xəyalət iyi qoxuyan otaqların arasında gəzinərkən Adanın –ilk həyat yoldaşının adı belə idi- xəstəlik, ya da qəzadan ölmədiyini, özünün öldürdüyünü düşünməyə başlamışdım. Xidmətçi bayırda olarkən bütün günü bəzi şurupları söküb, siyirtmələri gözdən keçirir, əsəblə bir iz, mənim şübhəmi doğruldacaq bir dəlil axtarırdım. Yağışlı bir gündə qardiroblardan birinin yer taxtasının altında qadın paltarları tapmışdım, onun idi. Qara rəngli birisini çəkib çıxartdım və geyindim, eyni ölçüdə idik. Aynada özümə baxarkən ağlamağa başladım. İçin-için, hıçqırmadan, taleyimin yazılmış olduğunu bilənlər kimi ağlayırdım. Evin bir küncündə Avqustonun dindar anasından qalma və dua edərkən diz çökmək üçün düzəldilmiş bir taxta dizlik vardı. Nə edəcəyimi bilmədiyim zaman o otağa çəkilir, əllərimi çarpazlaşdırıb saatlarla bu vəziyyətdə qalırdım. Dua edirdimmi? Bilmirəm. Məndən daha ağıllı biri ilə danışır, ya da danışmağa çalışırdım. «Tanrım»,- deyirdim «mənə yol göstər, həyatım budursa mənə buna dözmək üçün güc ver». Bir qadın olaraq məcbur olduğum həftəlik kilsə ziyarətləri, uşaq çağlarından bəri içimdə gömdürdüyüm sualları yenidən cücərdirdi. Günnük qoxulu tüstü, orqanın səsi məni sərsəmlədirdi. Müqəddəs mətnləri dinləyərkən içimdə nə isə yavaş-yavaş tərpənirdi. Amma keşişi əynində müqəddəs, bəzəkli geyimləri olmadan yolda görəndə onun süngərə bənzəyən burnuna və domba gözlərinə baxanda, mənasız və son dərəcə süni suallarını dinləyəndə içimdə heç nə titrəmirdi və öz-özümə: «budur -deyirdim, -bu bir fırıldaqdan başqa heç nə deyildir». Zəif zehnlərin içində yer tapmış başqalarına dözmək üçün uydurulmuş bir yol. Buna baxmayaraq evin sükutunda oxumağı xoşlayırdım. İsanın çox sözünü xarüqə bilirdim, yüksək səslə təkrarlayaraq həyəcanlanırdım.

Ailəm heç dindar deyildi, atam özünü müstəqil düşüncəli bir insan kimi xarakterizə edərdi. Anam isə iki nəsil öncə xristian olmuş bir ailədən gəlir, ayinlərə həmişə ümumi və sosial qaydalara uyğunlaşmaq səbəbindən nizamla qatılırdı. Ona nadir zamanlarda inam mövzusunda sual verdikdə mənə deyərdi ki, «bilmirəm, bizim ailəmiz dinsizdir». Dinsiz – bu söz uşaqlıq çağlarımın ən həssas dövründə, adi şeylər haqqında suallar yarananda məni ağır bir qaya kimi əzdi. Bu sözdə bir alçaltmaq duyğusu vardı. Bir dinə sığınmaq üçün o birini tərk etmişik, amma yenisinə də ən kiçik hörməti belə göstərmirdik. Biz xəyanət etmişdik və bütün xainlər kimi nə yerdə, nə göydə bizə yer vardı.
Beləcə, rahibə məktəbində öyrəndiyim bir neçə deyimdən başqa otuz yaşına qədər din mövzusunda bundan başqa heç bir məlumatım olmamışdı. Evdə dolaşarkən: «Tanrının hökmranlığı bizim içimizdədir» - deyə təkrarlayırdım. Təkrarlayır və harda ola biləcəyini müəyyənləşdirməyə çalışırdım. Gözümün bir periskop kimi içimə endiyini, gövdəmin küc-bucağını araşdırdığını, zehnimin gizli qırışlarının arasına baxdığını görürdüm. Hardaydı Tanrının krallığı? Görə bilmirdim, ürəyimin ətrafını sis basmışdı, ağır bir sis. Cənnət sandığım o aydınlıq və yaşıl təpələr görünmürdü. Bəzən elə bilirdim ki, dəli olmuşam, yavaş-yavaş gözlə görülməyəcək dərəcədə mistik dəliliyin yaxınlığında olduğumu düşünürdüm. Evliliyimin dördüncü ilində artıq real və qeyri-real hadisələri fərqləndirməkdə çətinlik çəkirdim. Yaxınlıqda Diomonun zınqırovları on beş dəqiqədən bir çalır, zamanın keçdiyini bildirir, mən də eşitməmək üçün qulaqlarıma panbıq tıxayırdım. Məndə belə bir fikir də yaranmışdı ki, Avqustonun böcəkləri ölü deyil. Gecələr evin hər yanını sarıdıqlarını düşünüb, çıtırtılar eşidirdim. Divar kağızlarına dırmaşdıqlarını, mətbəxin kafellərini aşırdıqlarını, salondakı xalılarının arasında dolaşdıqlarını düşünürdüm. Yataqda daş kimi oturur və qapının altından otağıma kecəcəklərini düşünüb nəfəsimi saxlayırdım. Bunu Avqustodan gizlətməyə çalışırdım. Səhərlər dodaqlarımda süni bir gülüşlə onu yola salarkən naharda hansı yeməyi hazırlayacağımı bildirirdim, qapıdan çıxana qədər gülümsəməkdə davam edirdim. Qayıtdıqda eyni süni gülüşlə onu qarşılayırdım.
Evliliyim kimi savaş da beşinci ilinə keçmişdi, fevral ayında Triesteyə bombalar düşdü. Son hava vuruşunda ata evimiz tamamilə yerlə-yeksan oldu. Tək qurbansa atamın arabaya qoşduğu at olmuşdu, onu bağçada ön ayaqları parçalanmış halda tapmışdılar. O zamanlar televizor yox idi, xəbərlər çox zəif yayılırdı. Evimizi itirdiyimizi ertəsi gün atam telefon açarkən öyrəndim. «Alo» - deyəndə pis bir şeyin baş verdiyini anlamışdım, bu, uzun zaman yaşamaq eşqini itirmiş bir insanın səsiydi. Artıq dönəcəyim bir yerin ölmaması məni sarsıtdı. İki, üç ay boyunca evin içində tranzit halında dolandım. Məni bu yuxudan silkələyən bir qüvvə yox idi. Ömrümün eyni rəng və yeksənəkliklə ölüncəyə qədər davam edəcəyi ürəyimi sıxırdı. Hər zaman yaranan ən qorxulu səhv nədir, bilirsənmi? Həyatın dəyişməz olduğunu sanmaq, qatarın rels dəyişdirmədən sonsuza qədər gedəcəyini düşünməkdir. Hallbuki, tale yazısı bizim düşündüyümüzdən daha rənglidir. Artıq çıxış yolunun qalmadığını sandığın bir vəziyyətdə, ümidsizliyin zirvəyə çatanda ruzigar sürətiylə hər şey dəyişir, yerlə- yeksan olur və bir anda özünü yeni bir aləmdə görürsən.
Evimizin bomba düşəndən iki ay sonra döyüş bitdi. Mən həmin an Triesteyə getdim, anam, atam və camaat müvəqqəti olaraq bir evə sığınmışdılar. Məşğul olası o qədər işlər vardı ki, bir həftə sonra belə Aquilada keçirdiyim günləri unutmuşdum. Bir ay sonra Avqusto da gəlmişdi. Atamdan satın aldığı şirkəti yenidən qurmuşdu, müharibə zamanı onu başsız buraxmışdı və heç nə etməmişdi. Sonra bir evləri belə olmayn anam və atam vardı və yaşlanmışdılar. Avqusto məni təəcübləndirən bir cəldliklə öz kəndini tərk edərək Triesteyə köçmək qərarına gəldi. Təpədəki bu evi satın aldı və payız gəlməmişdən hamımız artıq oraya yerləşmişdik.
Düşündüyümüzün əksinə, aramızdan ilk köçən anam oldu. Yazın əvvəli öldü. O inadcıl xasiyyəti yalnızlıq və qorxu dolu müharibə illərində daha da möhkəmləşmişdi. Onun

ölümü ilə bir övlad sahibi olmaq arzum yenidən baş qaldırdı. Vaxtımın çox hissəsini bağçada atamla oturacaqda keçirirdim. Günəşli bir gündə nahardan sonra mənə dedi ki, səfalı sular qaraciyərdə və qadınlarda möcüzələr yaradır. İki həftə sonra Avqusto məni qatarla Venedikə apardı. Oradan səhər erkən Bologna qatarına minəcəkdim, yenə bir qatar dəyişdikdən sonra axşama yaxın Porretta sanatoriyasına çatacaqdım.
İstisuların xeyrinə çox inanmırdım, buraya getməyə ən böyük səbəb yalnız qalma arzum idi, özümlə baş-başa qalacaqdım. Çox əzab çəkmişdim. İçimdə ölməyən bir hügeyrə belə qalmamışdı, yanğından sonra kömürləşmiş bir qır kimiydim. Altda qalan o ölüvay toxma yağışla, günəşlə, havayla yaşıllaşmaq üçün bir enerci tapa biləcəkdi.

10 dekabr
Sən gedəndən qəzet oxumuram, əvvəlllər sən alırdın, indi heç kim gətirmir. Bu məni narahat etsə də, yavaş-yavaş bu bir rahatlığa çevrildi. Buna görə İsac Singerin atasını xatırladım. Deyərdi ki, müasir insanın bütün vərdişləri arasında gündəlik qəzetləri oxuması ən pis vərdiş sayıla bilər. Səhər ruhun təmz olduğu anda qəzetlər əvvəlki günlər dünyada baş vermiş bütün pislikləri insana ötürür. Amma vaxtında ondan xilas olmaq üçün qəzet oxumamaq lazımdı. Bu günsə artıq bu mümkün deyil; radio və televizor var, bunları açmağın bütün pisliklərin daxilinə dolmasına bəsdir. Bu səhər də elə oldu. Geyinərkən regional xəbərlərdə didərgin kanvoylara sərhədi keçmə izni verildiyini eşitdim. Dörd gün idi ki, orda gözləyirdilər, onların irəli getmələrinə izn verilmirdi və artıq geriyə də dönə bilməzdilər. Gəmidə yaşlılar, xəstələr, uşaqlarıyla bərabər yalnız qadınlar vardı. Diktor ilk qrupun Qızıl Xaç düşərgəsinə çatdığını və ilk qayğının göstərildiyini söylədi. Bir müharibənin bu qədər yaxın, hazır olması məndə müdhiş narahatlıq yaradır. Döyüş başlayandan bəri sanki ürəyimə batmış bir tikanla yaşayırdım. Mənasız bir görüntü, amma bütün mənasızlığı ilə sənə duyduqlarımı ötürə bilir. Bir il keçdikdən sonra əzaba bir də incimə duyğusu əlavə olundu. İnsanların qurban edilməsinə son qoymaq üçün heç kimin bir səy göstərməməsinə inana bilmirdim. Sonra vəziyyətlə barışmaq məcburiyyətində qaldım. Orda neft quyuları deyil, yalnız qayalıq dağlar vardı. Zaman keçdikcə incikliyim qəzəbə döndü və bu qəzəb məni höcətcil bir ağac qurdu kimi hələ də içdən gəmirir.
Bu yaşımda bir döyüşün məni belə təsirləndirməsi gülüncdü. Əslində dünyanın hər yerində, hər an döyüş gedir, səksən ildə buna alışmalı, bərkiməliydim. Doğulduğum gündən bəri Karsonun yüksək və sarı otları didərginlərin, məğlub olmuş, dağıdılmış ordular tərəfindən tapdalandı; əvvəl yüksək yaylalarda partlayan bombalarla birlikdə döyüş piyadalarını daşıyan qatarları, sonra Rusya və Yunanıstanın müharibə veteranları, faşizmin və nasizmin qurbanları keçib ketdilər və indi sərhəddə yenə də top səsləri eşidilir, Balkanlarda böyük qiyamdan xilas olmaq istəyən məsum insanlar toplu halında evlərini, yurdlarını tərk etmək məcburiyyətindədirlər.
Bir neçə il əvvəl qatarla Triestedən Venedikə gedərkən bir ekstrasenslə eyni kupedə qaldıq. Məndən bir az gənc olan bu xanımın başında əzilmiş bir şapka vardı. Təbii olaraq onun bir ekstrasens olduğunu bilmirdim, yanımdakı xanıma söyləyəndə eşitmişdim. Karsonun dağlarından keçəndə deyirdi ki, bilirsinizmi, mən burada piyada yerisəm bütün ölülərin çığırtılarını eşidirəm, sarsılmadan keçməyim mümkün deyil. Hamısı qorxunc tərzdə bağırışırdılar, gənclər daha dəhşətlə bağırırlar». Sonra o, xanıma harda bir təsirli əhvalat yaşanmışsa atmosferində bəzi şeylərin sonsuza qədər dəyişdiyini başa salırdı: Hava tarazılığını itirir, pozulurdu və bu yerdə hava başqa fəlakətlərin yaranmasını yaradacaq bir gücə bünövrə yaradırdı. Belə ki, bu o deməkdir ki, qan tökülən bir yerə təkrar-təkrar qan töküləcəkdir. Ekstrasens sözünü bitirərkən demişdi: «Yer üzü bir vampirə bənzəyir, qanın dadını bir dəfə aldımı yenidən istəyir, yenisini və daha çox arzulayır».

İllərlə özümdən soruşdum ki, görəsən yaşadığımız bu yerlərdə lənətlənibmi?! Bunu soruşar, amma bir cavab tapmırdım. Səninlə həmişə Monrupino qayalığına gedərdik, xatırlayırsanmı? Quzey ruzgarları əsərkən mənzərəli yerləri saatlarla seyr edərək vaxt keçirirdik, özümüzü sanki bir təyyarədə oturub aşağıya baxanlar kimi hiss edərdik. Üç yüz altmış dərəcəlik bir görüntü meydanı vardı, kim daha qabaq Dolomitlərin zirvəsini tapacaq, kim Venediyi seçə biləcək deyə səninlə yarışırdıq. İndi oraya getmək üçün bədənimin taqəti olmadığından gözlərimi yummağım lazımdır.
Yaddaşın böyüklüyü sayəsində sanki o qayaların seyr nöqtəsində oturmuşam, hər şey gözümün önündə, ətrafımda peydə olur. Heç bir şey əksik deyil, hətta ruzgarın səsini, seçdiyim mövsümün qoxusunu da duyuram. Orada otururam, bir zaman yaranmış əhəng sütunları, geniş bəhrəsiz torpaqların üstündə irəliləyən zirehli qoşunları, dənizin maviliyinə doğru yüksələn İstria burnunu görürəm, ətrafımdakı hər şeyə bir-bir baxıram və özümdən, kimbilir, neçənci dəfə soruşuram: «burda pozuq, kəskin bir not varsa hardadır?»
Bu mənzərəni çox sevirəm və bəlkə də cavab verə bilməməyimin də səbəbi bu sevgidir, əmin olduğum tək şey bu mənzərələrin burda yaşayan insanlara güclü təsiridir. Mən, ümumiyyətlə belə sərt və incik bir insanamsa, sən də eləsən. Buna görə Karsoya, onun aşındırma gücünə, rənglərinə və onu qamçılayan ruzgara borcluyuq. Biz, nə bilim, Umbria təpələri arasında doğulsaydıq daha yumşaq təbiətli olardıq, hiddət bizim xasiyyətimiz olmazdı. Daha yaxşı olardı? Bilmirəm. Yaşanmayan bir şeyin xəyalı qurulmaz!
Nə isə, bu səhər kiçik bir uğursuzluq yaşadım; mətbəxə girən an balaca quşu bezlərın arasında cansız gördüm. Son iki gündə nisgilləmişdi, az yeyir, hətta iki loxma arasında da yuxuya gedirdi. Gün doğmamışdan qabaq ölməliydi, çünki əlimə götürəndə sanki boynu qırılmış yay kimi yana düşdü. Yumşaq və soyuq idi. Onu bir parçaya bürüməmişdən qabaq bir xeyli oxşadım. Bir az isitmək istəyirdim. Bayırda lopa-lopa qar yağırdı. Busku bir otağa salıb bayıra çıxdım. Kürəyi aldım, yeri qazmağa taqətim olmadığından torpağın ən yumşaq olduğu ləki seçdim. Ayağımla kiçik bir çuxur açdım, quşu oraya qoyub üstünü örtdüm və evə dönmədən quşları basdırarkən etdiyimiz duanı oxudum: «Tanrım, bu balaca canı da o birilər kimi yanına qəbul et».
Sən uşaqkən nə qədər canlının köməyinə çatıb xilas etməyə çalışırdıq? Hər fırtınalı gündən sonra yaralı bir quş tapırdıq; sərçələr, qaratoyuqlar, qaranquşlar… Onların yaşaması üçün əlimizdən gələni edərdik, amma bizim səylərimiz hər zaman eyni nəticəni verməzdi. Bir gündən o birinə keçməmş ölərdilər. Aman Allah, o gün nəecə bir faciə yaranırdı, bu bir neçə dəfə təkrarlansa da sən pərişan olurdun. Onları basdırarkən burununu silər, gözlərini əllərinlə qurulayardın, sonra da otağına çəkilib yas saxlayardın. Bir gün məndən, ananı necə tapacağımızı soruşdun, göy üzü o qədər böyük idi ki, itmək çətin deyildi. Mən də sənə göy üzünün böyük bir otelə bənzədiyini, yuxarıda hər kəsin bir otağı olduğunu, bir-birilərini sevən insanların o otaqlarda görüşüb sonsuza qədər birlikdə yaşadıqlarını söyləmişdim. Bu fikir səni bir müddət rahatlamışdı. Amma dördüncü, ya da beşinci akvarium balığın öləndə mövzu yenə gündəliyə gəldi və mənə dedin: «Yaxşı da, yer qalmazsa?». «Yer qalmazsa, -deyə səni cavab verdım, -gözlərini bir an üçün yumub bir dəqiqə müddətində genişlən otaq!» -deyə düşünmək bəsdir. O zaman otaq böyüyər və yer açılar».
Bu uşaqlıq anlarının xatirələrini hələ hafizəndə saxlayırsanmı, yoxsa zırhın onları sürgünə göndərdi? Bu gün quşcuğazı basdırarkən ağlıma gəldi, «genişlən otaq!» - nə gözəl bir sehrdir! Əlbəttə anan, qaranquşlar, sərçələr, akvarium balıqları deyərkən sənin otağın bir stadionların tribunaları kimi dolmuş olmalıdı. Yaxında mən də bu dünyanı tərk edəcəyəm, məni otağına qəbul edəcəksənmi, yoxsa yaxınlıqda bir yermi kirayələmək məcburiyyətində qalacam? İlk sevdiyim insanı da dəvət edə bilərəmmi, sonda səni həqiqi babanla tanış edə bilərəmmi?

Həmin gün, sentyabr axşamı Porretta dayanacağında qatardan enəndə nələri düşünüb, nələri xəyal etmişdim? Qəti olaraq heç bir şeyi. Havada şabalıd ağaclarının qoxusu vardı və düşündüyüm sifariş verdiyim pansionu tapa bilmək idi. O zamanlar daha çox təcrübəsiz, taleyin aramsız işlərindən xəbərsizdim. Tək inamım gələcəyimin iradəmi yaxşı, ya da pis yolda istifadəmə bağlı olaraq peyda olacaqdı. Perona addımımı atdığım və çamadanı yerə qoyduğum anda iradəm zəiflədi, heç bir şey istəmirdim, ya da bir şey istəyirdim, o da rahatlığa qovuşmaqdı.
Babanla ilk axşam qarşılaşdım, qaldığım pansionda bir nəfərlə yemək yeyirdi. Olduqca kəskin bir səslə siyasi mövzuda mübahisə edirdi, səsinin tonu məni o an narahat etdi. Yemək yeyərkən bir neçə dəfə qəzəblə gözlərimi ona dikdim. Sabahısı gün onun sanatoriyanın həkimi olduğunu öyrənəndə necə çaşdım! On dəqiqəyə qədər mənə sağlamlığım mövzusunda suallar verdi. Qəlbimi dinləyərkən qışqırırmış kimi: «Ey, bu nə qorxudur!» dedi və qəhqəhə çəkdi. Təzyiq cihazını qurmasıyla civə ən yüksək dərəcəyə çatdı. «Yüksək təzyiqdənmi gileylənirsiniz?»-deyə bu dəfə soruşdu. Öz özümə çox qəzəblənmişdim, bu qədər qorxmalı bir şey yoxdu deyə təkrarlayırdım, bu yalnız vəzifəsini yerinə yetirən bir həkimdir, bu qədər həyəcanlanmaq nə normal, nə də doğru bir şeydir deyirdim. Amma nə qədər təlqin etsəm də heç cür sakitləşə bilmirdim. Qapının ağzında resepti verərkən əlimi sıxdı; «Bir az dincəlin, nəfəs alın,- dedi, -yoxsa səfalı sular işə yaramaz».
Həmin axşam yeməkdən sonra gəlib masamda oturdu. Hətta sabahısı gün kəndin küçələrində çənə vuraraq gəzintiyə də başlamışdıq. Əvvəllər məni narahat edən tükənməz enercisi indi marağımı çəkməyə başlamışdı. Söylədiyi hər şeydə ehtiras, hərəkət vardı; onun yanında olarkən hər cümləsinin və bədəninin yaydığı hərarətin sənə keçməməsi qeyri-mümkünidi.
Bir zamanlar qəzetdə oxuduğuma görə son nəzəriyyələr eşqin ürəkdə deyil, burunda başladığını söyləyir. İki insan qarşılaşıb bir-birini xoşladıqları zaman balaca hormonlar ifraz olurmuş. Bu hormonlar burundan girib beyinə qədər gələr və beynin gizli bir bükümdə fırtına yaradırmış. Nəticə olaraq, duyğular gözlə görünməz qoxudan başqa bir şey deyildir - deyə məqalə bitirdi. Nə qədər mənasız! Həyatında əsl sevənlər bilir ki, bu iddialar ürəyi sügünə göndərmək səylərinin uğursuz bir nümunəsidir. Əlbəttə, insanın öz qoxusu da böyük həyəcan dalğaları yaradır. Amma onu xəbərdar etmək üçün əvvəl başqa bir şeyin olması lazımdır.
O günlərdə Ernestonun yanında olarkən məndə belə bir düşüncə yarandı ki, bədənimin hüdudları yoxdur. Ətrafımda toxunulmaz bir havanın olduğunu, sərhədlərimin daha da genişləndiyini və bu genişliyin hər hərəkətimlə havada titrədiyini hiss edirdim. Bilirsən ki, çiçəkləri bir neçə gün sulamasan nə olur? Yarpaqları gücsüzləşir, işığa doğru yüksəlməkdənsə kədərli bir dovşanın qulaqları kimi aşağı sallanırlar. Budur, əvvəlki illərdə mənim də həyatım susuz qalmış bir bitki kimiydi, gecənin şehi mənə sürünə biləcəyim qədər qida vermişdi, bundan başqa heç bir şey yoxdu, ancaq sürünmək üçün gücüm qalmışdı, bu qədər. Özünə gəlməsi üçün çiçəyi bir dəfə sulamaq bəsdir, o an yarpaqları dirilir. İlk həftə mənə də belə oldu. Oraya getdikdən altı gün sonra səhər aynada özümə baxarkən başqa bir insan olduğumu gördüm. Tənim daha yumşaq və hamar, gözlərim daha işıltılıydı, geyinəndə nəğmə söyləməyə başladım, bunu uşaqlığımdan bəri etməmişdim.
Hekayəni dinlədikdə, bəlkə də belə bir xoşbəxtliyi yaşayərkən narahatlıq, vicdan əzabı çəkib-çəkmədiyimələ maraqlanırsan. Evli bir qadın idim, belə bir ehtiyatsızlıq edib başqa bir kişinin dostluğunu necə olur ki, qəbul edə bilirdim? Halbuki, özümə heç sual da vermirdim, heç şübhələnmirdim, üstəlik hiss etməyə qadir deyildim. Bunun əsl səbəbi yaşadıqlarımın yalnız bədənimi maraqlandırmasıydı. Qışda yollarda günlərlə süründükdən sonra isti bir yuva tapan bir pişik balası kimiydim, soruşulası heç bir şey

yox idi, ordydım və bu hərarəti hiss edirdim. Üstəlik özümə inamım o qədər az idi ki, bir kişinin mənə qarşı bu cür maraq duyacağını da xəyalıma gətirə bilmirdim.
İlk bazar günü ayinə gedərkən Ernesto maşını yanımda saxladı. Pəncərədən başını uzadaraq: «Hara gedirsiniz?» -deyə soruşdu, mən cavab verər-verməz avtomobilin qapısını açdı və dedi: «Mənə inanın, kilsəyə getməkdənsə, meşədə gözəl bir gəzintiyə çıxsanız Tanrı daha çox sevinər». Uzun dolanbaclı yollardan sonra şabalıd ağaclarının arasıyla uzanan bir cığırın başna gəldik. Belə daşlı yolda yeriyə bilmək üçün ayaqqabılarım yaramırdı, tez-tez büdrəyirdim. Ernesto əlimdən tutanda bu mənə dünyanın ən mümkün şeyi kimi gəldi. Uzun zaman səssizcə yeridik. Havada payızın qoxusu hiss olunmağa başlamışdı, torpaq nəm idi, ağaclarda yarpaqların çoxu saralmışdı, onların arasından süzülən işıq rəngarəng çalarlarla əks olunurdu. Ağaclar seyrəkdi, bir anda nəhəng bir şabalıd ağacına rast gəldik. Öz çinarımı xatırlayaraq onun yanına getdim, əvvəl onu əlimlə oxşadım, sonra yanağımı dayadım. Ernesto da başını ağaca dayadı. Tanışlığımızdan bəri gözlərimiz heç bu qədər yaxın olmamışdı.
Səhərsi gün onu görmək istəmədim. Dostluq başqa bir şeyə çevrilirdi və düşünməyə ehtiyacım vardı. Artıq kiçik bir qız deyil, evli qadın idim, o da evliydi. Üstəlik bir uşağı da vardı. Mən o gündən qocalıncaya qədər bütün həyatımı planlaşdırmışdım. Hesaba almadığım və bu nizamı pozacaq hər hansı bir şey məni narahat edirdi. Yenilik ilk addımda qorxudur, irəliləmək üçün bu qorxu duyğusunu aşmaq gərəkdir. Bu səbəbdən bir an «bu böyük bir axmaqlıqdı, həyatımın ən böyük axmaqlığı, hər şeyi unutmalıyam, olub bitən o çox az şeyi də silib atmalıyam» - deyə düşünür, bir an sonra da axmaqlığın daha böyüyünün bu fürsəti qaçırmaq olacağını düşünürdüm, çünki uşaqlığımdan bəri ilk dəfə özümü canlı hiss edirdim, ətrafımda hər şey titrəyirdi, içimdə titrəyirdi, bu yeni vəziyyətdən imtina etmək mənə çətin gəlirdi. Bununla yanaşı bir şübhə də duyurdum. Bu, az çox bütün qadınların duyduğu bir şübhəydi. Görəsən mənimlə zarafatmı edirdi, məqsədi mənimlə əylənməkdimi? Bütün bü düşüncələr pansionda tək-tənha oturarkən ağlımı qarışdırırdı.
O gecə dördə qədər yuxuya getmədim, çox həyəcanlıydım. Artıq ertəsi gün səhər özümü halsız hiss etmirdim, geyinərkən nəğmə söyləməyə başladım, bir neçə saatın içində içimdə dəhşətli bir yaşama arzusu doğmuşdu. Ora getdiyimin onuncu günündə Avqustoya bir məktub göndərdim: «Hava xarüqə, yeməklər orta səviyyədədir, ümidliyəm»- deyə yazmış və onu məhəbbətlə qucaqladığımı bildirmişdim. Bir əvvəlki gecəni Ernesto ilə keçirmişdim.
O gecə qəfldən bir şeyi sezmişdim, bədənimizlə ruhumuz arasında çox kiçik pəncərə vardı, açıq olduqları zaman burdan duyğular keçirdi, bağlı olduqda heç nə keçə bilmirdi. yalnız sevgi hamısını birdənbirə şiddətli bir fırtına kimi aça bilirdi.
Porrettada qaldığım son həftədə həmişə birlikdəydik. Uzun sürən gəzintilərə çıxırdıq, boğazımız quruyana qədər söhbət edirdi. Ernestonun söhbətləri Avqustonunkindən nə qədər fərqliydi. Onda hər şey ehtirasdı, həyəcandı, ən çətin mövzulara ustalıqla girişməyi bacarırdı. Tanrıdan çox söz açırdıq, əl-ələ tutulan bu real dünyanın o tərəfində başqa bir şeylərin olub-olmadığını mübahisə edirdik. O müqavimət hərakatına qatılmış, dəfələrlə ölümlə üz üzə gəlmişdi. Elə o anlarda onda daha ali bir şeyin mövcud olması düşüncəsi doğmuşdu, qorxudan deyil, bu şüurun daha geniş bir məkana yayılmasıydı.
Mənə deyirdi ki, dini qaydalara uymaram, əsla Tanrının evinə getmərəm, əsla doğmalara, mənim kimi insan oğullarının uydurduğu nağıllara inanmaram. Sözləri bir-birimizin ağzından tuturduq, eyni şeyləri düşünürdük, eyni tərzdə dilə gətirirdik, sanki iki həftə deyil, uzun illərin tanışları kimiydik.
Ernesto tale mövzusunda çox inamlı idi. «Hər kişinin həyatında»- deyirdi,- « mükəmməl tək bir qadın vardır, hər qadının da həyatında bütünlüyünə çata biləcəyi tək bir kişi vardır». Amma buna nail olmaq çox az insana nəsib ola n alın yazısıdı. Yerdə qalan hər kəs isə qənaətsizlik, davamlı bir intizar içində yaşamaq məcburiyyətindədir». «Belə bir qovuşmanı neçə insan bacara bilmişdir ki… -deyirdi, - on mində, milyonda bir insan

olarmı? On milyondan biri ola bilər, bəli. Geridə qalan başqa evliliklər ara düzəltmələr, cinsi xoşlamalardır, keçicidir, fiziki, şəxsi, ya da sosial məsələlər üzündən qurulmuşdur». Bu hökmlərdən sonra da təkrarlamadan əlavə edirdi: «Biz necə də şanslıyıq, deyilmi? Kim bilir, bizi nələr gözləyir, kim bilir?».
Yola çıxacağım gün o, qatar dayanacağında gözləyərkən mənə sarıldı və qulağıma pıçıldadı: «daha əvvəl həyatımızın hansı dövründə qarşılaşmışdıq. «Lap çoxunda»- deyə cavab verdim və ağlamağa başladım. Çantamda onun Ferraradakı ünvanını gizlətmişdim.
Səfər zamanı yaşadığım duyğuları sənə anlatmağıma gərək yoxdur, sarsılmışdım, hər şey çox qarışıqdı. O saatlarda artıq başqa fərqli bir həyatın lazım olduğunu anlayırdım, qatarda aynaya baxarkən üz ifadəmi nəzərdən keçirirdim. Gözlərimdəki işıq, parıltı yox olmalı, sönməliydi. Məndə havanın düşdüyünün göstəricisi olaraq yalnız yanaqlarımın allığı qala bilərdi. Həm atam, həm Avqusto məni çox gümrah gördülər. Əslində atam: «suların möcüzələr yaratdığını bilirdim» - deyirdi. Avqusto da heyranlıqla tmənə iltilaflar yağdırırdı.
Ürəyin azad qaldığı müddətdə heç kəsin diqqətini çəkməzsən; sonra bir insana bağlananda sən artıq başqalaryıla maraqlanmaz olarkən hamı arxanca düşər, səni tərifləyər. Bu, sənə daha əvvəl söz açdığım pəncərələrlə bağlıdı. Bunlar açıq isə bədən ruha, ruh bədənə müdhiş bir işıq verir. Eyni tərzdə bir-birinə əks olarlar. Qısa bir zaman ərzində ətrafında qızıl rəngində, isti bir hava peyda olar, bu hava bütün kişiləri, balın ayıları çəkməsi kimi sənə doğru çəkər. Avqusto da özünü bu təsirdən uzaq saxlaya bilməmişdi və mən də, amma sənə qəribə gələcək, ona qarşı incə davranmaqdan çətinlik çəkmirdim. Əlbəttə, Avqusto daha bu dünyanı bir az ürəkdən yaşasa, bir az daha gözaçıq olsa baş verənləri anlamaqda çətinlik çəkməyəcəkdi. Evləndiyimizdən bəri ilk dəfə onun iyrənc böcəklərinə təşəkkür etməyə borcluydum.
Ernestonu düşünürdümmü? Əslində bundan başqa heç nə etmirdim. Amma doğru termin «düşünmək» deyildi. Düşünməkdən çox ona görə yaşayırdım, o mənim içimdə yaşayırdı, hər hərəkətimdə, hər düşüncəmdə eyni bir insan idik. Ayrılarkən öncə mənim məktub yazmağım mövzusunda razılaşmışdıq, çünki onun yaza bilməsi üçün məktubların göndərilə biləcəyi etibarlı bir rəfiqə tapmağıma ehtiyac vardı.
İlk məktubumu Bütün Əzizlər Yortusu ərəfəsində göndərdm. Bu müddət əlaqəmizin ən qorxunc dövrü oldu. Ən böyük, ən mütləq münasibətlər belə araya uzaqlıq girdikdə şübhələrə səbəb olur. O üç həftə hər şeyi yenidən düşünürdüm. Düşünürdüm ki, əyər Ernesto can sıxıntısından sanatoriyaya yalnız gələn qadınlarla könül əyləndirən bir adam isə? Günlər keçirdi, məktub gəlmirdi və mənim bu şübhəm reallığa çevrilirdi. O zaman «bəsdir!» deyirdim, bu zərərli bir təcrübə sayılmaz. Buna yol verməsəydim bir qadının nələr hiss edə biləcəyini öyrənmədən yaşlanacaqdım. Anlayırsanmı, birtəhər özümü sakitləşdirməyə, rahatlanmağa çalışırdım.
Atam, deyəsən Avqusto da mənim kefimin olmadığını hiss etdilər: olmayan bir şey üstündə deyinirdim, biri otaga girərsə mən çıxırdım, tək qalmaq istəyirdim. Ernesto ilə birlikdə keçirdiyimiz günləri davamlı olaraq yenidən yaşayırdım. Onun səhv bir hərəkətini tapmaq üçün hər an hər bir hərəkətini xatırlayıb nəzərdən keçirirdim. Məni bu, ya da başqa bir şübhəyə salacaq bir dəlil axtarırdım. Bu işgəncə nə qədər davam etdi? Ay yarım, ya da iki ay olardı. Noeldən əvvəlki həftə araçılıq edən rəfiqəmin evinə məktub gəldi, ehtişamla beş səhifəlik bir əlyazmayla yazılmışdı.
Nəşəm o an yerinə gəldi. Məktub yazıb, cavabını gözləməklə qış, sonra bahar da qurtardı. Dayanmadan Ernestonu düşünməyim zamanı dərk etmə qabiliyyətimi dəyişdirmişdi, bütün enercim qeyri-müyyən bir gələcəyə - onu təkrar görə biləcəyim hər hansı bir ana yönəlmişdi.
Məktubundakı dolğunluq bizi bir-birimizə bağlayan duyğudan əminliyimi saxlamışdı. Bəlkə bu uzun ayrılığın bizdə dərin bir əzab yaratmaması sənə qəribə görünə bilər, amma doğru deyildi ki, əzab çəkmirik. Mən də, Ernesto da bu məcburi ayrılıq uzündən

məhv olurduq, amma bu başqa duyğulara qarışmış bir əzab idi, həsrət həyəcanı içində əzab ikinci plana keçirdi. Evli və yetkin insanlarıq, hadisələrin başqa cür olmayacağını bilirdik. Bəlkə bunlar bu gün olsaydı mən bir ay belə keçmədən Avqustoya boşanmaq istədiyimi söyləyərdim, o da arvadından ayrılardı və Noeldən qabaq eyni evdə yaşamağa başlayardıq. Hələ də mənə elə gəlir ki, münasibətlərdəki asanlıq sevgini ucuzlaşdırır, xəfiflədir. Necə ki, keksi hazırlayarkən mayanı yaxşı qarışdırmasan onda keksin üzü eyni formada qabarmaqdansa, yalnız bir tərəfi qabarar, partlayar, keks dağılar və qabdan lava kimi axmağa başlayar. Ehtirasın oxşarsızlığı da belədir, axıb gedər.
O dövrlərdə sevdiyin bir insanın olması çox sadə bir şey deyildi. Əlbəttə Ernestoyçün daha asan idi. Həkim olduğu üçün hər zaman seminar, yarış, təcili bir hadisə uydura bilərdi, evdarlıqdan başqa bir peşəsi olmayan mənim kimilər üçün bu, qeyri-mümkün idi. Heç şübhə yaratmadan bir neçə saat, ya da bir neçə gün evdən uzaqlaşmaq üçün tutarlı bir bəhanə tapmalıydım. Bu səbəbdən Pasxa bayramından əvvəl Latın dili həvəskarları adlı bir dərnəyə üzv oldum. Mənim qədim dillərə maraq göstərdiyimi bilən Avqusto nə şübhələndi, nə də bunun əksinə çıxdı, hətta deyərdim ki, buna həvəsim olduğuna görə sevindi.
O il gözlərimi yumub açınca yaz gəldi. İyunun sonunda hər il olduğu kimi Ernesto isti sulara döndü, mən də Avqusto və atamla birlikdə dəniz kənarına getdim. O ay Avqustoya bir övlad sahibi olmaq arzumu bildirdim. Otuz bir avqustda erkəndən Avqusto məni Porretta qatarına apardı. Yol boyunca həyəcandan yerimdə dura bilmirdim, pəncərədən keçən il gördüyüm yerləri görürdüm, yenə də hər şey mənə bambaşqa görünürdü.
İsti sularda üç həftə qaldım, bu üç həftəni həyatımın geridə qalan hər günündən mənalı yaşadım. Bir gün Ernesto işdəykən parkda gəzirdim: o an ağlıma ölümün nə qədər gözəl olacağı gəldi. Qəribə görünə bilər, amma ən mənalı xoşbəxtlik ən qorxunc bədbəxtlik qədər zidd bir arzunu yarada bilər. Sanki uzun müddətdir yeriyirəm, illərdir bu mövzuda torpaq yolları aşıram: daha irəli gedə bilmək üçün kiçik bir külünglə özümə bir tunel açırdım, irəliləyirdim və ətrafımda, ayaqlarımın altında heç bir şeyi görə bilmirdim. Önümdə bir uçurum, bir çuxur, böyük bir kənd, ya da bir çöl ola bilərdi - deyə düşünərkən qoruq birdən-birə açılmışdı, hiss etmədən təpəyə dırmaşmış, özümü qəflətən bir təpənin zirvəsində görmüşdüm. Bir az əvvəl günəş doğmuşdu, önümdə dağlar fərqli tonlarda üfüqə doğru uzanırdı, hər şey açıq-maviydi, yüngül bir yel təpəni, təpəni və başımı, başımı və içindəki düşüncələri oxşayırdı. Hərdən aşağıdan bir gurultu, bir it hürüşməsi, bir kilsə zənginin səsi eşidilirdi. Hər şey qəribə bir xəfiflikdə və intensiv idi. İçimdə və çölümdə hər şey bir-birinə əngəl yaratmadan nizamla yerləşmişdi. Artıq buradan enmək, o meşəyə dönmək istəmirdim, özümü maviliyə atmaq, sona qədər orda qalmaq, həyatla zirvədə vidalaşmaq istəyirdim. Bu düşüncələr axşamadək, Ernestonu görənə qədər beynimdə dolaşdı. Amma axşam yeməyində ona söyləməyə cəsarət etmədm, güləcəyindən qorxdum. Gecə otağıma gəlib mənə sarılanda söyləmək üçün ağzımı qulağını yaxınlışdırdım. Ona demək istəyirdim ki, ölmək istəyirəm. Halbuki nə söylədim: «Bir uşaq istəyirəm».
Porrettadan ayrılanda hamilə olduğumu bilirdim. Zənn edirəm Ernesto da bilirdi, çünki son günlərdə canı sıxılırdı, az danışırdı. Mənsə elə deyildim. Bədənim, içimdə yeni bir can doğduğu səhərdən başlayaraq dəyişməyə başladı, uzüm daha işıltılı oldu. Belə qısa zamanda insan fiziologiyasının yeni vəziyyətə uyğunlaşması inanılmazdı. Bir anda özümü sonsuz bir xoşbəxtliyə bürünmüş hiss edirdim. O ana qədər heç zaman belə bir şey yaşamamışdım.
Qatarda tənha qalanda beynimə qorxunc düşüncələr daraşdı. Ernestonun yanında olduğum müddətdə uşağı qoruyacağımdan əmin idim. Avqusto, Triestedəki həyatım, insanların dedi-qodusu, hər şeydən o qədər uzaq idik ki. Artıq təhlükənin yaxınlaşdığını hiss etməyə başlamışdım, hamiləliyimin sürətlə davam edəcəyini düşünüb tez bir qərara

gəlməliydim. Verdiyim qərardan vaz keçməməliydim. Üstəlik anladım ki, uşağı məhv etmək saxlamaqdan daha çətindi. Bunu Avqustodan gizlədə bilməzdim. Bu qədər müddətdə bir övlad sahibi olmaq arzusundan sonra ona bunu necə izah edə bilərdim ki? Əslində mən onu heç aldırmaq istəmirdim; içimdə böyüməkdə olan bu canlıdan bir an qabaq azad olmaq ən böyük səhv idi. Bu bir arzumun reallaşması idi, o bəlkə də bütün həyatımın ən böyük və ən davamlı arzusuydu.
Bir insanı sevəndə-onu bütün bədən və ruhunla sevəndə ondan bir uşaq istəmək ən təbii şeydir. Burada zehni, məntiqi təməllərə dayanan bir seçim əsas məsələ deyildir. Ernestonu tanımamışdan qabaq bir övladımın olmasını xəyal edirdim və bunu niyə istədiyimi, artıq və əksiklikləri çox yaxşı blilirdim. Bu məntiqi bir seçimdi, çünki artıq müəyyən yaşdaydım və çox tənhaydım. Çünki bir qadın idim və ana olmaq qadınların vəzifəsidir. Anlayırsanmı? Amma o gecə Ernestoya arzumu söylədiyim zaman bu, ayrı bir şeyi idi, tam olaraq yaxşı niyyətli bir qərar deyildi, amma bu qərar bütün yaxşı niyyətlərdən güclü idi. Sonra qaldı ki, bu, bir qərar da deyildi, bir çılğınlıqdı, dili olmayan bir sahib olma arzusunun finalı idi. Ernestonu mənimlə, yanımda sona qədər olmasını istəyirdim. İndi necə davrandığımı oxuyarkən bəlkə də ürpəcəksən, belə düşük, bəsit xüsusiyyətlərimin olduğunu daha qabaqlar hiss etmədiyinə görə təəcüblənəcəksən. Trieste stansiyasında bacardığım tək şeyi etdim və aşiq bir qadın rolunu oynadım. Avqusto məndəki bu dəyişiklikdən o an təsirləndi, suallar verməkdənsə oyunuma qatıldı. Bir ay sonra bu uşağın özündən olduğuna əmin idi. Ona test nəticələrini bildirəndə səhər erkən ofisindən gəldi, körpənin gəlişi ilə evdə nə kimi dəyişikliklər edəcəyimizi qərarlaşdırdıq. Atamın qulağına yaxınlaşıb ona yüksək səslə xəbəri söyləyəndə əllərmi əllərinin arasına aldı, tutdu və beləcə gözləri yaşardı, qızardı. Xeyli müddətdir ki, karlıq onu həyatdan ayırmışdı, düşünmə və danışma qabiliyyətini itirmişdi, iki cümlə arasında fasilə verir, ya da araya dəxli olmayan xatirələrini salırdı. Heç bilmirəm, nədənsə onun gözyaşları məni duyğulandırmaqdansa, azacıq hirsləndirdi. Bunda bir sünilik hiss etmişdim. Əslində nəvəsini görə bilmədi, hamiləliyimin altıncı ayında yuxudaykən heç bir əzab çəkmədən öldü. Onu tabutun içində uzanmış görəndə nə qədər zəiflədiyinə və yaşlandığına təəcübləndim. Üzündə hər zaman olduğu kimi qeyri-müəyyən bir ifadə vardı.
Test nəticəsini Ernestoya da yazdım; on gün keçmədən cavabı gəldi. Məktubu açmamışdan xeyli gözlədim. Çox həyəcanlıydım və zərfin içindən xoş olmayan nəyinsə çıxacağından qorxurdum. Ancaq nahardan bir müddət sonra oxumağa cəsarət etdim. Söylədikləri anlaqlı və məntiqliydi: «ən yaxşı həll budurmu bilmirəm? Amma belə qərar verdinsə qərarına hörmət edirəm».
O gündən sonra bütün əngəlləri aşmış bir halda gözləməyə başladım. Özümü bir canavar kimi hiss edirdimmi? Elə idimi? Bilmirəm. Hamiləliyim boyunca və sonrakı illərdə nə bir şübhə, nə peşimanlıq hiss etdim. Bətnimdə, həqiqətən sevdiyim insanın uşağını daşıyarkən necə olur ki, özümü başqa bir adamı sevirmiş kimi hərəkət edirdim. Amma, görürsən həyatda heç bir şey bu qədər bəsit deyil, mütləq qara, ya da bəyaz yoxdur, hər zövq içində fərqli tonlar daşıyır. Avqustoyla incə və mehriban davranmaqda çətinlik çəkmirdim. Çünki onu həqiqətən sevirdim, bu Ernestoya hiss etdiyimdən fərqli bir sevgidi. Onu bir qadının bir kişiyə bəslədiyi sevgi ilə deyil, bir bacının ağılsız böyük bacısına bəsldiyi duyğularla sevirdim. O, mənimlə pis davransaydı hər şey başqa şəkildə olardı. O zaman bir övlad dünyaya gətirib onun yanında qalmağı xəyal belə edə bilməzdim, o, yalnız ölümü üçün sistemli və planlı bir adamdı, bundan o tərəfə baxanda zərif və gözəl ürəkliydi. Bu uşağa sahib olduğu üçün xoşbəxt idi. Mən də ona övlad bəxş etdiyim üçün xoşbəxt idim. Niyə bu sirri ona açmalıydım ki? Bunu etməklə üç həyatı sona qədər bədbəxtliyə məhkum edərdim. Ən azından o zaman belə düşünürdüm. İndi qadınların belə müstəqilliyi, seçim şansı varkən etdikləri hərəkətlər həqiqətən qorxunc görünə bilər, amma o zamanlar – mən bu vəziyyəti yaşadığım dövrdə- çox yayılmış bir hal idi, hər cütlüyün yaşadığı bir əhvalat deməyəcəyəm, amma qadınlar evli olsalar da,

başqa kişilərdən uşaqları olurdu. Yaxşı, sonu nə ilə bitirdi? Mənə olduğu kimi heç bir şeylə. Uşaq dünyaya gətirir, o biri bacı-qardaşlarıyla bərabər səviyyədə heç kim heç nədən şübhələnmədən böyüyürdü. Ailə o dövrdə çox möhkəm təməllərə söykənirdi, onu dağıtmaq üçün fərqli bir uşaqdan fərqli, başqa şey baş verməli idi. Anan üçün də vəziyyət belə oldu. Doğuldu və o anda mənim və Avqustonun qızı oldu. Mənim üçün ən əhəmiyyətli şey İlarianın bir tanışlığın, razılaşmanın, sıxıntının deyil, bir eşqin bəhrəsi olmasıydı; bunun bütün problemləri həll edəcəyini düşünürdüm. Necə də yanılmışam! Lakin ilk illərdə hər şey yoluyla getdi, bir axsaqlıq çıxmadı. Onun üçün yaşayırdım, sevgi dolu, diqqətcil bir anaydım, bəlkə də elə olduğumu düşünürdüm. İlk yayadan başlayaraq ən isti ayları Adriatik dənizinin sahillərində keçirməyi vərdiş etmişdim. Bir ev kirayələmişdik, iki-üç həftədən bir, həftə sonları da Avqusto da gəlib bizimlə qalırdı. Ernesto qızını ilk dəfə o sahildə gördü. Bir yad kimi davranırdı. Bizimlə təsadüfi rastlaşmış kimi gəzinti zamanı yanımızda yeriyirdi, bizdən bir-iki plyac çətiri o yanda oturur və Avqusto olmayanda bir qəzet, ya da kitabın arxasından saatlarla bizi müşahidə edirdi. Sonra axşamlar mənə uzun məktublar yazır, ağlından keçən hər şeyi, bizə qarşı hiss etdiklərini, gördüklərini izah edirdi. Bu müddətdə arvadının bir uşağı da olmuşdu, o da istisulardakı mövsümi işini buraxıb öz kəndində- Ferrarada şəxsi bir müayinəxana açmışdı. İlarianın iki-üç yaşına qədər bu görüşləri bir yana qoysaq heç görüşmədik. Mən uşağla çox məşğul idim, hər səhər onun varlığının sevinciylə oyanırdım, istəsəm də heç nə ilə məşğul ola bilmirdim.
Ayrılmamışdan qabaq Ernesto ilə bir razılığa gəldik. Ernesto demişdi: «Hər axşam saat tam on birdə harda və necə olsam da bayıra çıxacaq və göy üzündə qütb ulduzunu axtaracağam. Sən də belə edəcəksən və bir-birimizdən çox uzaq, uzun zaman görüşməmiş olsaq da, artıq bir-birimiz haqqında heç xəbər tutmasaq da belə düşüncələrimiz yuxarıda görüşəcək və birlikdə olacaq». Sonra birlikdə pansiyonun balkonuna çıxmış və barmaqlarımızla ulduzları axtarmışdıq. Mənə Orion və Bətərgə arasında olan Qütb ulduzunu göstərmişdi.

12 dekabr
Bu gecə bir səslə qəfldən oyandım. Telfonun uzun müdət çaldığını bir neçə dəqiqədən sonra hiss etdim. Mən yerimdən qalxınca səs kəsildi. Yenə də dəstəyi götürdüm və yuxulu səsimlə bir-iki dəfə: «alo» - söylədim. Sonra yatağıma qayıtmayıb yanındakı oturacaqda əyləşdim. Sənmiydin? Başqa kim ola bilərdi ki?! Gecənin səsizliyində o səs məni sarsıtdı. Ağlıma bir neçə il öncə rəfiqələrimdən birinin söylədiyi bir əhvalat gəldi. Bir müddət idi ki, əri xəstəxanadaydı. Görüş saatlarının qaydalarına uyğun olaraq əri öldüyü an yanında ola bilməyibmiş. Onu bu şəkildə itirməyinin dərdindən ilk gecə yata bilməmişdi və qaranlıqda otururkən qəfldən telefon zəng çalmışdı. Çox təəccüblənmişdi, kimsə gecənin bu saatlarında başsağlığı vermək üçün zəng edə bilərdimi? Əlini telefona uzadanda qəribə bir hadisə diqqətini səkmişdi, telefondan titrək bir işıq yayılırdı. Dəstəyi qulağına yaxınlaşdıranda dəhşətə gəlmişdi. Qarşı tərəfin səsi çox uzaqdan gəlirdi, sanki çətinliklə danışırdı. Uğultular və gurultular arasından deyirdi: «Marta, getməmişdən qabaq səninlə vidalaşmaq istəmişdim…». Ərinin səsiydi. Bunu deyəndən sonra bir anda şiddətli bir külək səsi eşidilmiş, xətt kəsilmiş və sakitlik olmuşdu.
O zaman rəfiqəmi çəkdiyi bu əzabdan pis vəziyyətdə görmüşdüm; ölülərin əlaqə qurmaq üçün ən müasir cihazlardan yararlanması məni olduqca təəccüblü gəlmişdi. Yenə də bu əhvalat məndə bir iz buraxmış olmalıdır. Ürəyimin lap dərinliklərində bəlkə mən də gecənin bir yarısında o biri dünyadan məni salamlamaq istəyən bir nəfərin telefon edəcəyini ümid edirəm. Qızımı, ərimi və dünyada hər kəsdən çox sevdiyim kişini torpağa tapşırdım. Öldülər, artıq yoxdurlar. Hələ də bir dəniz qəzasından xilas olmuş adamlar kimi davranıram. Axın məni sağ-salamat bir adaya sürüklədi, dostlarımdan heç xəbər tuta bilmədim, təknə çevrildiyi anda onları gözdən itirdim, ola bilər ki, boğulublar – belə olduqları qətidi – belə olmaya da bilər. Aradan aylar, illər keçsə də tez-tez

yaxınlıqdakı adalara nəzər salırdım, bir meh, bir duman işarəsiylə eyni səma altında mənimlə yaşadıqlarına dair bəslədiyim ümidləri sübut edəcək bir dəlil axtarıram.
Ernesto öldüyü gecə, müdhiş bir gurultuyla qəfldən oyandım. Avqusto işığı yandırdı və: «kimdir» - deyə səslədi. Otaqda heç kim yox idi, hər şey yerli-yerindəydi. Səhər qardirobu açanda rəflərin düşdüyünü, corabların, yaylıqların, paltarların üst-üstə qalandıqlarını gördüm. Əlbəttə, indi Ernestonun öldüyü gecədir deyə bilərəm. O zaman bunu bilmirdim, ondan yenicə məktub almışdım, nəyinsə baş verəcəyi ağlıma belə gəlməzdi. Nəm üzündən rəflərin dayaqlarının çürüdüyünü və yükə davam gətirməyib düşdüklərini düşündüm. İlaria dörd yaşındaydı, onunla və Avqustoyla artıq həyatım sakit keçirdi. O gün nahardan sonra Latın dili həvəskarlarının toplantısından sonra Ernestoya yazmaq üçün bir kafeyə getdim. İki ay sonra Montavada bir toplantı olacaqdı, bu, görüşməyimiz üçün uzun zaman gözlədiyimiz bir fürsət idi. Evə dönmədən məktubu göndərdim vənövbəti həftəyə cavab gözləməyə başladım. Nə o həftə, nə də sonra bir məktub aldım. Bu qədər uzun müddət gözləməmişdim. Əvvəl poçt gecikmələriylə bağladım, sonra «yəqin xəstələnib, müayinəxanaya gəlməyib» -deyə düşündüm. Bir ay sonra ona qısa bir qeyd yazdım, o da cavabsız qaldı. Günlər keçdikcə özümü bünövrəsi su altında qalmış bir evdə hiss etməyə başladım. Əvvəl su betonu yalayıb keçirdi, amma zaman keçdikcə su daşqına çevrildi, bünövrənin betonu quma döndü, ev isə hələ salamat idi, bilirdim ki, ən kiçik bir zərbə evi dağıtmağa bəsdir, ev oyun kartındakı bir qəsr kimi yerlə- yeksan olacaqdı.
Toplantıya getmək məqsədilə yola çıxanda sanki özümün gölgəsi kimiydim. Mantavada gözə göründükdən sonra Feraraya getdim, orda nə baş verdiyini anlamaq istəyirdim. Müayinəxanada heç kim yox idi, çöldən baxdıqda pəncərələr bağlıydı. İkinci gün bir kitabxanaya gedib köhnə qəzetləri nəzərdən keçirtdim. Kiçik bir xəbərdə axtardığımı tapdım. Bir gecə xəstəyə baş çəkib geri dönərkən avtomobilin nəzarətini itirmişdi və böyük bir çinara çırpılmışdı; o an ölmüşdü. Ölüm günü və saatı elə mənim qardirobumun dağıldığı zaman idi.
Razman xanımın ara-sıra gətirdiyi curnalların birinin astroloci səhifəsində şiddətli ölümlərdən Marsın-8-də olanların taleyinin müəmmalı olduğunu oxumuşdum. Bu məqalədə yazılanlara görə ulduzu bu mövqedə olan insanlar rahatlıqla ölməzlər. Görəsən, Ernesto və İlarianını ulduz xəritəsində belə bir uğursuzluğmu baş vermişdi. İyirmi ilin içində ata və qızı eyni formada avtomobillərini bir ağaca çırparaq can verdilər. Ernestonun ölməyiylə dərin bir uçuruma yuvarlandım. Birdən-birə hiss etdim ki, son illərdə yaydığım işıltı mənim içimdən gəlmirdi, yalnız məndə əks olunan bir işıq idi. Xoşbəxtlik, həyata bəslədiyim məhəbbət həqiqətən mənə aid deyildi, mən yalnız bir ayna rolunu oynamışdım. O işığı Ernesto yayırdı, mən də onu əks etdirirdim. O, öləndən sonra hər şey yenidən donuqlaşmışdı. İlarianı görmək daha mənə nəşə deyil, rahatsızlıq verirdi, elə dərindən sarsılmışdım ki, onun Ernestonun qızı olduğundan belə şübhələnməyə başlamışdım. Dəyişikliyim onun gözündən də qaçmadı,  uşaq həssaslığı ilə ondan uzaqlaşmağımı hiss etdi, karprizli və qaba bir qız oldu. Artıq canlı və gənc sarmaşıq o idi, mənsə boğulmağa hazır yaşlı ağac idim. Vicdan əzabımın qoxusunu bir tazı kimi hiss etmişdi və bundan istifadə edirdi. Ev kiçik bir cəhənnəmə dönmüşdü. Yükümü yüngülləşdirmək məqsədilə Avqusto uşağa baxmaq üçün bir dayə tutdu. Bir müddət qızına da böcəklərə məhəbbət aşılamağı sınaqdan keçirdi, amma iki-üç təcrübədən sonra bundan vaz keçdi. Çünki  qız hər dəfə: « nə iyrəncdir» -deyə bağıraraq aləmə səs salırdı. Birdən–birə Avqusto da yaşlanmağa başladı, uşağın atası deyil, babası kimi görünürdü, onunla həlim, amma məsafə saxlayaraq davranırdı. Aynanın qabağından keçəndə mən də özümü çox yaşlı görürdüm, cizgilərimdə indiyədək olmayan bir sərtlik vardı. Özümü bəyənməməyimi, özümə qarşı səhlənkarlığımı büruzə verirdim. Məktəb və dayəyə görə boş vaxtım çox  idi. Daxilimdəki sıxıntıya görə vaxtımı oturaq keçirmək istəmirdim, avtomobilə minir Çarsoda gəzir, avtomobili trvnzit halında sürürdüm.

Aquiladakı kimi yenidən bəzi dini kitabları oxumağa başladım. O səhifələr arasında eşələnərək olanlara bir cavab axtarırdım. Yeriyərkən öz-özümə Övliya Aqostinonun anasının ölümündə söylədiklərini təkrarlayırdım, «Onu itirdiyimiz üçün kədərlənməməliyik, ona sahib ola bildiyimiz üçün şükr eməliyik».
Bir rəfiqəm məni iki-üç dəfə günah çıxaran keşişin yanına apardı, amma bu görüşdən daha da qəmgin çıxırdım. Söylədikləriylə mənə yaxın olmağa çalışırdı, inamın gücünü də elə adiləşdirirdi ki, sanki inam küçədəki hər baqqalda tapılan çərəz idi. Mənə aid heç bir işığımın olmadığını kəşf etməyim məni suallar arasında qoydu. Bax onunla qarşılaşanda bir anda bütün həyatımın mənalandığını düşünmüşdüm, var olduğum üçün xoşbəxt idim, ətafımda var olan hər şeydən ötrü sevincliydim. Elə hiss edirdim ki, həyatımın ən yüksək, ən sağlam hissəsindəyəm, əmin idim ki, məni bu nöqtədən heç bir şey və heç kim tərpətməyəcək. Hər şeyi anlayan insanlara xas bir inama sahib olmuşdum. Elə sanırdım ki, bu zamana qədər yolları öz ayaqlarımla aşmışam, halbuki təkbaşıma heç bir addım belə atmamışdım. Hiss etməsəm də altımda bir at vardı və irəliləyən elə o idi, mən yox. At itər-itməz ayaqlarımın nə qədər çəlimsiz olduğunu hiss etdim. Addımlarım kiçik bir uşağın, ya da yaşlılarınki kimi gücsüzdü. Bir anda hər hansı bir çəlikə söykənməyi düşündüm: bu din, ya da bir işlə məşğul olmaq ola bilərdi. Bu da qısa sürən bir düşüncə oldu. O an düşündüm ki, bu yeni bir səhvdən başqa bir şey olmayacaqdı. Artıq qırx yaşında yeni səhvlərə yer yoxdur. Bir an üçün insan çılpaq olduğunu duyarsa, aynaya olduğu kimi baxmaq cəsarətini özündə tapmalıdır. Hər şeyə yenidən başlamalıydım. Söyləmək asan, ancaq həyata keçirilməsi çox çətindir. Mən harda idim? Mən kimi idim? Son dəfə mən özüm nə vaxt olmuşdum? Söylədiyim kimi nahardan sonra bütün vaxtımı gəzinərək keçirirdim. Bəzən tənhalığın halımı daha da pisləşdirəcəyini hiss edən an kəndə enir, kütləyə qarışır, tanış küçələrdə təsəlli axtarırdım. Sanki mənim də bir işim vardı, Avqusto çıxan kimi çıxır, onunla birlikdə evə dönürdüm. Məni müalicə edən həkim ona söyləmişdi ki, bəzi ruh düşkünlüyü zamanı belə davamlı hərəkət etmək istəyənlər də olur. İntihar fikrinə düşmədiyimə görə gəzməyimin bir təhlükəsi yoxdur. Avqustoya görə, əlbəttə bir gün qaça-qaça yorulacaqdım. Avqusto həkimin bu açıqlaması ilə kifayətlənmişdi. Həqiqətən inanmışdımı, bilmirəm, bəlkə də soruşmağa tənbəllik edirdi, ya da rahatlığını pozmaq istəmirdi, mən isə bir kənara çəkilib bu bədbəxtliyimi əngəlləmədiyi üçün ona minnətdar idim.
Həkim bir məsələdə haqlıydı ki, bu böhranlı halımda intihar fikrinə düşmürdüm. Qəribədi, amma həqiqətən beləydi. Ernestonun ölümündən sonra bir an olsa belə özümü öldürmək fikrinə düşmədim, düşünmə ki, İlaria buna əngəl olurdu. Söylədim ki, o anda heç bir şey fikrimdə deyildi. Daxilimdən bir səs mənə bu ani ölümün arxasında yatan həqiqətin belə olmadığını, olmamasının lazımlığını söyləyirdi. Burda bir məna vardı, bu məna isə mənim önümdə nəhəng bir nərdivan kimi yüksəlirdi. Görəsən bu ona görə önümdəydi ki, onu aşım? Bəlkə də bəli, amma arxasında nə olduğunu kəşf edə bilmirdim. Görəsən dırmaşsam arxasında nəyi görəcəkdim?
Bir gün avtomobillə əvvəllər heç görmədiyim bir yerə gəldim. Ətrafında kiçik qəbirstanlığı olan bir kilsə vardı, ağaclarla əhatəli yamacların birinin zirvəsindən tarixin izləri görünürdü. Kilsənin bir az o yanında iki-üç kəndlinin evi vardı, toyuqlar yollarda sərbəst gəzinir, ara-bir itlər hürürdü. «Tabelada Samatorza» yazılmışdı. Samatorza adı mənə tənhalığı, düşüncələrin toplana biləcəyi bir yeri yada salırdı. Ordan daşlı bir cığır başlayırdı. Haraya getdiyimi bilmədən qaçmağa başladım. Günəş batmağa başlamışdı, amma yeridikcə durmaq istəmirdim, arada-bir rastlaşdığım canlılar məni həyəcanlandırırdı.
İrəlidə məni çağıran nəsə vardı, bunun nə olduğunu irəlidə, ağacların seyrəldiyi yerdə anladım, ortada vüqarlı, məni qucaqlamaq üçün açdığı qollarıyla əzəmətli bir çinar vardı. Gülüncdü, amma onu görər-görməz ürəyim başqa cür döyünməyə başladı, döymək də deyil, dəli kimiydi, sanki sevinmiş bir heyvan idi, Ernestonu gördüyüm zaman belə

döyünərdi. Çinarın altında oturdum, onu oxşadım, çiynimi və peysərimi onun gövdəsinə dayadım.
Uşaqkən köhnə yunan dəftərimin üzünə belə yazmışdım: «Gnosei Seauton». Çinarın altında hafizəmə hopmuş olan bu cümlə qəfldən ağlıma gəldi. «Özünü tanı» -söyləyərək dərin bir nəfəs aldım.

16 dekabr
Bu gecə qar yağdı, oyananda bağçanın ağappaq olduğunu gördüm. Busk çəmənlikdə dəli kimi qaçır, tullanır, hürür, ağzına bir budaq götürüb havaya atırdı. Sonra Razman xanım mənə baş çəkməyə gəldi, bir qəhvə içdik, Noel gecəsini birlikdə keçirmək üçün məni dəvət etdi. Getməmişdən: «Bütün günü nə edirsiniz?»-deyə soruşdu. Çiynimi silkələdim. «Heç»-deyə cavab verdim, - «bir az televizora baxıram, bir az düşünürəm». Sənin barəndə heç nə soruşmur, sözü oraya gətirməyə çalışır, amma səs tonundan anlayıram ki, sənin nankor olduğunu düşünür. Bunu xüsusilə deyir ki, gənclər qəlbsizdirlər, artıq onlarda əvvəlkilər tək hörmət yoxdur. Sözü uzatmasın deyə onu təsdiqləyirəm, amma ürəkdən inanıram ki, ürəklərdə heç bir dəyişiklik yoxdur, yalnız indi az saxtakarlıq var, bu qədər. Düşünürəm ki, yaşlıları təbiətləri qədər müdrik olmadıqları kimi, gənclər də təbiətləri qədər xudbin deyillər. Anlamaq və anlamamaq yaşla deyil, hər kəsin haqq etdiyi yola əlaqəlidir. Yaxın zamanlarda bir yerdə oxuduğuma görə Amerika qızıldərililərinin belə bir deyimi vardır: «Bir insanı mühakimə etməmişdən qabaq göydə üç ay azalana qədər onun molekullarında yeri». O qədər xoşuma gəldi ki, unutmamaq üçün telefonun yanındakı qeyd dəftərinə yazdım. Kənardan baxanda çoxlarının həyatı barədə səhv, məntiqsiz fikrə gələ bilərsən. Onlardan kənarda qaldığın müddətdə insanları və onların münasibətlərini səhv mühakimə edə bilərsən. Yalnız içindən, yalnız göydə üç ay dəyişənə qədər onun molekullarının içində yeriyərək stimullar, duyğular, insanı elə deyil, belə davranmağa istiqamətləndirənin nə olduğunu anlaya bilərsən. Anlamaq qürurlu savadla deyil, təvazökarlıqla yaranır. Görəsən bu hekayəni oxuduqdan sonra sən də mənim başmaqlarımı ayağına keçirəcəksənmi? Ümid edirəm ki, edərsən. Ümid edirəm mənim tərliklərimlə uzun müddət otağdan-otağa gəzər, bağçada bir dəfə dolanar, qoz ağacından gilas ağacına, gilas ağacından gülə, güldən bağın ətəyindəki o sevimsiz qara şam ağaclarına tərəf yeriyərsən. Bunu edəcəyini ümid edirəm. Bu sənin şəfqətini diləndiyim, gecikmiş bir bəraət üçün deyil, sənin üçün, sənin gələcəyin üçün lazımdır. Haradan gəldiyini, arxamızda nələrin olub-bitdiyini anlamaq, yalan-palansız irəliləyə bilmək üçün ilk addımdır.
Bu məktubu anana yazmalıydım, halbuki sənə yazdım. Heç yazmasaydım onda mənim varlığım tam mənasız olardı. Hər kəs səhv edə bilər, amma bunlardan dərs götürmədən irəliləmək həyatın mənasızlığına yol açar. Başımıza gələnlər heç bir zaman səbəbsiz deyildir, hər birinin öz mənası vardır. Hər qarşılaşma, hər kiçik hadisə içində bir məna yerləşdirir. İnsanın özünü anlaya bilməsi onu qəbul etmək səlahiyyətindən, hər vəziyyətdə yön dəyişdirə bilmə bacarığından, kərtənkələlər kimi mövsüm dəyişikliklərində köhnə dərini tərk edə bilməsindən yaranır.
Təxminən qırx yaşındaykən o gün yunan dəftərimdəki cümləni xatırlaya bilməsəydim, irəli getmədən orda bir nöqtə qoymasaydım, o ana qədər etdiyim səhvləri təkrarlayacaqdim. Ernestoya aid xatirələrdən yaxa qurtarmaq üçün yeni bir sevgili tapa bilərdim… Amma heç kimsə onun tayı olmayacaqdı. Bəlkə gülünc bir qarı olacaqdım. Ya da ki, Avqustoya nifrət edə bilərdim. Mənim daha cəsarətli qərarlara gəlməyimə əngəl olan onun varlığı deyildimi? Anlayırsanmı? İnsan öz daxili dünyasına baxmaq istəmədiyi zamanda daha asanlıqla bəhanələr tapır. Hər kəs günah işlədə bilər. Günahın – ya da məsuliyyətin – yalnız bizə aid olduğunu qəbul etmək çox cəsarət tələb edir. Yenə də sənə söylədiyim kimi irəliləmək üçün tək yol budur. Əgər həyat bir yoldursa, həmişə yoxuş yuxarı gedən bir yoldur.

Qırx yaşımdaykən anladım ki, yola hardan başlayacağam. Haraya çatacağımın lazım olduğunu anlamağım isə əngəlli, böyük bir enerci tələb edən proses oldu. İndi televizorda, qəzetlərdə görürük ki, saxta övliyalar, peyğəmbərlər törəyir; bugundən sabaha onların törəmələri də çayır otu kimi artır. Bütün bu təriqət liderlərinin, rahat və beynəlmiləl uyğunluğunu öz daxilində tapa bilmək üçün təklif etdiyi yolların artması məni ürküdür. Bunlar böyük və ümumi bir çaşqınlığın antenalarıdır. Geci-tezi bir minilliyin sonundayıq, tarix bəsit bir ədəd sırasını göstərsə də yenə də insanı ürküdür, hər kəs qorxunc bir şeyin baş verəcəyini gözləyir, buna görə hazırlıqlı olmağa çalışırlar. Bu səbəblə də mollalara gedir, özləri tapmaq üçün məktəblərə yazılırlar, bu işlərə bir ay davam etdikdən sonra peyğəmbərləri, övliyaları fərqləndirə biləcək bir qürura bürünürlər. Nə qədər böyük, nə çox təkrarlanan, nə qədər qorxunc bir yalandır!
Mövcud olan tək həqiqət və inanılası müəllim insanın öz vicdanıdır. Buna yiyələnmək üçün tənha və sakitlikdə qalmaq, çılpaq torpağa, çılpaq və ətrafında heç bir şeyin olmaması şərtiylə sanki ölmüş kimi oturmalısan. Əvvəla, heç bir şey hiss etməzsən, tək dərk etdiyin qorxudur, amma sonra dərindən, uzaqdan bir səs eşitməyə başlayarsan, bu durğun bir səsdir, və bəlkə də ilk anda yeksənəkliyi səni narahat edir. Qəribədir, ən ali sözləri eşitmək istəyərkən qarşına ən əhəmiyyətsizləri çıxar. Bunlar elə kiçik və tanış şeylərdir ki, bağırmağın gəlir: «Necə yəni, hamısı budurmu?». «Həyatın bir mənası varsa, – səs sənə deyəcəkdir, –bu məna ölümdür, başqa şeylər onun ətrafında fırlanır». Bu nöqtədə kəşf etdim deyəcəksən, amma qorxunc kəşfdir, hər insan, ən uzunömürlü insan belə bilir ki, gec-tez öləcəkdir. Doğrudur, düşüncələrimizdə bunu hamımız bilirik, amma düşüncədə bilmək başqa, ürəkdə bilmək bambaşqadır, təmamilə fərqlidir. Anan bütün qüruru ilə qarşımda dik duranda ona deyirdim: «Ürəyini incidirsən». Mənə gülürdü: «Gülünc olma,- deyə cavab verirdi, - ürək bir əzələ deyil, qaçmasan canına əzab verməsin».
Hər şeyi anladığı zaman onunla söhbət etməyə, məni ondan uzaqlaşdıran şeyi ona anlatmağa çalışdım. Ona «doğru, -deyirdim, - sən uşaq ikən bir müddət sənə qarşı səhlənkarlıq etdim, ağır bir xəstəlik keçirtdim. Xəstə-xəstə səninlə məşğul olsaydım bəlkə də səhhətim daha ağır olacaqdı. İndi isə yaxşıyam, səninlə danışa, mübahisə edə, hər şeyi başdan başlaya bilərik». Amma bunlar onun vecinə belə deyildi. «İndi özümü yaxşı hiss etməyən mənəm»- deyirdi və danışmağa razı olmurdu. Mənim düşdüyüm o çətin vəziyyətə nifrət edirdi. Bunu pozmaq, məni öz kiçik cəhənnəmə bənzər dünyasına sürükləmək üçün əlindən gələni edirdi. Öz vəziyyətinin bədbəxtlik olduğuna qərar vermişdi. Öz içinə çəkilmişdi və istəmirdi ki, həyatı haqqında yaratdığı düşüncəsini kimsə kölgə salsın. Məntiqi olaraq xoşbəxt olmağı arzuladığını söyləyirdi, amma reallıqdaysa on altı, on yeddi yaşında ürəyinin qapılarını hər cür qismətinə bağlamışdı. Mən yavaş-yavaş özümə bir nizam yaradarkən o, əlləri başının üstündə tərpənmədən durur və dünya başına uçsun deyə gözləyirdi. Mənim vəziyyətim onu narahat edirdi, kamodun üstündə İncili gördüyü zaman: «təsəlli axtaracaq nəyin var ki?» -deyirdi.
Avqusto öləndə cənazəsini götürməyə belə gəlmək istəmədi. Ərim son illərdə çox da yüngül olmayan bir damar sərtliyindən evdə uşaq kimi danışa-danışa gəzirdi. İlaria buna dözmürdü. Avqusto bir otağın qapısında görünəndə: «bu bəy nə istəyir?» -deyə bağırırdı. O öləndə anan on altı yaşındaydı, on dörd yaşındaykən ona ata deməyi tərgitmişdi. Avqusto noyabr günlərinin birində nahardan sonra xəstəxanada öldü. Bir gün əvvəl ürək iflici keçirdiyi üçün xəstəxanaya aparmışdıq. Otaqda, yanındaydım, pircama yerinə bəyaz, arxadan bağlanan bir köynək geyindirmişdilər. Həkimlərə görə təhlükəni adlamışdı.
Tibb bacısı yenicə yeməyini gətirmişdi ki, Avqusto dəli kimi qəfldən ayağa qalxdı və pəncərəyə doğru üç addım atdı. «İlarianın əlləri, - donuq bir baxışla, -ailədən heç kimə oxşamır»-dedi. Sonra yatağına döndü və öldü. Pəncərədən bayıra baxdım, yumşaq yağış yağırdı. Başını oxşadım.
On yeddi il boyunca heç bir şey büruzə vermədən bu sirri ürəyində saxlamışdı.

Günorta oldu, gün açıldı, qar əriyir. Evin önündəki bağçada qarın arasından saralan otlar görünür, ağacların budaqlarından su damcılayır. Qəribədir, Avqusto öləndə eyni əzabı duymamışdım. Ani bir boşluq var – boşluq elə eynidir- amma əzabın rəngarəngliyi bu boşluğun içində nizamlanır. Söylənilməyən nə varsa bu boşluğun içində müəyyənləşir, genişlənir, genişlənir. Bu, qapısı, pəncərəsi, çıxış yolu olmayan bir boşluqdur, orda asılı qalan sona qədər qalır, bu boşluq başının üstünü, səni, ətrafını bürüyür və davamlı bir səs kimi səni dolaşdırır. Avqustonun İlaria haqqında həqiqəti bilməsi və bunu heç zaman mənə söyləməməsi məni də sonsuz bir narahatçılıq yaratdı. O anda onunla Ernsto mövzusunda danışmaq, mənim üçün onun necə bir məna kəsb etməsini söyləyə bilmək, ona İlaria barəsində söz açmaq, onunla daha başqa şeylər barəsində mübahisə etmək istəyirdim, amma artıq çox gecdi.
Bəlkə indi əvvəllər sənə nə söylədiyimi anlaya bilərsən: ölülər yoxluqlarıyla deyil, daha çox onlarla bizim aramızda söylənilməyənlər üzündən bizə əzab verirlər.
Ernestonun ölümündən sonra olduğu kimi Avqustonu itirdikdən sonra da təsəllini dində axtardım. Bir az əvvəl bir alman kişiylə tanış olmuşdum, məndən bir neçə yaş böyük idi. Mənim dini ayinlərdən xoşlanmadığımı hiss edəndə mənə bir neçə görüşdən sonra kilsədən kənar yerdə görüşməyi təklif etdi.
Hər ikimiz də ayaqla gəzməyi xoşladığımız üçün birlikdə gəzintilərə çıxmaq qərarına gəldik. Hər çərşənbə günü nahardan sonra ayağında pastalları və köhnə bir bel çantasıyla məni götürməyə gəlirdi, üzü çox xoşuma gəlirdi, mənalı cizgiləri olan ciddi üzü məndə dağlarda böyümüş bir insan təsirini bağışlayırdı.
Əvvəllər onun rahib olması məni qorxudurdu, söylədiklərimin yarısını gizlədirdim, bir qarışıqlıq yaratmaqda günahlanıb mərhəmətsizcəsinə mühakimə edilməkdən qorxurdum. Qəfldən bir gün bir daşın üstündə oturub dincələrkən mənə dedi: «Özünüzə pislik edirsiniz, bilirsinizmi? Yalnız özünüzə». O andan sonra yalan söyləməyi tərgitdim, Ernestonun ölümündən bu yana heç kimsəyə açmadığım ürəyimi ona boşaltdım. Danışdıqca qarşımda bir din adamı olduğunu unutdum. Tanıdığım o biri keşişlərin əksinə o, təqsirləndirici, ya da ovuducu sözlərdən istifadə etmirdi; ürküdücü mesacları şirin bir dillə söyləməyə də səy göstərmirdi. İlk anda insana  sərt təsiri bağışlayırdı. «Yalnız əzab insanı təkamilləşdirir, -deyirdi,- amma əzabla sinə-sinəyə gəlməliyik, qaçmağa çalışan, ya da ağlayıb sızlayanlar itirməyə məhkumdurlar».
Qazanmaq, itirmək; istifadə etdiyi bu terminlər sakit və daxili döyüşümü tamamlamağa yarayırdı. Ona görə insan ürəyi bir üzündə aydınlıq olarkən, bir üzü qaranlıq olan yer kürəsi kimidi. Övliyaların belə hər yanını işıqlırdırmazdı. «Bir bədən sahibi olduğumuz üçün kölgədəyik, qurbağalar, həm quruda, həm də suda yaşayan heyvanlar kimi, bir yanımız burda – yerdə yaşayarkən bir yanımızla yüksəklərə göz dikirik. Yaşamaq yalnız bunun mənasını anlamaq, bunu bilmək, işığın kölgəyə məğlub olmaması üçün mübarizə aparmaqdır. Mükəmməl olduğunu söyləyən hər kəsə etibar etməyin, böyük həqiqətlərin onların cibində hazır olduğunu söyləyənlərə inanmayın, yalnız ürəyinizin səsinə qulaq asın» -deyirdi. Onu heyranlıqla dinləyirdim, uzun müddət çölə çıxmaq üçün içimdə çırpınan düşüncələri belə gözəl bir tərzdə dilə gətirə bilən bir insan tapa bilməmişdim. Sözləri ilə düşüncələrim nizama düşürdü, qəfldən qarşımda bir yol açılırdı, bu yolu aşmaq artıq mənə o qədər mümkünsüz görünmürdü.
Arada bir çiyninə saldığı çantadan xüsusilə sevdiyi bir kitabı çıxarırdı, fasilə verib, aydın, amma inamlı səsiylə bölmələrdən oxuyardı. Onunla rus keşişlərinin dualarını, ürək duasını kəşf etdim. İncilin və müqəddəs kitabların o günə qədər anlamadığım bölmələrini anlaya bildim. Ernestonun ölümündən sonrakı bu illər boyunca bəli, daxilimə yürüş etmişdim, amma bu yalnız öz bildiklərimin sərhədləri arasında təşkil olunmuş bir səfər idi. Bu səfər zamanı özümü bir nöqtədə, bir divarın qabağında görürdüm. Bilirdim ki, yol bu divarın o biri tərəfində daha aydın və genişdir. Amma necə aşağağımı bilmirdim. Bir gün qəflətən leysan yağdığından bir mağazanın girişinə sığındıq. «İnsan inam necə sahibi olar?»- deyə içəridəykən ondan soruşdum. «Buna səy göstərilməz, inam özü

gəlir. Sizin inamınız var, amma qürurunuz bunu qəbul etməyinizə əngəl olur, çox sual verirsiniz, sadə olanı mürəkkəbləşdirirsiniz. Həqiqətdə dəhşətli dərəcədə qorxursunuz. Özününüzü rahat buraxın, ortaya çıxacaq nə varsa çıxacaqdır».
Bundan sonra evə daha qərarsız və ağlım qarışıq halda dönürdüm. Bu sözlər məni yaralayırdı. Dəfələrlə onu görmək istəmədim, çərşənbə günü düşündüm ki, zəng edim və gəlməyin, xəstəyəm deyim, amma zəng etmirdim. Çərşənbə günü nahardan sonra həmin vaxtında qapıya çıxıb gözləyirdim ki, pastaları və bel çantasıyla nə zaman görünəcəkdir.
Gəzintilərimiz bir ildən çox davam etdi, günlərin bir günü onu vəzifəsindən azad etdilər. Sənə anlatdıqlarımdan Tomas atanın qürurlu bir adam olduğunu, sözlərinin və dünyagörüşünün şiddət və təəssüb etifa etdiyini düşünə bilərsən. Halbuki belə deyildi, o bütün varlığıyla tanıdığım ən həlim və üzüyola insan idi, Tanrının bir əskəri deyildi. Şəxsiyyətində bir mistizm vardısa da, bu tamamilə real, gündəlik dünyaya kök salmış bir mistizm idi…
«Bu anda burdayıq» -deyə həmişə təkrarlayardı. Son dəfə eyni vaxtda ayrılarkən qapıda mənə bir zərf verdi. İçində dağ mənzərəsi olan bir kart vardı. Üzündə almanca yazılmışdı: «Tanrının krallığı sizin içinizdədir». Arxasındasa əlyazmayla yazılmışdı: «Çinarın altında oturanda özünüz deyil, çinar olun, meşədə meşə, düzdə düz, insanların arasında insanlarla olun».
Tanrının hökmranlığı içinizdədir, xatırlayırsanmı? Bu cümlə hələ məni Aquilada olarkən təsirləndirmişdi. O zaman gözlərimi yumub, baxışlarımla daxilimə nəzər salarkən heç bir şey görə bilməzdim. Tomas Atayla qarşılaşdıqdan sonra nəsə dəyişmişdi, yeni bir şey görmürdüm, amma bu artıq mütləq bir korluq deyildi, qaranlığın dibində bir işıltı hiss edirdim, arada-bir fasilələrlə özümü unutmağı bacara bilirdim. Bu, balaca, zəif bir işıqdı, kiçik bir qığılcımdı. Söndürmək üçün bir dəfə üfürmək bəs idi. Amma bunun varlığı mənə qəribə bir yüngüllük verirdi. Daddığım bu duyğu xoşbəxtlik deyildi, sevinc idi. Özümü daha müdrik, daha təkmilləşmiş hiss etmirdim. Daxilimdə böyüyən rahatlıq düşüncəsi idi: Çöldə çöl, çinarın altında çinar, insanların arasında insanlarla ol.

20 dekabr
Bu səhər Buskla dama çıxdım. Neçə il olardı ki, oranın qapısın açmırdım! Hər yan toz içindəydi, tirlərin künclərindən hörümçək torları sallanırdı. Uşaqkən dama çıxmağı çox sevirsən, amma yaşlananda çox da xoşuna gəlmir. Bir zaman sirrli və macəra dolu kəşflər indi acı xatirələrə çevrilir.
Noel üçün İsanın doğumunu canlandıran bəzək əşyasını axtarırdım, tapmaq üçün xeyli qutu və iki böyük sandığı açmaq məcburiyyətində qaldım. Köhnə qəzetlərə və bezlərə sarılmış olan İlarianın ən sevimli oyuncağı əlimə keçdi, uşaqkən ən sevdiyi oyuncaq o idi. Daha altda, Avqustonun heç dağılmamış böcəkləri, böyüdücüsü, onları toplamaq üçün istifadə etdiyi alətləri dururdu. Qaşıdakı bir qənnadı qutusunda Ernestonun qırmızı lentlə bağlanmış məktubları vardı. Sənə aid heç bir şey yox idi. Sən gəncsən, yaşayırsan, dam hələ ki sənə aid bir yer deyil.
Sandıqların birindəki torbanı açanda uşaqlıq çağlarıma aid və dağılmış evimizdən çıxarılan bir necə parça əşya tapdım. Yanıq, qaralmış şeylərdi, onları müqəddəs bir qalıq kimi çıxartdım. Çoxu mətbəxə aid əşyalardı: tökmə ləyən, bəyaz-mavi keramikadan hazırlanmış bir qəddan, bir-iki çəngəl, qaşıq, bir tort qəlibi və üzsüz, dağınıq kitab səhifələri.
Görəsən hansı kitab idı? Xatırlaya bilmirdim. Ancaq etina ilə əlimə götürüb sətirləri nəzərdən keçirməyə başlayanda hər şeyi xatırladım. Məni sonsuz, güclü bir həyəcan bürüdü: bu hər hansı bir kitab deyil, uşaqkən ən çox sevdiyim, məni hər şeydən çox xəyallara sürükləyən kitabım idı. Adı «İki min ilin möcüzələri» idi və səncə bir elmi fantastika idi. Hekayə olduqca sadədi, amma xəyallarla doluydu. Min səkkiz yüzüncü

illərin sonunda yaşayan iki elm adamı təkamülün nəticələrini görmək üçün özlərini iki mininci ilə qədər yuxuya verib dondururlar. Düz yüz il sonra bir elm adamı – eyni sənətdən olan bir elm adamının nəvəsi – onların buzlarını əridib oyadır və kiçik, uçan bir dairənin üstündə dünyanın hər yerinə təbliğatçı olaraq gəzintiyə göndərirdi. Bu hekayədə kosmosdan gələnlər, kosmos gəmiləri yoxdur, yalnız insanın qədərini qeyri-adiləşdirir, insan oğlunun əliylə qurduğu dünya araşdırılırdı. Yazıçıya görə insan oğlu çox şey etmişdi, hamısı da qeyri-adidir. Artıq dünyada nə aclıq, nə də yoxsulluq vardı, texnologiya ilə birləşən elm planetin hər guşəsini bərəkətləndirmiş və daha da əhəmiyyətlisi bu bərəkətin bütün insanlar arasında bərabər paylanmasını təmin etmişdi. Cihazların çoxu insanların fiziki əməyini yüngülləşdirmişdi, hər kəsin boş zamanı boldu, və beləcə hər kəs özündə olan ən yaxşı cəhəti inkişaf etdirə bilərdi. Yer kürəsinin hər tərəfindən nəğmə, şeir, sakit və müdrik fəlsəfi deyimlər eşidilirdi. Bu azmış kimi uçan dairə sayəsində bir yerdən o biri yerə getmək bir saatdan az zaman aparırdı. İki nəfər yaşlı elm adamı bu vəziyyətdən məmnun görünürdülər: onların inamla layihələşdirdikləri hər şey həqiqətə çevrilmişdi. Kitabın vərəqlərini çevirərkən ən çox sevdiyim şəkli də tapdım: iri cüssəli, saqqallı Darvin və yekəqarın iki elm adamı xoşbəxtliklə uçan dairədən yer kürəsini seyr edirlər.
Heç bir şübhə qalmasın deyə biri ən maraqlandığı sualı da vermişdi: «Bəs anarxistlər, inqilabçılar hələ də varmı?». «Əlbəttə var,-deyə rəhbərləri gülümsəyərək cavab vermişdır, - onlar üçün quzey qütbünün buzları altında salınmış bir kənddə yaşayırlar, beləcə də başqalarına zərər vermək istəsələr də buna nail ola bilmirlər». Bir başqası da söhbətə qarışmışdı: «Bəs ordular, necə olur ki, bir əsgər də görünmür?». Gənc isə deyirdi: «Artıq ordu deyilən bir şey yoxdur». O anda ikisi də dərin bir nəfəs alırdı: Nəhayət insan oğlu başlanğıcdakı təmiz ürəkliliyinə üz çevirmişdi! Amma bu, qısa sürən bir sevinc idi, çünki rəhbər əlavə edirdi: «Eh, belə də deyil. İnsanoğlu məhvetmə ehtirasından xilas ola bilmədi, yalnız özünü cilovlamağı öyrəndi. Əskərlər, toplar, süngülər artıq istifadədən düşdü. İndi bunların yerinə kiçik, amma təsirli bir cihaz var. Onun sayəsində artıq döyüş olmur. Bir dağın başına çıxıb onu aşağı buraxmağımız bütün dünyanı məhv etməyə bəsdir».
Anarxistlər! İnqilabçılar! Bu iki söz mənim uşaq çağlarımın ən böyük qarabasması idi. Bəlkə bunları anlamaq  sənə çətin gələr, amma Oktyabr çevrilişi yaşadığım zaman on yeddi yaşındaydım. Qorxunc şeylərin baş verdiyini eşidirdim, bir məktəb yoldaşım mənə söyləmişdi ki, lap yaxında kazaklar Romaya, Vatikana enəcək və atlarına müqəddəs çeşmələrdən su içirəcəklər. Uşaq vaxtı duyduğum bu qorxu beynimə həkk olunmuşdu: gecə yuxuya gedərkən Balkanlardan sürətlə gələn atların nal səslərini eşidirdim.
Kim təsəvvür edərdi ki, bundan dəhşətli səhnələr görəcəyəm, harda qalıb Roma küçələrində qaçan atlar! Uşaqkən bu kitabı oxuyanda hey hesablayırdım ki, görəsən iki mininci ili görə biləcəyəmmi? Doxsan yaşında olmaq mənə olduqca uzaq görünürdü, amma qeyri-mümkün deyildi. Bu düşüncələr mənə yüngül sərxoşluq, iki mininci ili görə bilməyəcəklərin qarşısında bir üstünlük duyğusu verirdi.
İndi iki mininci ilə yaxınlaşdığımız an artıq o günü görməyəcəyimi bilirəm. Kədərlənirəmmi? Xeyir, artıq çox yorğunam. Vəd edilən möcüzələrdən yalnız birini gördüm: o balaca, amma güclü cihazı. Görəsən həyatının son günlərində doyunca yaşamış, doyunca görmüş, doyunca eşitmə duyğusunu qəfldən hər kəs hiss edə bilirmi? Görəsən indii yaşadıqlarımı daş dövrünün adamı da  hiss edirdimi? İndi geridə qoyduğum bu yüz ili düşünəndə sanki hər gün mənə qazanc kimi gəlir. Bir gün, hələ bir gün: gecə günə, gün mövsümə mütənasib bir uzunluqdadır.
İndi də bəzi şeylər daş dövründə olduğundan fərqli deyil. Günəş doğur və batır. Astronomik bir dəyişiklik varsa da bu, çox cüzidir.
Mənə elə gəlir ki, indi hər şey daha sürətlidir. Tarix daha çox yenilik yaradır, bizi sürətli, bir-birindən fərqli xəbərin yağışına tutur. İnsan günün sonunda özünü daha yorğun hiss edir, sanki bir həyatın sonundasan, məhv olursan. Yalnız Oktyabr çevrilişi, kommunizmi

düşünsən bəsdir. Mən onun doğumunu yaşadım, bolşeviklərin üzündən gecələr yuxuya gedə bilmədim, onların ölkələrə yayıldığını, dünyanı ikiyə böldüyünü, burası ağ, orası qara dediklərini, ağla qaranın davamlı vuruşduğunu gördüm. Bu vuruşu nəfəs-nəfəsə izlədik: bomba vardı, biri çoxdan atılmışdı, amma hər an yenisi də atıla bilərdi. Sonra bir anda, o birilərə bənzəyən günlərin birində televizoru açıram və bunların artıq olmadığını görürəm, sərhədlər uçurulur, tel məftillər sökülür, heykəllər dağıdılır: bir aydan az bir müddətdə yüz ilin ən böyük utopiyası bir dinozavr halına gəlir. Artıq mumiyalandı və o, qımıltısızlığıyla çox məsum bir görünüşü var, bir salonda sərgilənir, hər kəs önündən keçir və deyir: «Eh, nə böyükdü, of nə qorxuncdu!»
Komunizm dedim, amma başqa bir şey də söyləyə bilərdim, gözlərimin önündən çox şey keçdi, amma heç biri qalmadı. Nədən zaman qazancdı deyirəm, anlayırsanmı? Daş dövründə bir ömür boyunca bu qədər hadisə olurdumu? Yağıntı mövsümü, çəyirtkə istilası, bir-birini sevməyən qonşuların davası, bəlkə də duman püskürən bir krater açan göydaşının düşməsi. İnsanın öz tarlasından, öz nəhrindən o yanda bir şey yox idi, dünyanın geri qalan hissələrindən xəbərsiz olmaqla zaman təbii olaraq daha yavaş axırdı.
Çinlilər bir-birinə deyərmiş ki, maraqlı illər görəsən. Səncə bu yaxşı bir arzudur? Düşünmürəm, bu arzudan çox bir lənəti xatırladır. Maraqlı illər ən qalmaqallı hadisələrə şahid illərdir. Maraqlı illər yaşadım, amma bəlkə də sənin yaşadıqların daha da maraqlı olacaq. Yalnız bəsit bir astronomik hesab da olsa, bir minilliyin bitməsi özü qədər müdhiş bir həyəcan gətirir.
Səhərlər ağacdakı quşlar iki mininci ilin yanvarın birində olduğu kimi eynilə 31 dekabr min doqquz yüz doxsan doqquzcu ilin səhərində oyandıqları saatda gözlərini açacaqlar, eyni tərzdə ötəcək, həmişə olduğu kimi yem axtarmağa gedəcəklər. Halbuki insanlar üçün isə fərqli olacaq. Bəlkə də – təxmin edilən cəzanı hələ almadılarsa – daha yaxşı bir dünya üçün, yaxşı niyyətlə çalışmağa başlayacaqlar. Belə olacaqmı? Bəlkə də. Bu ana qədər gördüyüm siqnalların hamsı dəyişik, bir-birindən fərqlidir. Bu gün insanın istəklərinə dustaq, qarışıq və çox təhlükəli cihazlardan istifadəyə meyilli biri olduğunu düşünürəm, bir ayrı gün isə artıq pis günlərin geridə qaldığını ruhun ən ali tərəflərinin artıq ortaya çıxmağına qərar verirəm. Görəsən hansı ittiham doğrudur? Kim bilər, bəlkə ikisi də yox, bəlkə də iki minilliyin ilk gecəsində göy üzü insan oğlunu, axmaqlığı və gücünü müdriksizcəsinəə xərclədiyi üçün cəzalandıracaq və yer üzünə atəş və daş yağdıracaq.
İki mininci ildə sən iyirmi dörd yaşında olacaqsan və bunları görəcəksən, halbuki mən itməyən marağımı məzarıma sürükləyərək artıq bu dünyanı tərk edəcəyəm. Bu yenilikləri qarşılamağa hazır olacaqsanmı və bunlar səni qane edəcəkmi? Bu anda göydən bir pəri ensə və mənə üç diləyimi soruşsa nə istədiyimi bilirsənmi? Məni bir siçana, hamsterə, ya da ev hörümçəyinə, yəni görünmədən sənin yanında qala biləcək bir şeyə döndərməsini istəyərdim. Sənin necə bir gələcəyin olacaq, bilmirəm, xəyal da edə bilmirəm, səni çox sevdiyim üçün də bunu bilməmək mənə əzab verir. Bir neçə dəfə bu məsələdən söz açdıq, sən gələcəyi heç də rahat görmürdün: yeniyetməliyə xas o mütləqçi anlayışınla düşünürdün ki, arxanca gəzən bədbəxtlik səni bəlli olmayan bir vaxta qədər izləyəcək. Mənsə tam tərsinə düşünürəm. Səni belə düşündürən nədir, deyə soruşacaqsan. Buskun məsələsinə görə. Çünki sən it fermasında onu seçdiyin zaman, yalnız daha çox itin arasından birini seçdiyinə inanırdım. O üç gün ərzində sən həqiqətən daxili dünyanda daha inamlı bir vuruşu nümayiş etdirdin: görüntü və ürəyinin səsi arasında, sən heç bir şübhə duymadan, çox düşünmədən ürəyinin səsini dinlədin. O yaşda olsaydım, bəlkə mən yumşaq və ehtişamlı, gəzinərkən mənə qısqanacaqları tərzdə əsilli, müşk ətirli, bir it seçərdim. İnamsızlığım, böyüdüyüm şərait mənə çoxdan xarici görünüşə üstünlük verməyi tərbiyə etmişdi.

21 dekabr
Dünən damda uzun axtarışdan sonra özümlə Noel bəzəklərini və yanğından xilas olan tort qəlibini aşağıya endirdim. Deyəcəksən ki, Noel bəzəklərini başa düşdüm Noeldəyik, bəs tort qəlibi nədir? Bu qəlib mənim nənəmə, yəni sənin nənəin nənəsinə aiddi və ailəmizin qadın tarixindən miras qalan tək əşyadır. Uzun müddət damda qaldığı üçün pastlanmışdı, onu o dəqiqə mətbəxə apardım, əlüzyuyanda sağlam əllərimlə sürtgəclə təmizləməyə başladım. Bir düşünsənə, bütün varlığı boyunca neçə dəfə sobaya girib çıxmışdır, neçə dənə bir-birinə bənzəyən, amma fərqli əl onun üçün xəmir hazırlamışdır. Daha uzun ömürlü olsun deyə onu aşağı endirdim, sən də ondan istifadə et və hətta qızlarına təslim et, o da öz təvazökar qəlblik tarixində nəsillər boyunca ailəmizin tarixini xatırlatsın, əks etdirsin.
Onu sandığın dibində görər-görməz səninlə münasibətimizin son dəfə yaxşı olduğu günü xatırladım. Nə zaman olmuşdur! Bir il, ya da daha çox oldu. Nahardan bir az sonra qapını döymədən otağıma girmişdin, əllərimi sinəmdə qoşalaşdırıb yatır, dincəlirdim; məni belə görəndə gözyaşlarını axıdaraq ağlamağa başladın. Hıçqırıq səsinə oyandım. «Nə var?» -deyə bir yandan da oturmağa çalışaraq soruşdum.
- «Nə oldu?».
-«Lap yaxında öləcəksən» - deyərək daha  bərk ağlamağa başladın. Gülərək: «Eh, Allahım, ümid edirəm ki, o qədər yaxında da yox,- dedim və sonra əlavə etdim, - bilirsənmi, sənə bilmədiyin mənimsə bildiyim bir şey öyrədəcəyəm, beləcə artıq burda olmadığım zaman bunu edib məni xatırlayacaqsan». Ayağa qalxdım, sən də boynuma sarıldın. Məni də bürüyən hisslərdən xilas olmaq üçün dedim: «İndi sənə nə öyrətməyimi istəyirsən». Göz yaşlarını qurulayaraq bir az düşündün və: «bir keks» - dedin. Sonra mətbəxə getdik, uzun bir döyüşə girişdik. Əvvəl dirəndin ki, önlük taxmayasan, «indi önlük taxsam, sonra sıra biqudilərə və başmaqlara gələcək, nə qorxuncdur» - deyirdin. Növbə yumurtanın ağlarından qar hazırlamağa gələndə hafizənin gücsüzlüyündən gileyləndin, sonra yağı yumurta sarılarıyla tam həll etmədiyin üçün hirsləndin. «Soba kifayət qədər isti deyil» -deyə deyindin. Şokalat əritdiyim qaşığı yalayarkən burnumun ucu qəhvərəngində oldu. Məni belə gördükdə qəhqəhə çəkərək gülməyə başladın. «Bu yaşında,- deyirdin, - utanmırsanmı, burununu ucu köpək kimi ləkəlidir!»
O sadə keksi hazırlamaq  üçün nahardan sonra bütün günü çalışdıq, mətbəxi acınacaqlı bir hala saldıq. Qəfldən aramızda sonsuz bir yumşaqlıq, günah ortaqlığına dayanaqlı bir nəşə əmələ gəldi. Nəhayət, keks sobaya salınanda və sən şüşənin arxasından onun yavaş-yavaş qızarıb qabarmasını seyr edərkən birdən-birə bu keksi niyə bişirdiyini xatırlayıb ağlamağa başladın. Sobanın önündə səni ovutmağa çalışırdım. «Ağlama, - deyirdim, -səndən qabaq dünyanı tərk edəcəyim doğrudur, amma burada olmadığım zaman da, hələ yaşayacağam, sənin hafizəndəki gözəl xatirələrdə yaşayacağam: ağaclara, bostana, bağçaya baxdıqda səninlə birlikdə keçirdiyimiz bütün xoşbəxt anları xatırlayacaqsan. Mənim oturacağımda oturanda, bu gün öyrətdiyim keksi hazırlayanda da eyni şey olacaq və məni burnum qəhvərəngində qarşında görəcəksən».

22 dekabr
Bu gün səhər yeməyindən sonra zala getdim və İsanın doğumunu canlandıran bəzəyimi hər zamankı yerinə, buxarının yanına yerləşdirdim. Əvvəl yaşıl kartonu sərdim, quru samanları, xurma ağaclarını, Həzrəti Yusif və Məryəm Ananını içində olduğu daxmanı, öküzü, eşşəyi və ətrafa yayılmış çobanları, qazlarıyla kəndli qadınları, çalğıçıları, donuzları balıqçıları, xoruzları, toyuqları, qoyunları və keçiləri onun üzərinə düzdüm. Kəndin üstünə yapışqan bantla göyün mavi kağızını yapışdırdım. Kometanı xalatımın sağ cibinə, xəbərçi kralları sol cibimə qoydum; sonra tağın o biri tərəfinə gedib ulduzu bufetin üstünə asdım; altına, bir az o yana Kralları və dəvələri düzdüm.

Xatırlayırsanmı? Sən kiçikkkən uşaqlara xas o düzgün marağınla ulduzun və üç kralın daxmaya yaxın olmalarına hirslənərdin. Uzaqda olanlar yavaş-yavaş irəliləməliydilər, ulduz bir az qabaqda, üç Kral arxasında durmalıydı. Eyni tərzdə İsa körpənin də ən başdan yeməyə oturmasına dözməzdin, bu səbəbdən gecə on ikidə onu axıra havadan endirirdik. Qoyunları yaşıl xalıların üzərinə düzərək ağlıma sevdiyin bir şey də gəldi: bu sənin uydurduğun bir oyundu və təkrarlamaqdan heç bezməzdin. Bunu etməkçün Pasxadan ilhamlandığını sanıram.
Pasxa bayramında rəngli yumurtaları baxçada saxlamağı vərdiş etmişdim. Sən də Noeldə yumurta yerinə qoyunları saxlayırdın, gözümdən yayındığın an sürüdən birinin götürür və ağla gəlməyən yerlərdə saxlayardın sonra harda olsan da yanıma gəlir və ümidsizcəsinə mələməyə başlayardın, əlimdəki işi buraxır, « hardasan itkin qoyuncuq, yerini söylə, səni xilas edim»- deyərək axtarırdım.
Balaca qoyun indi hardasan? Bunları yazarkən sən kaktuslar, Koyote çaqqalları arasındasan, oxuyarkən burda olacaqsan, mənim əşyalarım da çoxdan dama çıxarılacaq. Söylədiklərim səni xilas edə biləcəkmi? Xeyir, belə bir iddiam yoxdur. Bəlkə səni narahat edəcək, burdan ayrılmadan sahib olduğun o pis təəssüratları qüvvətləndirəcək. Yaşlandığında bəlkə də məni ancaq uzlaşmaqdan mərhəmətə uzanan o əsrarəngiz yolu aşmış anlaya biləcəksən.
Mərhəmət deyirəm, diqqət et, iztirab deyil. Duyğudan iztirab olursa, o pis ruhlar kimi enib sənə əziyyət verərəm. Amma təvazökar olmaqdansa, bəsit bir qız olmağı üstün tutsan, susmaq lazım gəldiyində boş dedi-qodularla uysan da eyni şeyi edəcəm. Lampalar partlayacaq, tabaqlar rəflərdən uçacaq, tumanlar çilçıraqlardan sallanacaq, səhər günəş doğduğu andan gecə yarısınadək səni bir an belə rahat buraxmayacağam. Xeyir, bunlar doğru deyil, heç bir şey etməyəcəyəm. Harda olsam da səni görmə imkanı olarsa, mənasız keçirilmiş bir həyat görəndə necə üzülürdümsə elə üzüləcəm, eşq qaçışını tamamlamamış bir həyat məni kədərləndirir. Özünə diqqət et. Böyüyəndə səhvlərin yerinə doğruları qoymaq istəyəndə xatırla:İlk çevrilişi insan öz içində etməlidir, bəli ilk və ən əhəmiyyətli çevriliş budur. İnsan özü haqqında bir düşüncəyə sahib deyildisə, bir məqsəd uğrunda vuruşmaq atılacaq ən təhlükəli addımdır.
Yolunu itirdiyini, çaşdığını hiss etdiyin zaman ağacları düşün, onların böyümə tərzini xatırla. Unutma ki, yarpağı gur, amma kökü zəif bir ağac ilk güclü ruzgarda aşar, halbuki kökü güclü və yarpağı seyrək ağacda canının suyu min bir qüvvəylə dolaşır. Köklər və yarpaqlar eyni ölçüdə mütənasib olmalıdır, hadisələri izləyib, düzgün nəticə çıxarmağı bacarmalısan, ancaq bu yolla gölgə və sığınacaq tapırsan, ancaq beləcə doğru mövsümdə çiçəklər və meyvələrlə dolana bilərsən.
Qarşında xeyli yol açıldıqda hansını seçəcəyini bilmədiyin zaman, hər hansı birinə o an qədəm qoyma, otur və gözlə. Dünyaya gəldiyin gün necə inamla və dərindən nəfəs aldınsa eləcə nəfəs al, heç bir şeyin sənin diqqətini dağıtmasına yol vermə, gözlə və yenə gözlə. Dur, səssizcə dur və ürəyini dinlə. Səninlə danışdığı zaman qalx və ÜRƏYİNİN APARDIĞI YERƏ GET.